AZƏRBAYCAN DİLİ

DƏRSLİK

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

SAMİRƏ BEKTAŞİ
AYNURƏ İSMAYILOVA
SEVİL CAVADOVA

AZƏRBAYCAN DİLİ 9

Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün
Azərbaycan dili (dövlət dili) fənni üzrə

DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB
BAKI 2018

MÜNDƏRİCAT

MƏKTƏB VƏ FƏRD 6

- Hekayət 9
- Kərpickəsən qocanın hekayəti 11
- Mətn 14
- Finlandiyada təhsil və tərbiyə 18
- İnsanlar 22
- Seyid Əzim yadigarı 28
- Sağ ol, ana dilim 33

CƏMİYYƏT VƏ MƏDƏNİYYƏT 42

- İncəsənət haqqında əsas anlayışlar 44
- Bəstəkarın portreti 51
- Mətn 55
- Əbdülbağı Zülalov Bülbülcan 61
- Unudulmaz xatirə 67
- Haqqın səsi 74

TARİXİ ABİDƏLƏR – ABİDƏLƏRİN TARİXİ 82

- İçərişəhər məhv edilməkdən necə xilas oldu? 84
- Bakı – 1501 90
- “Əbədi məşəl” abidəsi qəhrəmanlıq və rəşadətin əbədiləşən təsviridir 98
- Zivərbəy Əhmədbəyov 101
- Osmanlı dövlətinin ilk baş memarı: Təbrizli Memar Əli 106
- Fit qalası 111
- Tsin Şi Xuandinin məqbərəsi 115
- Büllur piramida 120

MƏNƏVİYYAT CƏMİYYƏTİN TƏMƏLİDİR 126

- Konfutsinin əxlaq nəzəriyyəsi 128
- Nəsihət 133
- Dünyanı yandıran ah 139
- Yenə bir arzu qaldı… 146
- Mətn 151
- Düzgün qərar 158
- Peçenye oğrusu 164
- Körpü 169

İzahlı tərcümə lüğətinə dair nümunə 180

Dərslikdə istifadə olunan sözlərin izahlı lüğəti 182

İstifadə edilmiş ədəbiyyat 192

ŞƏRTİ İŞARƏLƏR

– Məzmun tapşırıqları

– Qrammatik sual və tapşırıqlar

– Lüğət üzərində iş

– Layihə işi

– Dil qaydaları

– Yazı

– Açar sözlər

MƏKTƏB VƏ FƏRD

❑ “Hər bir xalqın xoşbəxtliyi və ya bədbəxtliyi uşaqların tərbiyəsinin necə qoyulmasından asılıdır”.

Həsən bəy Zərdabi

❑ “Hər peşənin öz qayda-qanunu vardır. İnsan öz sənətini yaxşı bilməlidir ki, ondan fayda götürə bilsin və fayda verə bilsin”.

Qabusnamə

Əziz şagirdlər!

- İlk növbədə bölmənin adına münasibət bildirin. *Məktəb* və *fərd* dedikdə nə başa düşürsünüz?
- Fərdin bir şəxsiyyət kimi formalaşmasında məktəb və müəllimin hansı rolu vardır?
- Müəllim və şagird münasibətləri necə qurulmalıdır?
- Şagirdin peşə seçimində məktəb və müəllimin rolu haqqında fikir mübadiləsi aparın.
- Həsən bəy Zərdabidən və “Qabusnamə”dən gətirilmiş kəlamlara münasibət bildirin.
- Sizcə, ilk bölmə nə üçün şagirdlərin məhz peşə seçimi haqqında söhbəti ilə başlanır?

1. Hansı peşə daha yaxşıdır?

Fidan

Mən hüquqşünas olmaq istərdim, çünki haqqı tapdanan insanların hüquqlarını bərpa etmək, onları müdafiə etmək həmişə əsas amalım olub. Uşaqlıqdan ətrafımdakılardan birinin haqsız yerə incidildiyini görəndə əhvali-ruhiyyəm korlanırdı. Saatlarla, bəzən günlərlə bu haqda düşünür, incidilən adamı müdafiə edirdim. Babamın tez-tez "haqqı nahaqqa qurban vermə", "haqq nazilər, amma üzülməz" kimi sözləri hələ də qulaqlarımdadır. Anamdan eşidib öyrənmişəm ki, ilk hüquqşünaslar Roma qanunvericiləri olub.

Yunis

Mən isə gələcəkdə tanınmış memar olmaq istərdim, çünki bu peşəyə, həqiqətən, böyük marağım var. Memarlıq ən qədim peşələrdən biri hesab olunur. Gözəl və yaraşıqlı binalar tikmək insandan yaradıcılıq gücü, təxəyyül tələb edir. Öz bacarıq və imkanlarıma bələdəm və əminəm ki, bu sahədə peşəkar mütəxəssis olacağam. Anam deyir ki, mən hələ körpə olarkən konstruktorla oynamağı çox sevərdim. Saatlarla fiqurları üst-üstə yığıb nə isə düzəldər, sonra oturub düzəltdiklərimə tamaşa edərdim.

Aylin

Mən gələcəkdə həkim olmaq istərdim. Düşünürəm ki, bu, çox şərəfli və məsuliyyətli bir peşədir. İnsanların sağlamlığının qayğısına qalmaq, bəzən ümidsiz insanlara ümid, sevinc bəxş etmək necə də gözəldir. Kiməsə gərək olduğunu bilmək özü bir xoşbəxtlikdir!

Rauf

Mən isə iqtisadçı olacağam, çünki ...

Bu işə maraq mənə atamdan keçib ...

✓ *Mətni tamamlayın.*

✓ *Sizcə, şagirdlər bu peşəyə niyə üstünlük verirlər? Həmin peşə sahəsinin hansı özəllikləri var?*

✓ *Siz hansı peşəyə yiyələnmək istəyirsiniz? Həmin sahəni seçməkdə məqsədiniz nədir?*

✓ *Sizcə, hansı sənət digərindən daha vacibdir? Suala daha dəqiq cavab vermək üçün dərsliyi diqqətlə oxuyun.*

2. İran şahı Keykavusun (XI əsr) oğlu Gilanşaha yazdığı məktubu oxuyun. Mətndəki fikirlər barədə mühakimə yürüdün.

Oğul, bil və agah ol ki, sənəti olmayan adamlar mugilan (*Ərəbistan çöllərində bitən tikanlı bitki, kol*) ağacı kimi faydasız olarlar, nə özlərinə xeyir verərlər, nə də başqalarına.

Çalış, özünün müəyyən sənət və şöhrətin olsun, çünki özünün şöhrəti olmaq əsil-nəsəb şöhrətindən daha yaxşıdır. Əsl ad-san ona deyərlər ki, onu öz istedad və bacarığınla əldə etmiş olasan, bu zaman səni "Zeyd", "əmi", "dayı" əvəzinə, "müəllim", "alim", "həkim" çağırarlar. Əgər əsil-nəsəbi olan adamın öz bacarıq və ləyaqəti yoxsa, o heç kəsin işinə yaramaz.

(*"Qabusnamə"dən*)

HEKAYƏT



Günlərin bir günü cavan (*gənc, yeniyetmə*) öküz öz yaylağına qayıtmaq istəyir. Ora çatmaq üçün o, qalın (*sıx, enli*) bir meşədən keçməli olur. Öküz çox dolama, bir neçə dəfə istiqamətini dəyişən bir cığır seçir. Ertəsi gün oradan qaçan it meşəni keçmək üçün öküzün izindən istifadə edir. Ondan sonrakı gün həmin cığırdan qoyun keçir. Cığırın kimsə tərəfindən istifadə olunduğunu görərək o, dalınca (*arxasınca, ardınca*) gedən sürünü həmin istiqamətdə aparır.

Sonralar insanlar (*adamlar, şəxslər*) da həmin cığırdan istifadə etməyə başladılar. Onlar yol boyu gedərək saysız döngələr dönməyə, maneələri (*çətinlikləri, dolaşıqlıqları*) qət etməyə məcbur olur və haqlı olaraq şikayətlənirdilər. Lakin başqa rahat yol axtarmaq üçün heç bir səy göstərmirdilər. Cığır tez-tez istifadə olunduğu üçün yola döndü. Bu yolu gedərkən hamı əzab-əziyyət çəkirdi. Əgər onlar vaxtilə öküz tərəfindən açılan cığırla deyil, başqa yolla getsə idilər, həmin məsafəni üç saat əvəzinə 30 dəqiqəyə qət edərdilər.

İllər keçdi... Həmin cığır böyük bir yola çevrildi. Ancaq yenə də hamı onun narahat olmasından şikayətlənirdi.

Bu hadisələrin şahidi olan qoca və müdrik (*ağıllı, dərrakəli*) meşə isə insanların hərəkətlərini müşahidə edərək gülürdü. Çünki .....

Fiqurları ardıcıl düzməklə mətnin son cümləsini tamamlayın və meşənin gülməsinin səbəbini tapın. Həmin fikrə münasibət bildirin.



✓ *Cümlənin tərkib hissələrini əlaqələndirmək üçün hansı bağlayıcıdan istifadə etsəniz, daha məqsədəuyğun olar?*

və, ancaq, ki, hərgah, ilə

3. Sizcə, mətn üçün hansı sözlər açar söz ola bilər?
4. Mətndə mötərizədə verilmiş sözlər leksik baxımdan nə hesab edilir?
5. Mötərizədəki sözlərdən hansı mətndəki sözü əvəz edə bilməz? Fikirlərinizi əsaslandırın.
6. *Narahat* və *rahat* sözlərini antonim hesab etmək olarmı? Niyə?

7. Bu hekayətdən hansı qənaətə gəldiniz? Qənaətinizi yoldaşlarınızla müzakirə edərək fikirlərinizi ümumiləşdirin.
8. Hər iki mətnin (*səh. 9*) məzmununu müqayisə edin və nəticə çıxarın.
9. Hekayət vasitəsilə çatdırılan əsas fikri müəyyənləşdirin.
10. Şəklin mətnin məzmununa uyğun olub-olmadığını aydınlaşdırın.

11. “Kim hansı peşənin sahibi olmaq istəyir?” mövzusunda yoldaşlarınızla birgə sorğu keçirin. Nəticələr barədə müzakirə aparın.

Plan

1) Mövzunun müəyyənləşdirilməsi;
2) Sualların tərtib olunması;
3) Sorğunun keçiriləcəyi yer, məkan və şəxslərin müəyyənləşdirilməsi;
4) Alınan cavabların sistemləşdirilib ümumiləşdirilməsi.

12. “Yollar dünyada çoxdur...” mövzusunda təqdimat hazırlayın. Təqdimatınızda yol çəkilərkən fəaliyyət göstərən peşə adamlarına münasibət bildirin.

KƏRPİCKƏSƏN QOCANIN HEKAYƏTİ

(*“Sirlər xəzinəsi” poemasından, ixtisarla*
Tərcüməçi Xəlil Rza Ulutürk)

peşə

zəhmət

Şam şəhəri tərəfdə qoca bir kişi vardı,
Uzaqlaşıb bəşərdən, mələk kimi yaşardı.
Toxuyardı özünə otdan, əncərdən köynək,
Dolanardı minnətsiz, hər gün kərpic kəsərək.
Bir gün yenə o qoca tərini silə-silə
Əlləşərkən palçıqda saman ilə, su ilə
Çıxdı böyürdən qəfil gözəl bir dəliqanlı,
Xitab etdi qocaya, dili ahlı, amanlı:

bəşər – insan, adam
əncər – kol-kos

– Qalx ayağa, torpağa qılınc vurma bu qədər,
Bir qarınlıq çörəyi səndən kim əsirgəyər?!
Bu ***qəlibi*** at oda, yandır, qoy külə dönsün,
Bambaşqa bir qəliblə gün ağla sən özünçün.
Axirət dünyasını qazanmağa çalış sən,
Salma özünü həkdən, əl çək bu daş-kəsəkdən.
Qocasan, qocalarla sən oturub-dur ancaq,
Cavanların işini cavanlar görsün, burax!
Qoca dedi: *“Ay oğul, dəliqanlılıq etmə!*
Öz işinlə şuğullan, mənə ağıl öyrətmə!
Hər sənətin sahibi sənətilə yaşayar,

şuğullanmaq – məşğul olmaq

Qocalar kərpic kəsər, kölələr yük daşıyar.
Əziyyətli olsa da, öyrəndim bu sənəti
Ki, boynumda qalmasın bir kimsənin minnəti.
Xəzinə yığmıram ki, ***məsxərəyə*** qoyulum,
Əlimin zəhmətilə dolanıram, ay oğlum!
Çörək qazanıram mən, götürmə ***babalımı,***
Min harama dəyişməm birgünlük halalımı".
Alovlandı gözəl gənc qocanın sözlərindən,
Gedəndə... gildir-gildir yaş axdı gözlərindən.

Nizami Gəncəvi

Debat:



Zəhmətkeş qoca ilə işləməkdən yayınıb dilənmək yolu ilə pul "qazanmağa" meyilli olan bəzi yeniyetmələri, cavan adamları müqayisə edin.

Qarşılaşdığınız belə hadisələrə münasibət bildirin. Həmin adamlara müraciət etsə idiniz, hansı cümlələrdən istifadə edərdiniz? Onlara nə tövsiyə edərdiniz?

1. *Haram* və *halal* sözləri leksik məna baxımından nə hesab edilməlidir?
2. Tünd şriftlə fərqləndirilmiş sözlərin leksik mənasını müəyyənləşdirin.
3. *Məsxərə, böyük, xitab, zəhmət* sözlərinin sinonimlərini tapın.
4. *Alovlandı gözəl gənc qocanın sözlərindən* cümləsindəki sözləri qarşılığı ilə elə əvəz edin ki, məzmun dəyişməsin.
5. Mətndə hansı sözlər müraciət bildirir?

Hadisələri III şəxsin dilindən verməklə nümunə əsasında mətni davam etdirin.

Şam şəhərində yaşayan qoca kərpic kəsməklə özünün gündəlik dolanışığını təmin edirdi. Qocanın heç kimlə işi yox idi. Təbiətin verdiyi nemətlərdən istifadə edir, minnətsiz dolanırdı.

Bir gün ……

6. Sizcə, N.Gəncəvinin bu mövzuda əsər yazmasının səbəbi nə idi?

7. Qoca və cavan obrazlarını müqayisə edin. Hansının sözlərinə daha çox haqq qazandırırsınız? Nə üçün?

8. Cavanın qoca ilə söhbətində hansı etik norma pozulmuşdur? Fikirlərinizi əsaslandırın.

9. Böyük və kiçik, yaşlı və qoca, kişi və qadın, uzaq və yaxın adamlara müraciət edərkən hansı sözlərdən istifadə edilməlidir?

10. Qocanın cavana dediyi sözləri Keykavusun oğluna etdiyi nəsihətlərlə müqayisə edin. Hansı nəticəyə gəldiniz?

11. Mətnin məzmunu ilə daha çox səsləşən atalar sözlərini seçin:

- İşləməyən dişləməz.
- Özgəyə ümid olan şamsız qalar.
- Zəhmətsiz elm olmaz.
- İş insanın cövhəridir.

12. Siz cavanın yerində olsa idiniz, qocaya nə deyərdiniz?

13. Şeirin son 4 misrasını təhsil aldığınız tədris dilinə tərcümə edin.

14. Nöqtələrin yerinə hansı sözləri əlavə etsəniz, *yaş* və *başqa* sözlərinin leksik və qrammatik mənası dəyişər?

15. Əsərdə altından xətt çəkilmiş hansı misralarda bitkin fikir yoxdur?

16. Şeirdə fərqləndirilmiş cümlələr hansı məqsədlə deyilmişdir?

17. Məhsəti Gəncəvi və Nizami Gəncəvi haqqında məlumat toplayıb, onların sənət və peşə sahiblərinə olan böyük ehtiramının səbəbini araşdırın.

XII əsrdə yaşamış Məhsəti Gəncəvinin rübailərində peşə sahiblərinə böyük ehtiram və məhəbbət hissi vardır. Onun rübailərindən həmin dövrdə Gəncədə mövcud olmuş peşə sahələri və sənətkarlar: dülgər, xarrat, çörəkçi, bənna və s. haqqında məlumat almış oluruq.

18. "Söz var, dağa qaldırar,
Söz var, dağdan endirər" fikri əsasında mətn qurun.

1. Mətndən seçilmiş sözlərin düzgün tələffüzünü müəyyənləşdirin.

istifadə, müxtəlif, məktəb, sürətlə, ixtisas, sənətkar, kadr	
[t]	[d]

* * *

Abzasa əsasən xəritə hazırlayın.

Tarixin müxtəlif mərhələlərində Azərbaycanın cənubunda Manna, Midiya, Atropatena, şimalında isə Albaniya dövlətləri ölkənin ictimai-siyasi və mədəni inkişafında mühüm rol oynamışdır.

Miladdan əvvəl I minilliyin başlanğıcında Azərbaycan *ərazisində* yaşayan qədim tayfaların bir hissəsini mannalılar təşkil edirdi. Mannada elmin və təhsilin inkişafı üçün ən vacib şərt olan yazı mədəniyyəti mövcud idi. Tibb, astronomiya və həndəsəyə aid biliklər xüsusi gil lövhəciklərdə mixi yazı ilə (xüsusi heroqliflərlə) həkk olunurdu.

Manna dövləti süqut etdikdən sonra onun ərazisi Midiya dövlətinin vilayətləri sırasına keçdi. Midiya dövlətində elmə və savada böyük əhəmiyyət verilirdi. Onlar dünyanın ən qədim əlifbalarından olan "arami" (Qədim Suriya) əlifbasından istifadə edirdilər. Məktəbdə tibb, hesab, coğrafiya, musiqi və astronomiya tədris olunurdu. Roma və yunan *mənbələri* Midiyada yazılı ədəbiyyatın və kitab mədəniyyətinin olmasından xəbər verir. E.ə. VI–V əsrlərdə yunan alimləri Midiya maqlarının təlimindən *bəhrələnmişlər*. *Qədim* yunan filosofu Empedokl bütün əşyaların dörd ünsürdən (sudan, havadan, oddan, torpaqdan) ibarət olduğunu söyləyərkən atəşpərəstlərin müqəddəs varlıqlar (od, su, torpaq, hava) haqqında təsəvvürlərinə əsaslanırdı. Empedoklun ideyaları XVIII əsrin sonuna qədər dünya elmində hakim mövqedə olmuşdur. Məşhur rus filosofu A.Q.Sprikin yazırdı ki, Demokrit "*Dünya* atom və boşluqlardan ibarətdir" müddəasını midiyalılardan öyrənmişdir.

Abzasda "yad" cümləni müəyyənləşdirib uyğun abzasa yerləşdirin.

E.ə. XI–X əsrlərdə formalaşmış “Avesta”da qədim Azərbaycanda yaşayan xalqların dini-fəlsəfi, mənəvi-əxlaqi, ictimai-siyasi görüşləri əks olunmuşdur.

Müstəqil dövlətin yaranması məktəbin inkişafına necə təsir göstərə bilərdi?

Müstəqil Atropatena dövlətinin yaranması məktəb təhsilinin inkişafına müsbət təsir göstərdi. Atropatenada məktəb təhsilində arami mənşəli pəhləvi əlifbasından istifadə olunurdu. Bu dövrdə Azərbaycanda dünyəvi elmlər də inkişaf edirdi.

Zadəganların uşaqları ilk təhsilini evdə alır, 7 yaşından sonra isə onları məktəbə göndərirdilər. Atropatena dövlətində sinifli cəmiyyət sürətlə inkişaf etdiyindən müxtəlif peşələrə yiyələnmiş sənətkarlara ehtiyac duyulurdu. İxtisaslı kadrlar “saray məktəbi”ndə hazırlanırdı. Burada hakim sinfin uşaqları 16 yaşından başlayaraq müvafiq *ixtisas* təhsili alırdılar. Hərbi məktəblər də var idi.

Nə üçün sinifli cəmiyyətin inkişafı müxtəlif peşələrin yaranmasını zəruri edirdi?

“Avesta”da insanların ali məqsədə və məqama çatmasında müəllimin roluna yüksək qiymət verilir: “Hər bir şəxs müəllim vasitəsilə yazıb-oxumağı öyrənməli, kamala çatmalıdır. Pis müəllim şüuru korlar. Sözün mənasını çatdırmaz. Ağlın inkişafını dayandırar. Təlim-tərbiyəni fəsada çevirər. Nəticədə həyatın təbii axınına və gözəlliyinə zərər yetirər”.

Zərdüşt müəllimlərlə yanaşı, alimlərin də cəmiyyətdəki istiqamətverici rolunu düzgün qiymətləndirirdi: “Çalışın ki, alim və cahil arasında fərq qoyasınız. Alimlər həyatın yol göstəriciləridir”.

“Azərbaycan təhsil tarixi” kitabından

2. Mətndən açar sözlər seçin. Fikrinizi əsaslandırın.
3. Mənasını bilmədiyiniz sözləri seçib leksik mənalarını müəyyənləşdirin.
4. Fərqləndirilmiş sözlərin sinonimlərini tapın.
5. *Cahil* və *fəsad* sözlərinin leksik mənalarını müəyyənləşdirin, onları cümlədə işlədin.
6. Mətndə çərçivəyə alınmış sözün kontekstə uyğun mənasını izah edin. Həmin sözü “Antonimlər əksmənalı sözlərdir” cümləsindəki *əks* sözünün leksik mənası ilə müqayisə edin.
7. Yeddinci abzasın ilk cümləsində işlənən sinonim sözləri müəyyənləşdirin.
8. Son iki abzası təhsil aldığınız tədris dilinə tərcümə edin.

9. Mətndəki *mərhələ* sözünü hansı sözlə əvəz etmək olar? Əvəz etdiyiniz sözün məna qrupunu müəyyənləşdirin. Özünüz də belə nümunələr yaradın.



10. Nə üçün *hava, su, od, torpaq* müqəddəs sayılır?
11. Mətni necə adlandıracağınız barədə fikir mübadiləsi aparın.
12. Mətndən əsas faktları seçin.
13. Hansı abzasları çıxarsaq, mətnin məzmununa xələl gəlməz?
14. Mətndə hansı suala cavab yoxdur?
    - Midiyalılar hansı əlifba sistemindən istifadə edirdilər?
    - Qədim yunan filosofu Empedokl ünsürlərlə bağlı nəzəriyyəsini irəli sürərkən nəyə əsaslanırdı?
    - "Saray məktəbi"ndə, əsasən, kimlər təhsil alırdı?
    - Romada yazılı ədəbiyyatın və kitab mədəniyyətinin olması barədə kim məlumat verib?
    - Zərdüşt alimləri necə qiymətləndirmişdir?

15. Hər abzasdan çıxan əsas fikri müəyyənləşdirib 1-2 cümlə ilə ifadə edin. Aşağıdakı sxemdən istifadə edin.



16. Sizcə, mətndəki cümlələrdə hansı intonasiyadan istifadə olunmuşdur? Fikrinizi əsaslandırın.
17. Mətndə altından xətt çəkilmiş cümlələr haqqında verilmiş hökmü tamamlayın:
    Həmin cümlələrdə məlumat alınmır, ...

Hər hansı məlumatı vermək məqsədilə işlədilən cümlələrə *nəqli cümlələr* deyilir. Yazıda nəqli cümlələrin sonunda nöqtə işarəsi qoyulur.

18. Uyğunluğu müəyyənləşdirin.

1	Riyazi hesablamalarda ilk dəfə vergüldən istifadə edən Qiyasəddin Cəmşid	A	bir həbsxananın bağlanması deməkdir.
2	"Demokritin "Dünya atom və boşluqlardan ibarətdir" müddəalarını midiyalılardan öyrəndik"	B	onluq kəsr sistemini tapan və bu mövzuda əsər yazan ilk alimdir.
3	Hər açılan məktəb	C	fikri haqqında ilk məlumatı kim vermişdir?

A) 1 C 2 A 3 B
B) 1 B 2 A 3 C
C) 1 B 2 C 3 A
D) 1 A 2 B 3 C

✓ *Hansı nəqli cümlə deyil?*

19. Aşağıdakı söz və söz birləşmələrindən istifadə edərək kiçik mətn qurun:

məktəb, müəllim, rol, oynamaq, peşə seçimi, əsas, istiqamət vermək, mükəmməl, mütəxəssis, mütləq, yiyələnmək, sənət sahibi, şagirdlər, cəmiyyət, borc.

20. "Biz məktəbi belə görmək istəyirik" mövzusunda dialoq qurun. Əsaslandırılmış fikirlər irəli sürün və təkliflər hazırlayın.

21. "Məktəbin inkişaf yolu" adlı təqdimat hazırlayın.

- heroqlif
- zəhmətkeş
- dövlət
- xəzinə
- cığır
- təlim

İzahlı lüğət tərtib edin. Bunun üçün sözlərin leksik mənasını müəyyənləşdirib əlifba sırasına uyğun düzün.

FİNLANDİYADA TƏHSİL VƏ TƏRBİYƏ

(*ixtisarla*)

Finlandiya məktəblilərindən “Uğurlarınızın sirri nədədir?” – deyə soruşduqda ilk olaraq “müəllimlərimiz” cavabını verirlər. Həqiqətən də, burada müəllimlik peşəsi həkimlik və hüquqşünaslıq peşəsi qədər çox *nüfuzlu,* müqəddəs və etibarlıdır. Müəllimlər səmimi, ünsiyyətcil, insan haqlarına ehtiramla yanaşan şəxsiyyətlərdir. Şagirdləri ilə yetkin insan kimi davranan müəllimlər onlara çox güvəndiklərini hiss etdirirlər. Dərslərdən sonra ayrılan 2 saat əlavə vaxt ərzində şagirdlərin gündəlik nəticələri ilə maraqlanır, evlərini ziyarət edib onlarla müxtəlif mövzuda söhbətlər keçirirlər. Buna görə də fin uşaqları müəllimlərini ata-anaları kimi çox sevirlər.

Finlandiyada təhsilə, xüsusilə də oxumağa böyük önəm verilir. Uşaqların təhsil alması ölkənin, cəmiyyətin və ailənin ən *prioritet* məsələlərindəndir. Bu səbəbdəndir ki, uşaqların tədris prosesinə hazırlanması hələ məktəbəqədər dövrdən nizamlı şəkildə aparılır. Oxucular ölkəsi olan Finlandiyada 85% ailə gündəlik qəzetlərə *abunədir* və orta hesabla il ərzində adambaşına oxunan kitabların sayı 57-dir. Dünyaya gələn hər uşağa dövlət tərəfindən verilən hədiyyə paketinin içində mütləq bir kitab olur.

Finlandiya bütün uşaqlara bərabər təhsil verməyi bacaran bir ölkədir. Finlər üçün “bacarıqsız, pis şagird” anlayışı yoxdur. “Hər bir uşaq dəyərlidir” prinsipinə əsaslanaraq onlara fərdi yanaşılır. Müəllimlər şagirdləri üçün maraqlı dərs nümunələri hazırlamaqda peşəkardırlar. Hal-hazırda Finlandiyada

1. Hansı sözlər mətn üçün açar söz ola bilər?
2. Fərqləndirilmiş sözlərin leksik mənalarını izah edin.
3. *Nüfuzlu* və *prioritet* sözlərinin qarşılığını tapmağa çalışın.
4. *Səmimi* sözünün antonimini tapın və cümlədə işlədin.
5. Altından xətt çəkilmiş sözləri hansı sözlə əvəz etsəniz, mətndə ifadə edilən fikirlərə xələl gəlməz?
   - Finlandiyada təhsilə, xüsusilə də oxumağa böyük önəm (*üstünlük, əhəmiyyət, dəyər, qiymət*) verilir.
   - Məqsəd çətinliyin öhdəsindən gəlmək üçün doğru (*həqiqi, dəqiq, düzgün, real*) mənbədən istifadə etməyi öyrətməkdir.
6. Sinonimliyə görə məntiqi ardıcıllığı davam edirin:



dərsliklərdən istifadədə yeni yanaşmaların tətbiq olunması barədə müzakirələr gedir. Özlərini evlərindəki kimi hiss edən şagirdlər iməcilik, bağça təmizliyi və kitabxana işləri, yeməklərin paylanması kimi bəzi öhdəlikləri özləri yerinə yetirirlər. Beləliklə, uşaqlarda məktəbə bağlılıq artmış olur.

Abzasda yerinə düşməyən cümlələr hansılardır? Həmin fikir ətrafında müzakirə aparın.

Finlandiyanın əldə etdiyi müvəffəqiyyətin arxasında duran digər əhəmiyyətli amil də təhsil sistemindəki "Sisu" anlayışıdır. Bu ölkənin mədəni xüsusiyyəti "*əzm*, cəsarət və əsla imtina etməmək" mənalarına gələn "Sisu" sözündə ifadə edilmişdir. Məktəblərdə uğur qazanmağın çalışqanlığa və əzmə bağlı olduğu düşüncəsi aşılanır.

Nə üçün "Sisu" anlayışı təhsil sisteminin müvəffəqiyyəti hesab edilir?

Fin təhsil sisteminin fərqli cəhətlərindən biri də odur ki, təhsilin ilk 6 ili ərzində məktəblərdə uşaqların biliklərinin qiymətləndirilməsi, ümumiyyətlə, həyata keçirilmir. Yalnız bir mütləq test vardır ki, bütün uşaqlar 16 yaşına çatanda bu imtahandan keçirlər. *Dəyərləndirmək* üçün ilin sonunda imtahan verilmir. Şagirdlər müəllimlərin hazırladıqları suallarla dəyərləndirilir. Burada uşaqları test imtahanına hazırlamaqdan daha çox tamamilə öyrətmə prinsipi hakimdir. İmtahan zamanı isə uşaqlar istənilən mənbədən istifadə edə bilərlər. Məqsəd çətinliyin öhdəsindən gəlmək üçün doğru mənbədən istifadə etməyi öyrətməkdir. Tədris işçiləri uşaqları doğru təhlil edərək onların fərdi qabiliyyətlərini görür və bu fərdilikləri daha da inkişaf etdirən təhsil verirlər. Yaradıcılıq qabiliyyətlərini və bacarıqlarını nümayiş etdirmək üçün dəstəklənən şagirdlər öyrənir, araşdırır, düşünür, yazır və təqdim edirlər. Belə ki nəzəriyyəyə və əzbərçiliyə söykənən bir təhsil yerinə, tamamilə düşünməyə istiqamətlənən təhsil verilir.

Bu fikrə münasibət bildirin.

Səməd Ramizoğlu

7. Mətndə hansı suala cavab yoxdur?
   a) Fin təhsil sistemində hansı qiymətləndirmə növündən istifadə olunur?
   b) Fin təhsil sisteminin uğuru hansı amillərdən asılıdır?
   c) Finlandiyada şagirdə münasibətdə hansı prinsipə əməl olunur?
8. Təhsil aldığınız məktəbdə müəllim-şagird münasibətlərinin necə qurulduğu haqqında fikir mübadiləsi yürüdün. Fikirlərinizi mətndəki fikirlərlə müqayisə edin.
9. M.Ə.Sabirin "Hər şeyin ibtidası tərbiyədir" kəlamının mətnlə uyğunluğunu əsaslandırın. Bu kəlamı mətnə epiqraf seçmək olarmı?

Mətn əsasında dialoq tərtib edin. Bunun üçün:

- mətndən əsas faktları seçin;
- faktları sistemləşdirin;
- yoldaşlarınızla sual-cavab edin.

– *Sizin uğurlarınızın sirri nədədir?*

– *Bizim uğurlarımızın sirri müəllimlərimizdədir.*

– *Müəllim-şagird münasibətləri necə qurulmuşdur?*

.....

✓ *Öz təhsil sisteminiz haqqında fin şagirdlərinə hansı məlumatı vermək istərdiniz?*

10. Aşağıdakı cümlələri tamamlayın.

- Badisəba xanım Mustafa ağa qızı Vəkilova _____ Qazax qəzasının Salahlı kəndində anadan olmuşdur.
- _____ Badisəba xanımın təhsili ilə fərdi məşğul olmuş və onun maarifçi qadın kimi yetişməsində böyük zəhmət çəkmişdir.
- _____ Qazaxda _____ açmışdır. 1920-ci ilin iyun ayında bolşevik-daşnaklar tərəfindən Gəncədə güllələnən Firidun bəydən sonra _____ olmuşdur.
- BAKI PEDAQOJİ TEXNİKUMUNDA müəllim işləyən Badisəba xanım həm də pedaqoji institutda ali təhsil almışdır. 1925-ci il mayın 1-də Maarif Komissarlığının əmri ilə Badisəba xanım Köçərli Zaqatalaya göndərilmiş və ____.
- 1929-cu ildə isə QUBA PEDAQOJİ TEXNİKUMUNUN yaradıcısı olan bu fədakar qadın 1930-cu ildə Şəkidə _____ olmuşdur.
- Yüzlərlə kimsəsiz uşağın böyüməsində və təhsil almasında Badisəba xanım Köçərlinin əvəzsiz xidməti var. Yorulmaz maarif xadiminin böyüməkdə olan balalarımıza təmənnasız qayğısı layiqincə qiymətləndirilmiş _____ adı ilə, _____ ordeni və "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olunmuşdur.

1. "Yetim və qaçqın uşaqlar evi"
2. ƏMƏKDAR MÜƏLLİM, "ŞƏRƏF NİŞANI"
3. Firidun bəy Qoridə müəllim işləyəndə
4. 1881-ci il martın 2-də
5. orada ilk dəfə Pedaqoji Texnikum təşkil etmişdir
6. Badisəba xanım öz xərci ilə 1918-ci ildə
7. Badisəba xanım onun maarifçilik fəaliyyətinin davamçısı
8. 2 saylı uşaq evinin də təşkilatçısı və direktoru

✓ *Cümlələri bərpa etdikdən sonra kiçik mətn qurun, lazımsız təkrarları aradan qaldırın.*

✓ *Hazırladığınız mətni "Finlandiyada təhsil və tərbiyə" mətni ilə məzmun baxımından müqayisə edin. Hansı oxşarlığı gördünüz?*

✓ *Mətni təhsil aldığınız tədris dilinə tərcümə edin.*

11. 10-cu çalışmada bütün hərfləri böyük verilmiş sözləri orfoqrafiya lüğətinin köməyi ilə düzgün yazın.

BAKI PEDAQOJİ TEXNİKUMU _____

✓ *Özünüz də belə nümunələr toplayın.*

12. Uyğunluğu müəyyənləşdirin.

13. Bu gün dövlətimizin təhsilin inkişafı üçün etdiklərini "Finlandiyada təhsil və tərbiyə" mətnində söylənilən fikirlərlə müqayisə edib nəticə çıxarın.

14. Təsəvvür edin ki, hər hansı bir ölkənin məktəblilərini şəhərinizə dəvət etmək istəyirsiniz? Bu zaman onlara hansı sözlərlə müraciət edərdiniz?

15. Öz seçiminiz əsasında hər hansı bir ölkənin təhsil sistemi haqqında təqdimat hazırlayın.

Plan

1) Seçdiyiniz ölkənin təhsil sistemi haqqında ətraflı məlumat toplayın.
2) Həmin sistemin özəllikləri və bəyənmədiyiniz cəhətlərini qeyd edin.
3) Həmin cəhətləri Azərbaycan təhsil sistemi ilə müqayisə edin.
4) Təkliflərinizi irəli sürün.
5) Təqdimatınıza şəkillər əlavə edin.

1. Tələffüz qaydalarını və intonasiyanı gözləməklə şeiri oxuyun.

İNSANLAR

(*ixtisarla*)

Sevgi dedikdə nə başa düşürsünüz?

Mən sizi bu qədər sevirəm nədən,
Sizdən giley, qeybət edə bilmirəm.
Hətta qəsdən mənə bir pislik edən
Şəxsə də heç nifrət edə bilmirəm.

Mən sizi sevirəm yaxşılı-pisli
Yox, məndə doğmayır nifrət hisləri.
Seçə bilməyirəm, sizdən nə gizli
Tamam yaxşıları, tamam pisləri.

Yer üzərində sevgi olmasa, nə baş verər?

Ey mənə dərs vermiş, əziz müəllim!
Mənə nifrət hissi vermədin niyə?
Axı bu nifrətlə bölə bilərdim
Mən də insanları bu gün ikiyə.

Kimə ki yaxşılıq edirəm hərdən
Ürəyim fərəhlə, işıqla dolur.
Bəzən də yaxşılıq edə bilmirəm
Bu mənim özümə bir pislik olur.

İnsanın insana sevgisi olmasa, nə baş verər?

Ey nifrət hisləri, qəlbimdən köçün
Nifrətsiz olmağı mən qət edirəm...

Söhrab Tahir

2. *Qeybət, giley, nifrət* sözlərinin leksik mənasını müəyyənləşdirməyə çalışın.
3. *Giley* sözünü hansı sözlə əvəz etsək, misranın məzmununa xələl gəlməz?
4. *Pislik, yaxşılıq* sözlərinin sinonimlərini tapın.
5. İkinci bəndin ikinci misrasındakı *doğmayır* sözünün kontekstdən çıxış edərək mənasını izah edin.
6. Mətndəki *gizli* sözünü hansı sözlə əvəz etmək olar? Bu sözün hansı məna qrupuna aid olduğunu müəyyən edin. Özünüz də belə nümunələr tapın.
7. Şeirdə müraciət bildirən sözləri seçin. Daha hansı müraciət bildirən sözləri tanıyırsınız?

Hər xalqın dilində onun milli xüsusiyyətlərinə uyğun olan müəyyən standart söz və ifadələr vardır. Belə sözlərə *nitq etiketləri* deyilir.

Dilimizdə işlənən *müraciətlər* nitq etiketlərindən biridir.

8. Sözlərin quruluşunu nəzərə alıb məntiqi ardıcıllığı tamamlayın.

Yoldaş, vətəndaş, ...

Həmin sözlərdən hansını müraciət etiketi kimi işlətmək olar? Fikrinizi nümunələrlə əsaslandırın?

9. Sizcə, nə üçün şair insanlara bu qədər əhəmiyyət və dəyər verir?
10. Şairin bütün insanları sevməsi onun hansı xüsusiyyətini üzə çıxarır?
11. Şairin müəlliminə verdiyi suala siz necə cavab verərdiniz? Müəllimlərinizin şəxsindən çıxış edərək bu sualı cavablandırın.
12. Siz öz müəlliminizə necə münasibət bəsləyirsiniz?
13. Sizcə, nə üçün müəllim müqəddəs sayılır?
14. Şeirin adına münasibət bildirin. Nə üçün şeir "Müəllim" yox, "İnsanlar" adlanır? Siz şeiri necə adlandırardınız?
15. Hansı fikir şeirin məzmunu ilə səsləşir?
    - İnsanı sevmək ona səadət arzu etməkdir.
    - Pis insan başqalarında da həmişə pislik axtarır.
    - Yer üzündə ən böyük varlıq insandır.
    - İnsanı tanımaq üçün onu sevmək lazımdır.
16. Şeiri davam etdirmək istəsə idiniz, hansı suallardan istifadə edərdiniz?
17. Sxemi tamamlayın və şərh edin.



18. Sual əvəzlikləri hansılardır? Şeirdə (səh. 22) sual əvəzlikləri işlənən cümlələri seçib fikirlərinizi əsaslandırın.

19. Sual ədatları hansılardır? Sual ədatları işlənən cümlələri seçib fikirlərinizi ümumiləşdirin.

20. *Müəllim, nə üçün mənə nifrət hissi vermədin?* cümləsi hansı məqsədlə istifadə olunmuşdur? Bu suala necə cavab vermək olar?

✓ *Bir neçə sual cümləsi yazıb onu müxtəlif formada cavablandırın.*

Nümunə:

Sual: Sən hansı liseydə oxuyursan?

Cavablar: – Mən Zərifə Əliyeva adına liseydə oxuyuram.
– Zərifə Əliyeva adına liseydə oxuyuram.
– Zərifə Əliyeva adına liseydə.

21. Mətndəki daha hansı cümlələr sual cümləsidir? Onlara müxtəlif formalarda cavab verməyə çalışın.

Hər hansı bir məlumatı almaq, hər hansı bir informasiyanı öyrənmək məqsədilə işlədilən cümlələrə *sual cümlələri* deyilir. Yazıda sual cümlələrinin sonunda sual işarəsi qoyulur.

Sual cümlələri sual intonasiyası, sual əvəzlikləri və sual ədatları vasitəsilə əmələ gəlir.

Qaydaya əsaslanaraq özünüz nümunələr yaradın.

22. Uyğunluğu müəyyənləşdirin.

Şairin qəlbində insana və bəşəriyyətə sevgi hissini kim oyatmışdı?

Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan?! *(S.Vurğun)*

Bu nədir? Arzuya, diləyə bir bax,
Gör bir nələr keçir ana qəlbindən? *(B.Vahabzadə)*

Ürək arzuları dil açan yerdə
Kağıza boylanmaq nəyinə gərək? *(S.Rüstəmxanlı)*

Şair nə üçün məhz müəlliminə müraciət edir?

Cavab tələb etməyən sual cümlələri

Cavab tələb edən sual cümlələri

Belə cümlələrdən nə zaman istifadə oluna bilər?

23. Sizcə, sual cümlələrinin nitqdə hansı əhəmiyyəti vardır? Düzgün sual vermək və cavab almaq üçün nəyi bilmək lazımdır?

Hökmləri oxuyub münasibət bildirin:

Söylənilən fikirlərlə bağlı veriləcək suallar ölçülüb-biçilməlidir.

Hər bir sual onun sahibinin səviyyəsi, dünyagörüşü, bilik və məlumatı haqqında təsəvvür yaradır.

Suallar əhatəli, düşündürücü, məntiqli, maraqlı olmalıdır.

Sualların verilməsində nəzakət qaydaları gözlənilməlidir.

Suala cavab aldıqdan sonra müsahibə (həmsöhbətə) razılıq bildirilməlidir.

Suallar xüsusi nəzakət və razılıqla qəbul edilməlidir. Bu, natiqin, müəllimin, suala cavab verən digər şəxsin mimikasında əks olunmalıdır.

Verilən suala dərhal münasibət bildirilməlidir.

Cavab vermək bacarığı insanın əsas keyfiyyətlərindən biridir.

Cavab verən təkcə bilik və məlumatını deyil, eyni zamanda öz mədəni səviyyəsini də nümayiş etdirir.

Hər bir şəxs suallara aydın, lakonik və müvafiq emosional çalarda cavab verməyi bacarmalıdır.

İctimai yerlərdə, geniş auditoriyalarda natiqə, çıxış edən digər şəxslərə ünvanlanan suallar diqqətlə dinlənilməli, sualın müqabilində nəzakətli ifadələr işlənilməlidir.

Cavabdan sonra qarşı tərəfin razı qalıb-qalmaması soruşulsa, daha yaxşı olar.

Cavab verərkən etik normalar gözlənilməlidir.

"Qarşımızdakıların söhbətlərini diqqət və ciddiyyətlə dinləməliyik. Əgər bir toplantıda olduqda mövzunu düzgün və yaxşı anlamamışıqsa, qəlbə dəyməyən suallar verərək daha çox izah edilməsini rica etməliyik".

Məhəmməd Peyğəmbər (s.ə.s.)

✓ *Hər hansı bir mövzu ətrafında suallar və cavablar hazırlayın. Bu zaman seçdiyiniz mövzuya uyğun aşağıdakı söz, ifadə və suallardan istifadə edə bilərsiniz:*

Zəhmət olmazsa, deyin görüm; deyə bilməzsiniz ki; sizin fikrinizi bilmək olar?; sizə bir sual vermək olar?; fikriniz aydın olmadı, xahiş edirəm, bir də təkrar edin; zəhmət olmazsa, nümunə göstərin; bu məsələyə sizin şəxsi münasibətiniz necədir?; siz buna əminsinizmi?; düşünmək lazımdır; mən ayrı yolu seçərdim; siz bu təklifə necə baxırsınız?; siz belə fikirləşmirsiniz ki?; danışığınızdan məmnun oldum; çox sağ olun; sizdən razı qaldım; təşəkkürümü bildirirəm; minnətdaram; diqqətinizə görə təşəkkür edirəm; sizi yordum; vaxtınızı aldım; bəlkə, soruşmaq istəyirsən?; bu sualı başqa şəkildə də vermək olar, mənimlə razısınızmı?; bu barədə siz nə deyə bilərsiniz?; məni dinlədiyiniz üçün təşəkkür edirəm.

24. Diskussiya şəklində hazırlanmış hər hansı bir televiziya verilişinə baxın. Sual və cavabları dinləyin. Öz hazırladığınız materiallarla tutuşdurun. Nə müşahidə etdiniz?

25. Şəkilçiləri bərpa edib cümlələri tamamlayın. Mətni adlandırın.

Sultan Məhəmməd türk padşahı(...) oğlu idi. (1) O, məktəb(...) yaxşı oxumur və intizam(...) əməl etmirmiş. Müəllim isə padşahın xatirinə ona cəza vermir(...). (2) Əhvalat padşaha çat(...). O, müəllimlə görüşüb deyir:

– Ey hörmətli müəllim! Mən sizin dərsiniz(...) gələcəy(...). Siz dərsdə məni danlayıb dey(...) ki, övladınız sözə baxmır. (3) Qoy Sultan Məhəmməd gör(...) ki, siz padşahı da cəzalandıra bilər(...).

Bir neçə gündən sonra padşah məktəbə gəlir.

– Müəllim, icazə verin, dərsdə iştirak edim.

– Buyurun, keçib əyləşin. **Xoş gəlmişsiniz!**

Padşah oturub dərsə qulaq asır. (4) Müəllim padşaha deyir:

– Ey padşah, Sizin oğlu(...) dərslər(...) oxumur. (5) Sinifdə özünü pis aparır, intizamı pozur. Oğlunuz barədə tədbir görün. Onun tərbiyə(...) ilə məşğul olun. Tədbir görməsəniz, oğlunuzu məktəb(...) qovacağam.

Bundan sonra Sultan Məhəmməd özünü yığışdırır, intizama əməl edir, yaxşı oxumağa başlayır. Bəli, türk aləmində müəllim padşahdan da hörmətli hesab olunur.

- ✓ *Altından xətt çəkilmiş sözləri qarşılığı ilə əvəz edin. Hansını əvəz edə bilmədiniz? Səbəbini müəyyən edin.*
- ✓ *"Müəllim dərsi Sultan Məhəmməddən soruşur. O, cavab verə bilmir" cümlələrini hansı rəqəmin yerinə yerləşdirmək olar?*
- ✓ *Türk padşahının müəllimə olan münasibətini Söhrab Tahirin sözləri ilə müqayisə edin.*
- ✓ *Mətn üçün qoyulan sualları bəyəndinizmi? Siz hansı suallardan istifadə edərdiniz?*
- ✓ *Sizcə, tünd şriftlə verilmiş ifadə nitq etiketinin hansı növü sayıla bilər?*
- ✓ *"Xoş gəlmişsiniz" ifadəsinin əksi hansı etiket ola bilər?*

A) görüşənədək *B) yaxşı yol* *C) xoş getdiniz* *D) uğur olsun*

Görüşmə və _ayrılma_ etiketləri dilimizdə çox işlənən etiket növlərindəndir.

Salam, xoş gəlmişsiniz, sabahınız xeyir, axşamınız xeyir və s. **görüşmə etiketləri;** *xudahafiz, sağ olun, salamat qalın, əlvida və s.* **ayrılma etiketləri hesab edilir.**

26. Mətni təhsil aldığınız tədris dilinə tərcümə edin.

Bir dəfə Əmir Teymur sarayında camaatı qəbul edir, onların şikayətlərini, istəklərini dinləyirmiş. Saray qaydalarına görə, gələnlər əmirin qarşısında diz çöküb onun ətəyindən öpürmüşlər.

Qəbulun sonuna yaxın qapılar açılır və içəri yaşlı bir kişi daxıl olur. O, qaydalara uyğun olaraq başıaşağı yavaş-yavaş əmirə yaxınlaşıb ayaqlarına qədər əyilmək istəyir. Üzündə heyrət dolu bir ifadə olan Teymur cəld hərəkətlə qocanın qolundan tutur, onun əyilməsinə, təzim etməsinə mane olur. Bununla kifayətlənmir, tez qocanın titrəyən əlindən öpür və hörmətlə onu öz taxtında əyləşdirir.

Saray əhli bu gördüklərindən heyrətə gəlmişdi. "Hər kəsi ayaqlarına qədər gətirib təzim etdirən Teymurun görünməmiş ehtiramla qarşıladığı bu qoca kim idi?" sualı onları düşündürsə də, soruşmağa kimsədə cəsarət yox idi. Teymur özü buna bir aydınlıq gətirir və qocanın qarşısında baş əyərək ".....", – söyləyir.

Sizcə, nöqtələrin yerinə nə yazılmalıdır?

Hökmdar Əmir Teymur xəstə olarkən vəsiyyətində belə demişdi:
– Məni müəllimimin ayağı altında dəfn edin.
Teymurun vəsiyyətinə əməl olunmuşdur.

M.F.Axundzadə ölüm ayağında olarkən onun dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynamış müəllimi M.Ş.Vazehin ayaqları altında dəfn olunmasını vəsiyyət etmişdir. Onların hər ikisinin qəbri Tiflisdədir.

?

Oxuduğunuz məlumatlardan hansı nəticəni çıxara bildiniz?

27. Mühakimə yürüdün. "Müəllim" müraciət formasından bəzən uyğun olmayan məqamlarda, yersiz istifadə olunur. İşindən, peşəsindən və s. asılı olmayaraq istənilən adama bu adla müraciət edilir. Sizcə, bu, düzgündürmü?

28. "Mənim üçün müəllim kimdir?" mövzusunda kiçik mətn qurun. Mətndə sual cümlələrindən istifadə etməyə çalışın.

Yazını yazdıqdan sonra onu təhlil edin. Hansı cümlələrdən daha çox istifadə etdiniz? Nə üçün?

- abunə
- kollec
- texnikum
- tədris
- övlad
- zəngin

Sözlərin leksik və qrammatik mənasını müəyyənləşdirin.

1. Mətndən seçilmiş sözlərin düzgün tələffüzünü müəyyənləşdirin.

tənqid, yataq, açıq, təhqir, başmaq, ancaq	
[q]	[x]

SEYİD ƏZİM YADİGARI

Xeyli vaxt idi ki, Sabir xəstə yatırdı. Artıq özü də başa düşmüşdü ki, bir daha yataqdan qalxa bilməyəcək. Lakin yenə özünü sındırmır, arabir arvadı (...) Büllurnisə ilə zarafat edərək onu güldürməyə çalışırdı. Büllurnisə gülür-düsə də, tez-tez gözləri dolur, ağladığını Sabirdən gizlətməyə çalışırdı.

Büllurnisənin dərdi (...) çox idi. Sabirin xəstəliyi bir yana dursun, evdə yeməyə də bir şey (...) yox idi. Pula gedən nə var idisə, satıb (*xərclə...*). Evdə, demək olar ki, bir şey qalmamışdı. Yazıq arvad nə edəcəyini bilmirdi. Bu zaman qonşudan onu səslədilər. Sabirə tez qayıdacağını söyləyib çıxdı.

Sabir yaxındakı (*rəf...*) Nizaminin "Xəmsə"sini götürüb vərəqləməyə başladı. Bu kitabı ona ustadı (...) Seyid Əzim Şirvani bağışlamışdı. Neçə illər idi ki, əzizləyə-əzizləyə saxlayırdı.

Birdən qapı döyüldü. Sabir kitabı yanındakı (*stol... üst...*) qoyub gözlərini qapıya dikdi:

– Gəlin, açıqdır.

Qapı cırıltı ilə açıldı. (*Astana...*) əsəbi halda başmaqlarını çıxaran dəllal qoltuğundakı bağlamanı yerə atdı, narazı bir halda (*gileylən...*) başladı:

– Mən bu alverdə xeyir əvəzinə, zərər gördüm. Mənə ancaq müftə hamballıq qaldı. Bütün Şamaxını ayaqdan salmışam, amma bu kitablara pul verən tapılmadı. Kimə tərifladimsə, dodaq büzdü, məni məsxərəyə qoydu. Dedilər ki, bunlar yaxşı kitab olsaydı, Mirzə Ələkbər satdırmazdı.

Sabir danışmadı. Dəllal bir an ara verib müştəri gözü ilə evin künc-bucağına nəzər saldı. Lakin dəyərli (...) heç nə görmədiyindən əlavə etdi:

– Mirzə, əgər gizlində qiymətli bir şey varsa, mən elə bu saat nağd pula ala bilərəm. Yoxdursa, daha mənə əziyyət vermə.

– Xeyr! Kasıbın malı göz qabağında olar. Çox heyif ki, gördüyündən savayı heç nəyimiz yoxdur.

– Onda xudahafiz, Mirzə! Xahiş edirəm, bundan sonra bir də belə lazımsız şeyləri xırıd etmək üçün məni narahat etməyəsən.

Dəllal dönüb çıxmaq istəyəndə cildinə çırağın işığı düşmüş köhnə "Xəmsə"yə gözü sataşdı. Dərhal ayaq saxladı. İçərisindən xəbərdar olmasa da, bu kitabın tərifini çoxlarından eşitmişdi. Bir neçə (*müştəri...*) ona: "Əgər Nizaminin "Xəmsə"sini tapsan, gətir, haqqını artıqlaması ilə verərəm!" – demişdi. İndi dəllal bu cür qazancı əldən vermək istəmirdi. Buna görə də tez şüşəsi qırıq (*eynək...*) taxıb razılıq almadan "Xəmsə"ni götürdü. Kitabın səhifələrini vərəq-

ləyərək şəkillərinə tamaşa elədi, özlüyündə qiymətini qoyduqdan sonra boğazını arıtlayıb Sabirə tərəf döndü:



– Mirzə, – deyə səsinin ahənginə həlimlik qataraq dilləndi, – bilirəm ki, indi sənə pul lazımdır. Mən də (*ürək...*) rəhmli (...) bir adamam. Ona görə də sənə əl tutmaq, kömək etmək (...) istəyirəm. De görüm, bu "Xəmsə"-nin qiyməti neçədir? Haqqını elə bu dəqiqə verəcəyəm…

Dəllal çeşməyini (...) çıxarıb xırda, hiyləgər gözlərini xəstənin sifətinə dikdi. Sabir çevik bir hərəkətlə dikələrək ilk səhifəsində müəlliminin ürək sözləri yazılmış kitaba baxdı. Sonra qəzəbli nəzərlərlə dəllalı süzdü:

– Gerçəyini bilmək istəyirsənsə, bu kitabın qiyməti yoxdur. Əgər olsa da, sənin vücudunun (*qiymət...*) qat-qat bahadır.

Sabirdən belə təhqir gözləməyən dəllalın səsi titrədi:

– Mirzə, niyə elə danışırsan? Mən ki müftə (...) istəmirəm. Haqqını alacaqsan da. Pul verəcəyəm də.

Sabir çənəsini qaşıyıb üzünü ona tutdu:

– Dəllal, çıx get! Bundan sonra bir daha mənim kandarıma ayaq basma! Onu anla ki, Sabir ac-susuz qala bilər, dərmansız (*keçin...*), ancaq Nizamisiz yaşaya bilməz!

Sabirin sözlərinə münasibət bildirin. Dəllalın təhqir, yoxsa tənqid olunması barədə fikir mübadiləsi yürüdün.

Səriyyə Tahirzadə

2. *Təhqir, tənqid, təhdid* sözlərinin leksik mənalarını müəyyənləşdirib cümlələrdə işlədin.
3. Mötərizədəki nöqtələrin yerinə elə sözlər seçin ki, onları əvvəlki sözün əvəzinə işlətdikdə cümlələrin məzmununa xələl gəlməsin.
4. Altından xətt çəkilmiş birləşmələrin növünü müəyyən edin və qarşılığı ilə əvəz etməyə çalışın.

5. Mötərizələrdə verilmiş sözlərə və söz birləşmələrinə uyğun şəkilçilər artırın. Hansı sözlər şəkilçi qəbul edərkən kökündə dəyişiklik baş verdi?

6. Sizcə, haqqında söhbət gedən Sabir kimdir? Onun haqqında məlumat toplayın.

7. Mətnə əsasən, Sabirin mənəvi keyfiyyətlərini sadalayın.

8. Dəllalın Nizaminin "Xəmsə"sinə verdiyi dəyərin səbəblərini araşdırın.

9. Hansı abzasda atalar sözü işlənmişdir?

10. Mətnin adı ilə razısınızmı? Siz hansı adı seçərdiniz?

11. Verilmiş atalar sözlərindən hansı mətnin məzmunu ilə uzlaşır?
- Söz danışıqdan keçər.
- Pis söz qəlp puldur, yiyəsinə qayıdar.
- Araba qırılanda yol göstərən çox olar.
- Yaxşını yada vermə – hayıfdır,
  Yamanı yada vermə – ayıbdır!
- Ustadına kəc baxanın gözlərinə qan damar.
- Yaxşılıq edib bir şey umursansa, etməsən, yaxşıdır.

12. Sizcə, müəllimin şagirdinə ən dəyərli hədiyyəsi nə ola bilər?

13. Nizaminin "Xəmsə"si haqqında məlumat toplayıb təqdimat hazırlayın.

14. Bu abzasları mətnin hansı hissəsinə yerləşdirsəniz, ardıcıllıq pozulmaz?

1

"Qəzəlimə yazdığın şirin cavab çox xoşuma gəldi. Hazırda başqa bir şeyə gümanım olmadığından haman kitabı sənə silə (hədiyyə) göndərirəm. Yadigari-ustad olmaq təriqiylə qəbul edəsiniz. (Ustaddan yadigar kimi qəbul edin.) Şairlikdə tərəqqi etməyinizi arzu edirəm".

2

Aylarla ehtiyac içində, işsiz, əzab-əziyyətlə dolanan böyük şair 1910-cu ilin axırlarında ciyər xəstəliyinə tutulur. Xəstəliyi getdikcə şiddətlənən şairə həkimlər cərrahiyyə əməliyyatı aparmağı təklif edirlər. "Mən portmanat deyiləm ki, məni açasınız, baxasınız və yenidən bağlayasınız", – deyib Şamaxıya qayıdır.

3

Azərbaycan ədəbiyyatına yeni mövzu və obrazlar gətirən Nizami özünün beş poemasını "Beş xəzinə" adı altında birləşdirmiş, həmin poemalar sonralar tədqiqatçılar tərəfindən "Xəmsə" adlandırılmışdır. "Xəmsə" beşlik deməkdir.

15. Mətndə (səh. 30–31) çərçivəyə alınmış cümlələrin hansı məqsəd və intonasiya ilə deyilməsi barədə fikir yürüdün.

Əmr cümlələri məsləhət, xahiş, istək, nəsihət, əmr bildirir. İntonasiyadan asılı olaraq əmr cümlələrinin sonunda nöqtə işarəsi qoyulur.

Əmr cümlələrinin xəbəri feilin əmr şəklində olur.

16. Mətndə yazılışı səhv olan sözləri düzəldin, durğu işarələrini bərpa edin.

ABRAAM LİNKOLNUN ÖZ OĞLUNUN MÜƏLLİMİNƏ MƏKTUBU

Mən bilirəm ki o ətrafdakı insannarın heç də hamısının səmimi və ədalətli olmadığını biləcəy. Oğluma onu da öyrət ki ətrafda dost olduğu kimi, düşmən də vardır. Bilirəm, buna zaman lazımdır. Lakin əgər öyrədə bilsən, ona əziyyətlə qazanılan bir dolların yerdən tapılan beş dollardan daha qiymətli olduğunu öyrət. Ona itirməyi və uduzmağı öyrənməsini öyrət, xəm də qələbə çaldıqca sevinməyi... Pahıllıqdan, qısqanclıqdan uzaqlaşmağı, səssiz gülüşün sirlərini öyrət ona. Elə şərait yarat ki, oğlum davakar və lovğa adamlar üzərində qələbə çalmağın daha asan olduğunu başa düşə bilsin. Ona kitabların möcüzələr yaratdığını öyrət. Ona təbiətin əbədi sirləri haqqında düşünmək üçün asudə vaxt verməyi də unutma. Məktəbdə olarkən səhv etməyin hiylə etməkdən daha şərəfli olduğunu öyrət ona. Hər kəs onun səhv olduğunu söyləyəndə belə öz şəxsi fikirlərinə inanmasını öyrət ona. Çalış ki o, qalib gəlmiş kütlənin ardınca kor-koranə addımlamasın. Nəzakətli insanlara qarşı nəzakətli, sərt olanlara qarşı sərt olmağı öyrət. Bütün insanları dinləməsini, xəqiqət tərəfdarı olmasını, hər şeyin ən yaxşısın seçməyi öyrət ona. Əgər bacarsan, kədərləndiyində belə gülümsəməyi öyrət ona. Göz yaşlarında heç bir utanc olmadığını öyrət. Abırsız adamlardan uzaq durmağı öyrət. Bağıran insan kütləsinə qulaqlarını tıxamasını öyrət ona. Əgər özünün haqlı olduğuna inanırsa, döyüşməsini öyrət. Ona nəzakətli davran, lakin həddən artıq əzizləmə. Çünki ancaq odda yanan polad yüksək keyfiyyətə malik olur. Qoy səbirsiz olacaq qədər cəsarətə sahib olsun. Qoy cəsur olacaq qədər səbiri olsun. Ona xər vaht özünə qarşı dərin bir inamı olmasını öyrət. Ancaq bu zaman onun insanlıqa qarşı dərin bir inamı olacaq. Bu, böyük tələbdir.

✓ *A.Linkoln kimdir? Niyə onun müraciətləri ikinci şəxsin təkindədir? Hansı halda müsahibə "sən" və ya "siz" deyə müraciət etmək lazımdır?*

✓ *Sizcə, məktubda məqsəd və intonasiyaya görə cümlənin hansı növündən daha çox istifadə olunmuşdur? Niyə?*

17. Nöqtələrin yerinə II sütundakı sözlərdən daha uyğun olanını seçin. Seçiminizi əsaslandırın.

1	Deyilən hər söz çıxdığı ..... daxilini əks etdirir. (*A.İsgəndəri*)	ürəyin, qəlbin, könlün
2	Hamı danışır, lakin az adam ..... danışa bilir. (*S.Conson*)	gözəl, yaraşıqlı, qəşəng, göyçək
3	Ana dili ..... xalq artıq yox olur. (*K.Uşinski*)	ölərkən, vəfat edərkən, məhv olarkən, həlak olarkən

18. Uyğunluğu müəyyənləşdirin.

Biliyin ağası olmaq üçün _____	*dünyada mərifət qazana bilməz.* *(N.Gəncəvi)*
Bilik öyrənməyi ar bilən hər kəs _____	*bilik tükənməyən mədən.* *(Atalar sözü)*
Təhsil beyini inkişaf etdirməkdir, _____	*zəhmətin köləsi olmaq lazımdır.* *(O.Balzak)*
Ağıl köhnəlməyən geyimdir, _____	*hafizəni doldurmaq deyil.*

19. “Əgər bir müəllim olsa bədəsil,
Yetişdirə bilməz bəxtiyar nəsil”. (*S.Ə.Şirvani*)

mövzusunda inşa yazın. Zərdüştün “pis müəllim” haqqında dediklərini yada salıb müqayisə aparın.

SAĞ OL, ANA DİLİM

Yollarım sınandı yad ölkələrdə,
Neçə yad dodaqda səsləndi adım.
Sağ ol, ana dilim, məni heç yerdə
Köməksiz qoymadın, yalqız qoymadın.

Döyüşdə qılınctək sıyrıldı qından,
Başımın üstündə bayrağım oldu.
Torpağım ikiyə bölünən zaman
Bu dil bölünməyən torpağım oldu.

Şair bu misralarda hansı tarixi hadisəyə işarə edir?

Bu dildə sevincim, qəmim, kədərim,
Təzə ümidlərə açılan səhər.
Bu dilin reaktiv təyyarələri
Araz sərhədini qıran kəlmələr.

Qapılar dalında qoydular səni,
Haqq dedin, dabandan soydular səni,
Ancaq məhv olmadın, anam, can dilim,
Ordular sarsıdan qəhrəman dilim!

II misraya münasibət bildirin. Sizcə, burada hansı sənətkara işarə olunur?

Ömrüm qırılmazdı, yol qırılsa da,
Səninlə həmişə mən üzüağam.
Bədənim torpağa tapşırılsa da,
Ruhumu mən sənə tapşıracağam.

Sabir Rüstəmxanlı

1. Mətn üçün açar söz seçin.
2. *Yol* sözünün omonimliyini əsaslandırın.
3. Birinci bənddə işlənən *köməksiz* və *yalqız* sözünü hansı sözlə əvəz etsəniz, məzmun dəyişməz?
4. Altından xətt çəkilmiş sözlər bir-biri ilə münasibətdə nə adlandırılmalıdır?
5. Şeirdən omonim sözləri seçib leksik mənalarını nümunələrlə izah edin.
6. Uyğunluğu müəyyənləşdirib nümunələrlə əsaslandırın.

yol	getmək
səfər	etmək
səyahət	çıxmaq

7. Şair nə üçün dilini “ana dilim” adlandırır?

8. Şair *“Qapılar dalında qoydular səni”* dedikdə nəyi nəzərdə tutur? Suala cavab vermək üçün dilimizin tarixi inkişaf yoluna nəzər salın.

9. Nə üçün şair Araz sərhədinin qırılmasını arzulayır? Fikrinizi faktlarla əsaslandırın.

10. Şeirdən hansı faktları seçə bildiniz?

11. Şeir əsasında dialoq tərtib etmək olarmı? Fikirlərinizi əsaslandırın.

12. Fikirlərdən hansı şeirin ideya-məzmunu ilə səsləşə bilər?
    - Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. (*Heydər Əliyev*)
    - Millət dili olan cəmiyyətdir. (*Onore de Balzak*)
    - İnsan öz dilinin altında gizlənibdir. (*Həzrət Əli*)

    ✓ *Aforizmlərin mənasını izah etməyə çalışın.*

    ✓ *Özünüz də müxtəlif dahilərin dil haqqında söylədiyi aforizmləri toplayın.*

13. Şeirdən çıxış edərək “Dil nədir?” sualına bir neçə cümlə ilə cavab verin.

14. II bənddəki *tək* sözünün qrammatik mənasını müəyyənləşdirin. Bu sözün digər qrammatik mənalarını da göstərib müqayisə aparın.

15. Şeirdən nəqli cümlələri seçin.

16. IV bəndin son misrasında nə üçün nida işarəsi qoyulmuşdur? Həmin misrada şairin hansı hissi öz əksini tapmışdır?

Yüksək hiss-həyəcanın ifadə olunduğu cümlələrə *nida cümlələri* deyilir. Nida cümlələri nida və intonasiyanın köməyi ilə əmələ gəlir. Belə cümlələrin sonunda yazıda nida işarəsi qoyulur.

17. Hansı cümlələrin sonunda nida işarəsi qoyulmalıdır?

- Əziziyəm, dilən, gəz
  Bağda gülü dilən, gəz
  Qürbətdə xan olunca
  Vətənində dilən, gəz (*Azərbaycan bayatılarından*)
- Ey cahan, bir daha sən məni dinlə
  Göz, könül dolusu hələ gülməyən,
  Min yol öldürülən, yenə ölməyən
  Əzəli, əbədi Azərbaycanam (*X.Rza*)
- Dil mədəniyyətlə birgə boy atır (*L.N.Tolstoy*)

Şeirdəki cümlələri nümunəyə uyğun olaraq nəsrə çevirib yazın.

Bir sıra yad ölkələrdə olmuşam. Dəfələrlə mənə yad dillərdə müraciət ediblər. Ancaq həmişə ana dilim mənə dayaq olub. Yadların içində məni .....

18. Buraxılmış durğu işarələrini bərpa edin və fikirlərinizi əsaslandırın.

İnsanın tam x(...)şbəxt olması üçün doğma vətəni doğma dili olmalıdır.

Aqillər dilin doğmalığı barədə elə gözəl fikirlər (...)ikmətli sözlər söyləyiblər ki o kəlamların hər biri insanın qəlbini ri(...)qətə gətirir onu öz elinə öz dilinə daha sıx tellərlə bağlayır. Belə bir deyim var: "Bir (...)alqı məhv etmək istəyirsənsə, əvvəlcə onun dilini əlindən al". Dil ən yaxşı ünsiyyət vasitəsidir. Doğma dil elə bir çıra(..)dır ki onun şöləsi çox uza(...) məsafəni də nura qər(...) edə bilər.

✓ *Nöqtələrin yerinə hansı hərflər yazılmalıdır?*

19. Doğru və yanlış fikirləri müəyyənləşdirin.

Sual cümlələrinin əmələ gəlməsində bir çox əvəzliklər və sual ədatları iştirak edir.	doğru
Nəqli cümlələr adi intonasiya ilə deyilir.	
Əmr cümlələrinin sonunda yalnız nöqtə işarəsi qoyulur.	yanlış
Nida cümlələri nidaların və intonasiyanın köməyi ilə əmələ gəlir.	

A)

B)

C) 

D)

E)

20. Mətni oxuyun və münasibət bildirin.

Qədim Afinanın dövlət xadimi və görkəmli natiqi Demosfenin yeddi yaşı olanda atası ölür, gələcək natiqə və bacısına böyük mal-mülk mirası qoyur. Oğlanın tərbiyəsi anasına və qəyyumlara tapşırılır. Qəyyumlar pulun və mülkün böyük hissəsini mənimsəyir, uşaqların təhsilinə və tərbiyəsinə qayğı göstərmirlər. Qəyyumlardan mirası geri almaq üçün gənc məhkəməyə müraciət etmək qərarına gəlir. Məhkəmədə qalib gəlmək üçün Afina qanunları ilə ətraflı tanış olmaq, hər şeydən əvvəl, yaxşı və inandırıcı danışmağı bacarmaq, natiq olmaq lazım idi.

Afinada natiqlik sənətinin ən görkəmli nümayəndələri o zamanlar İsokrat və İsey idi. Demosfen İseyə müraciət edir, dörd il səylə onun yanında oxuyur. Təhsilini başa vurandan sonra Demosfen qəyyumları mühakimə etməyə başlayır. Mülkün tam qaytarılmasına müyəssər olmasa da, qəyyumlarla çoxillik və ağır mübarizə zəminində gələcək natiqdə çalışqanlıq və inadkarlıq xüsusiyyətləri tərbiyə olunur.

Xalq qarşısında çıxış etməyi arzulayan Demosfen öz müəllimindən onu məşhur natiqlərin çıxışına qulaq asmaq üçün məhkəmə iclaslarına aparmağı xahiş edir. Xalqın natiqləri necə alqışladığını görən gənc qəlbləri fəth edən natiqlik sənətinin gücünə heyran olur və natiq olmaq qərarına gəlir.

Bir dəfə Demosfen məhkəmə üçün çıxış nitqi yazmalı olur. Xalq qarşısında gənc natiqin çıxışı uğursuz qurtarır: səs-küy, gülüş ona nitqini bitirməyə imkan vermir. Bu uğursuzluq tamamilə təbii idi. Çünki Demosfenin səsi çox aşağı tonda idi, danışığı ifadəsiz idi. O, kəkələyir, bəzi səsləri düzgün tələffüz etmirdi. Onun çiyinlərini çəkmək vərdişi var idi. O, ruhdan düşmüş və üzgün halda evə tələsdiyindən məşhur Afina aktyorunun onun ardınca gəldiyini heç hiss etməmişdi.

Aktyor öz uğursuzluğu barədə şikayətlənən Demosfenə Sofokl və ya Evripidadan şeir deməsini xahiş edir. Demosfenin oxusundan sonra aktyor şeiri özü deyir. Bu zaman Demosfenə elə gəlir ki, sanki başqa şeir dinləyir. O, indi başa düşür ki, nitq gözəlliyinə dilin ifadəliliyi ilə nail olmaq olar.

Demosfen öz dilinin çatışmazlığını islah etməyi qərarlaşdırır. Heç kimin ona mane olmaması üçün tənha bir yerə çəkilir. Gündə bir neçə saat dalbadal tələffüzünün anlaşılmazlığını düzəltmək üçün tapşırıqlar icra edir: ağzına daşlar yığır və ucadan, aydın danışmağa çalışır. O, dağa qalxarkən və ya dəniz sahilində gəzərkən şeirləri ucadan tələffüz etməyi və ifadəliliyi öyrənir. Uzun və israrlı səylərdən sonra Demosfen öz məqsədinə nail olur və görkəmli natiqə çevrilir. Nəhayət, hətta rəqibləri belə onun natiqlik məharətinin gücünü və ustalığını etiraf etməyə məcbur olurlar.

Vətənə hədsiz sevgisi olan Demosfen 30 yaşında ikən artıq dövlət işlərində iştirak etməyə başlayır və natiqlik istedadının gücü ilə Yunanıstanın düşmənlərinə qarşı çıxır.

Ə.Qasımov. "Nitq mədəniyyətinin tarixi. Siseron, Sokrat, Demosfen" məqaləsindən

21. Sara xatunun yaşadığı dövrdə dövlət başçıları ilə olan diplomatik danışıqlarını, Ağqoyunlu dövlətinin xarici siyasi mənafeyini müvəffəqiyyətlə müdafiə etməsini xatırlayıb müqayisələr aparın.

Nitqin gözəlliyi və düzgünlüyü vacib şərtlərdən biridir. Aristotel yaxşı nitq üçün materialın düzgün seçilməsi, planın tutulması, onun mükəmməl öyrənilməsi, söyləmə zamanı uyğun üslubun müəyyənləşdirilməsi, orfoepik və intonasiya qaydalarına əməl edilməsi, emosiyaların özünəməxsus forma ilə verilməsini mühüm şərt sayırdı.

Nədir dil ağızda, ey ağlı olan?
Hünər xəznəsinə açardır – inan!
Tələsik söyləmə sözünü bir dəm,
Fikrini kamil de, gec olsa, nə qəm...
Əvvəl bir düşün, sonra dilə gəl,
Divar tez yıxılar, olmasa təməl! (*Sədi Şirazi*)

Əziz şagirdlər! Oxuduqlarınızdan nəticə çıxarın! Azərbaycan ədəbi dilinin gözəlliyini qoruyun. Nitqinizi düzgün qurun, onun gözəl olmasına çalışın. Nitqinizdə Azərbaycan ədəbi dilinə yad olan söz və ifadələrdən istifadə etməyin.

22. “Azərbaycan dili dünən və bu gün” mövzusunda inşa yazın və ya “Tarixin yadigarı dilim” adlı təqdimat hazırlayın.

Bunun üçün 38–39-cu səhifələrdəki materiallardan və aşağıdakı plandan istifadə edə bilərsiniz.

- Səh. 38-də verilən mətnləri diqqətlə oxuyun.
- Mətnlərin sonundakı tarixlərə əsasən dövr haqqında qısa məlumat toplayın.
- Mətnlərdəki əsas fikri müəyyənləşdirməyə çalışın.
- Mətnlərdən əsas faktları toplayın.
- Müəlliflərin oxucuya çatdırmaq istədiyi əsas fikir ətrafında düşünün.
- Daha sonra 39-cu səhifədə verilmiş məlumatları oxuyun. Əsas məqamlara diqqət yetirin.
- Müdrik kəlamlardakı əsas fikirlərə diqqət yetirin. Yeri gəldikcə onlardan sitat kimi istifadə edin.
- Topladığınız materialları əlaqələndirməklə rabitəli mətn tərtib edin.

ANA DİLİ

Mən universiteti təzə bitirib vətənimizə gələn günü şəhrimizin qazisi Axund Molla Səbzəli gəldi bizim evə mənim görüşümə. Evimizdə heç kim yox idi anamdan savayı. O da keçdi o biri otağa və qazi ilə biz başladıq söhbəti. Deməyinən yazıq anam da qapının dalında durub qulaq asırdı.

Qazi içəri girən kimi mən qabağa yeridim və dedim: "Salam məleyk". Cənab qazi mənə cavab verdi:

– Ay səlamü əleyküm, əhvali-şərif, ənasiri-lətif, maşaallah, neçə müddətdi müntəziri-vücudi-zicudunuz və müştaqi-didarınız idim. Zati-alinizin məzaci-mübarəkləri salimdir.

Mən bir şey başa düşməyib dedim: "Da".

Cənab qazi bir qədər baxdı mənim üzümə və genə başladı: "Əxəvizadə, təhsilinizi əncama yetiribsiniz, ya dübarə təkmili-nöqsan üçün darülelmə övdət etməlisiniz?"

Mən genə bir şey başa düşməyib dedim ki, cənab axund, yaxşı panimat eləmirəm ki, nə ərz edirsiniz?

Axund soruşdu: Necə?

Mən dedim: Çto?

Söhbətimiz elə bu cür də qurtardı və axund başmaqlarını geyinib çıxıb getdi. Anam girdi içəri və mənə dedi: Balam, mollaynan nə dildə danışırdınız ki, mən heç nə başa düşmədim?

Dedim: Ana, mollaynan biz ana dili danışırdıq. Anam başını saldı aşağı və bir qədər fikrə gedib dedi: "Yazıq ana dili".

"Molla Nəsrəddin" jurnalı

27 yanvar 1907-ci il

- Danışan şəxslər nə üçün bir-birini başa düşmür? Onların bir-birini başa düşməməsinin səbəbi nədir?
- Bəs Ana nə üçün oğlu ilə axundun danışığını başa düşmür?
- Ananın son sözlərinə münasibət bildirin. Onu belə düşünməyə nə vadar edir?
- Mətndə hansı fikirlər təbliğ olunur?

Ümummilli lider Heydər Əliyev 18 iyul 2001-ci il "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman, 30 sentyabr 2002-ci ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun imzalamışdır. İkinci sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini təmin etməyi öz müstəqil dövlətçiliyinin başlıca vəzifələrindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsinin qayğısına qalır. Bu qanun ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

Ümummilli lider Heydər Əliyev

Dil insanı ölçmək üçün vasitədir. İnsan öz dilinin altında gizlənmişdir, danışmağa başlayarkən kim olduğu bilinir.

Həzrət Əli

İnsanı ən qısa yolla tanıdan və keyfiyyətini göstərən dildir.

Cəlaləddin Rumi

Dili qiymətdən salar
Ucuz söz, hiylə, böhtan.
Elə saxla dilini,
Nə dil səndən utansın,
nə sən dilindən utan!

Rəsul Rza

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 2013-cü il aprelin 9-da sərəncam imzalamışdır. Bu Dövlət Proqramı dövlətçiliyimizin başlıca rəmzlərindən olan ana dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını təmin etmək baxımından son dərəcə mühüm bir sənəddir.

❑ "Mən jurnalist olsam, ..." mövzusunda yazardım.

- Müəllim insan həyatını dəyişir.
- Dilimiz qürurumuzdur.
- Maarifçi qadınlarımız.

✓ *Seçiminizi əsaslandırın.*

ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

1. Mətni oxuyub qarşısına ulduz işarəsi qoyulmuş tapşırıqları yerinə yetirin.

Dünya nemətlərinə **1** məşhur yunan filosofu Diogen bir gün çox dar bir küçədə sərvətindən başqa heç bir şeyi olmayan təkəbbürlü bir adamla qarşılaşır. Küçə o qədər dar idi ki, ikisindən biri kənara çəkilib **2**, keçmək mümkün olmayacaqdı. Məğrur zəngin xor baxdığı filosofa: "Mən bir sərsərinin qabağından çəkilmərəm", – deyir. Diogen kənara çəkilərək cavab verir: "Mən isə çəkilərəm".

* Rəngli xanaların yerində hansı ifadələr yazıla bilər?

A) 1. baş verməyən — 2. yol çəkməsəydi
B) 1. əhəmiyyət verməyən — 2. yol verməsəydi
C) 1. əziyyət verməyən — 2. yol kəsməsəydi
D) 1. məhəl verməyən — 2. yol göstərsəydi
E) 1. əhəmiyyət verən — 2. yol versəydi

* Mətndən aşağıdakı nəticəyə gəlmək olar:

A) Diogen özünü çox ağıllı hesab edir.
B) Filosof zəngin və təkəbbürlü bu şəxsə cavab verməkdə çətinlik çəkir.
C) Diogen qarşısındakı şəxsi sərsəri hesab edir.
D) Diogen zəngin şəxsdən çəkindiyi üçün yoldan çəkilir.
E) Diogen təkəbbürlü biri ilə dar körpünün üstündə qarşılaşır.

* Sözlərin leksik mənalarını yazın. Kursivlə verilmiş sözləri təhsil aldığınız tədris dilinə tərcümə edin.

Nemət – *Məğrur* –
Sərvət – Xor baxmaq –
Təkəbbürlü – Sərsəri –

2. Aşağıdakı cümlələrin qarşısındakı xanada onların doğru (d) və ya yanlış (y) olduğunu qeyd edin:

☐ İnsan başqasının seçdiyi yolu kor-koranə gedərsə, bir çox çətinliklərlə üzləşə bilər.
☐ S.Tahir nifrətsiz yaşamağı daha üstün tutur.
☐ Sabir Nizaminin "Xəmsə"sini çox baha qiymətə satır.
☐ Sultan Məhəmməd Sultan Əmir Teymurun oğlu idi.
☐ Türk dünyasında müəllim padşahdan da hörmətli hesab olunurdu.
☐ M.Ş.Vazehi öz vəsiyyətinə görə müəllimi M.F.Axundzadənin yanında dəfn etmişlər.

- ☐ Miladdan əvvəl I minilliyin başlanğıcında Azərbaycan ərazisində yaşayanların əksəriyyəti mannalılar idi.
- ☐ "Dünya atom və boşluqlardan ibarətdir" nəzəriyyəsi Demokritə aiddir.
- ☐ Midiya alimləri yunan maqlarının təlimindən bəhrələnmişlər.
- ☐ "Saray məktəbləri"ndə çox peşəkar sənətkarlar hazırlanırdı.
- ☐ Finlandiya məktəbliləri müvəffəqiyyətlərinin sirrini öz müəllimlərində görürdülər.
- ☐ Fin tədris sistemində yalnız ilk 6 ili ərzində məktəblərdə şagirdlərin biliklərinin qiymətləndirilməsi həyata keçirilir.
- ☐ "Sisu" sözünün lüğəvi mənası "əzm, cəsarət və əsla imtina etməmək" mənalarına gəlir.

3. Tünd şriftlə verilmiş sözlərin sinonimlərini, fərqləndirilmiş sözlərin antonimini tapın.

- **Həyatda** ən *böyük* arzum yaxın adamlarıma **sədaqətli** olmaq, cəmiyyətə hidmət etmək və *qocalara* **yardım** əli uzatmaqdır.

_____

_____

✓ *Hansı söz səhv yazılmışdır?* _____

4. Verilmiş cümlələri məqsəd və intonasiyasına görə aşağıdakı cədvəllərə yerləşdirin. Fikrinizi əsaslandırmağa çalışın.

1) Hər kəs özündə olmayanlar üçün mübarizə aparar. 2) Mümkün olan qədər çox düşün. 3) Yaxşılıq et, bunun qarşılığında heç nə umma. 4) Dünyada 3500 ildən yalnız 200 ilinin barış şəraitində keçdiyini bilirdinizmi? 5) Güc ortaya çıxınca qanunlar zəifləyər. 6) Oyan! Yaşamaq üçün qarşımızda sonsuzluqlar var! 7) Faydasız bir həyat erkən ölümdür.

nəqli cümlə	sual cümləsi	əmr cümləsi	nida cümləsi

5. Nitq etiketlərini uyğun xanalara yerləşdirin.

Salam, görüşənədək, cənab, qızım, gözünüz aydın, yolunuz açıq olsun, xoş gəlmişsiniz, gün aydın, bacıoğlu, müəllim, xanım, hələlik, nə vaxt qayıdacaqsınız?

müraciət etiketləri	görüşmə etiketləri	ayrılma etiketləri

✓ *Hansıları yerləşdirə bilmədiniz? Niyə?* _____

CƏMİYYƏT VƏ MƏDƏNİYYƏT

❑ “İncəsənətin bütün növləri sənətin ən böyüyünə – həyatda yaşaya bilmək sənətinə xidmət edir”.

Bertold Brext
alman yazıçısı

- Bölmənin adına münasibət bildirin.
- Mədəniyyət dedikdə nə başa düşürsünüz?
- Mədəniyyətin cəmiyyətlə hansı əlaqəsi var? Bu əlaqələr necə qurulur?
- İncəsənətin insan əxlaqının formalaşmasında nə kimi rolu vardır?
- İncəsənət şəxsiyyət formalaşdıra bilərmi?
- Fikirlərinizi bölməni yekunlaşdırdıqdan sonra da ümumiləşdirə bilərsiniz.

1. Mətni düzgün tələffüz qaydalarına uyğun oxuyun.

İNCƏSƏNƏT HAQQINDA ƏSAS ANLAYIŞLAR

İncəsənətin müxtəlif növləri məlumdur: memarlıq, boyakarlıq, heykəltəraşlıq, musiqi, teatr, ədəbiyyat və s. *Bunların arasında* ***boyakarlıq, qrafika, heykəltəraşlıq və dekorativ-tətbiqi sənət*** *təsviri sənətə aiddir.* Boyakarlıq əsərinin başlıca təsvir vasitələri rəsm və rənglərdir. Onu müxtəlif növlərə ayırmaq olar. Boyakarlığın ən qədim, ibtidai forması divar rəsmləridir. Onlar

ibtidai dövrdə mağaralarda çəkilən heyvan və insan təsvirlərindən tutmuş ən müasir ictimai binaların monumental təsvirlərinə qədər olan rəsmləri əhatə edir. *Qədim dövrlərdə dini tikililəri: məbədləri, məscidləri və kilsələri bəzəyən təsvirlər dini ideyaların təbliğinə yönəlirdi.* Müasir dövrdə elm, mədəniyyət ocaqları, ictimai mərkəzlər onların ideyalarını bədii şəkildə təbliğ edən təsvirlərlə bəzənir. Divar rəsmlərinin çəkilməsi zamanı müxtəlif bədii-texniki materiallardan və üsullardan istifadə olunur. Bunlardan biri suvağı qurumamış divarda sulu boyalarla işlənən freska (italyanca – "nəm") texnikasıdır. Qədim Misir və Qədim İkiçayarası dövründə nəinki Asiya və Avropa, hətta Afrika və Qədim Amerikanın möhtəşəm memarlıq abidələri məhz freska texnikası ilə işlənmiş rəsmlərlə bəzənmişdir. Freska ilə yanaşı, mozaika adlanan başqa bir texnika da geniş yayılmışdı. O, qeyri-şəffaf xırda rəngli şüşə parçalarını divarın yaş suvağına düzməkdən ibarətdir. Freskadan fərqli olaraq, mozaika

2. Tünd şriftlə verilmiş sözlərin leksik mənasını müəyyənləşdirin.
3. *Rəsm, şəkil, təsvir, foto* sözlərini sinonim hesab etmək olarmı? Fikirlərinizi əsaslandırın.
4. *Tablo* və *portret* sözlərinin məna fərqini izah edin.
5. *Xırda* sözünün sinonimlərini və antonimlərini müəyyənləşdirin.
6. Sual işarəsinin yerinə hansı nitq hissələrinin adı yazılmalıdır? Fikrinizi nümunələrlə əsaslandırın.



yağışa, qara və başqa təbii maneələrə dözümlüdür. *Qədim Roma villalarındakı hovuzların dibindən mozaika orta əsrlərdə saray və məbədlərin divarlarına köçür və o, yüksək sənət növləri arasında özünəməxsus yer tutur.* Məsələn,

Mozaikanın daha dözümlü olmasına səbəb nə idi?

Bakıdakı ..... metro stansiyasını ..... müxtəlif səhnələrinin təsvirlərini verən mozaika bəzəyir.

Boyakarlığın ən geniş yayılmış forması *dəzgah boyakarlığı*dır. Kətan və ağac üzərində yağlı boya ilə çəkilən belə əsərlər **molbert** adlanan xüsusi dəzgahda yaradılır. Monumental boyakarlıq əsərlərindən fərqli olaraq, dəzgah rəssamlığı əsərləri sərbəstdir və istənilən yerdə asıla bilər. Rəssamlıq əsərləri müxtəlif janrlara bölünür. Bunların arasında tematik tablo janrı mühüm yer tutur. Tarixi janrda işləyən rəssamlar ya yunan və Qədim Şərq rəvayətlərini, ya da qədim və müasir tarixi hadisələri əks etdirirlər. Rəssam bəzən qəhrəmanını ümumiləşdirilmiş bir obraz şəklində verir, bəzən də izdiham və böyük xalq kütlələri obrazı yaradır. Hərb səhnələrini təsvir edən tablolar da tarixi janra aiddir. Bəzən onlara batal, yəni müharibə janrı da deyirlər. Məişət janrı sənətkarın konkret müşahidələrinə əsaslanırdı. Belə əsərlərdə onlar qəhrəmanlarının gündəlik həyatı haqqında məlumat verirlər. XVII əsr Hollandiya rəssamlarından bir çoxu məişət janrında əsərlər yaratmışdılar. Görkəmli Azərbaycan rəssamı Əzim Əzimzadənin yaradıcılığında da məişət janrı mühüm yer tutur. Onun "Kosa-kosa", "Kəndirbaz", "Varlı evində toy", "Kasıb evində toy" kimi əsərlərində Azərbaycan xalqının adət-ənənələri, məişəti dolğun əksini tapmışdır. Portret janrında çəkilmiş əsərlərdə konkret şəxslərin zahiri oxşayışı və fərdi cizgiləri məsələsinə daha çox diqqət yetirilir. Əsl istedadlı rəssam konkret adamın təsviri vasitəsilə müasirlərinin ən səciyyəvi xüsusiyyətlərini ümumiləşdirməyə çalışır.

"Ayna" uşaq ensiklopediyasından

Şəkilləri müqayisə edib inşa yazın.

7. Qədim insanları qayalara şəkil çəkməyə nə vadar edirdi?

8. Əgər rəssam olsa idiniz, müasir dövrümüz üçün aktual olan hansı rəsm əsərini çəkərdiniz?

9. Çərçivəyə alınmış cümlədə nöqtələrin yerinə aşağıdakılardan hansı yazılmalıdır?
   A) Nəsimi, "Divan"
   B) Nizami, "Xəmsə"
   C) Həzi Aslanov, döyüş səhnələri

10. *Tematik tablolarda mövzu, əsasən, dini rəvayət və səhnələrdən, eləcə də tarixi hadisələrdən götürülür* cümləsini mətnin hansı hissəsinə əlavə etsək, məzmuna xələl gəlməz?

11. Mətndə nədən danışılmır?
   - İncəsənətin növlərindən
   - Boyakarlığın ən qədim formalarından
   - Freska texnikasının sirlərindən
   - Mozaika ilə freskanın fərqindən
   - Monumental boyakarlıqla dəzgah qrafikasının xüsusiyyətlərindən

12. Mətndə hansı suala cavab var?
   - Boyakarlıq və heykəltəraşlıq dekorativ-tətbiqi sənətin hansı qoluna aiddir?
   - Divar rəsmlərinin tarixi neçənci əsrlərə aiddir?
   - Divar rəsmlərinin çəkilməsi zamanı hansı üsullardan istifadə olunurdu?
   - Nə üçün mozaikaya nisbətən freska texnikası daha davamlı idi?
   - Yaradıcılığında məişət janrına üstünlük verən holland rəssamı kim idi?

13. Mətni abzaslara ayırın və fikirlərinizi əsaslandırın.

14. Mətndən əsas faktları seçin və dialoq qurun.

15. Bu parça əsas mətndəki (səh. 44–45) hansı abzasa aydınlıq gətirə bilər?

Dəclə və Fərat çayları arasındakı torpaqlara babillər və assurlar "Sennaar", yunanlar isə Mesopotamiya, yəni "İkiçayarası ölkə" deyirdilər. Burada e.ə. III minilliyin ortalarında bir neçə dövlət birləşərək Şumer-Akkad deyilən böyük bir dövlətin əsasını qoyurlar. O dövrdə Şumerdə incəsənətin memarlıq qolu xüsusilə yüksək dərəcədə inkişaf edir. Şumer məbədlərinin dekorativ bəzəyində müxtəlif divar rəsmlərindən, heykəl və barelyeflərdən geniş istifadə olunmuşdu.

✓ *Mətni təhsil aldığınız tədris dilinə tərcümə edin.*

16. *Təsviri* sənət *və* insanın *təsviri* birləşmələrində fərqləndirilmiş sözləri leksik və qrammatik baxımdan izah edin.

17. Mətndə məqsəd və intonasiyaya görə cümlənin hansı növündən istifadə olunmuşdur? Niyə?

18. Cədvəldəki sözləri düzgün yazın.

Verilmişdir	Yazılmalıdır		
	bitişik	defislə	ayrı
qeyri?adi dekorativ?tətbiqi ən?sadə ölkələr?arası daha?maraqlı			

✓ *Özünüz də belə nümunələr yazın.*

19. Mətndə altından xətt çəkilmiş söz və söz birləşmələrinin quruluşunu müəyyənləşdirin, nəticələri müzakirə edin.

20. Aşağıdakı söz və söz birləşmələrindən istifadə etməklə cümlələri tamamlayın. Sözlərə şəkilçi artırarkən diqqətli olun.

Ulu Tanrı tərəfindən ona qısa ömür verilmişdi. O, ömrünün qısa olduğunu sanki hiss edir, daha çox ... çalışırdı. Söhbət ... Vəcihə Səmədova haqqındadır. O, 1924-cü ildə ... anadan olmuşdur. Hələ balaca ikən rəssamlığa olan meyli özünü qabarıq şəkildə göstərir, ... bu işə həsr edirdi. Qızının bu həvəsini görən ata onu ... , onun üçün tanınmış rəssamların ... çap edildiyi kitablar alır. Beləliklə, onun peşə seçimi dəqiq müəyyən olunur. Vəcihə Ə.ƏZİMZADƏ ADINA AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ MƏKTƏBİNƏ daxil olur. Moskvada oxuyarkən TRETYAKOV QALEREYASINDA saxlanılan Avropa və rus incəsənətinin şah əsərləri onun ... kimi formalaşmasında əhəmiyyətli rol oynayır. 1951-ci ildə "Üzeyir Hacıbəyli Azərbaycan bəstəkarlarının arasında" adlı diplom işi V. Səmədovanı yetkin rəssam kimi ... .

(*Toğrul Əfəndiyev*)

iş görmək, rəssam, Bakı, vaxtının çox hissəsi, dəstəkləmək, illüstrasiya, istedad, səciyyələndirmək

✓ *Orfoqrafiya lüğətindən istifadə etməklə bütün hərfləri böyük verilmiş sözləri düzgün yazın.*

✓ *Altından xətt çəkilmiş sözlərin köklərini müəyyənləşdirin və kökdəki dəyişikliyin səbəbini izah edin.*

21. Mətndəki sadə cümlələr əsasında mürəkkəb cümlələr düzəldin.

Nümunə: Ulu Tanrı tərəfindən ona qısa ömür verilmişdi. O, ömrünün qısa olduğunu sanki *hiss edir*, daha çox iş görməyə çalışırdı.
Ulu Tanrı tərəfindən ona qısa ömür verilmişdi və o sanki bunu hiss etdiyi üçün daha çox iş görməyə çalışırdı.

22. Nöqtələrin yerinə lazım olan sözləri (*qrafika, mozaika, freska, natürmort*) yazıb uyğunluğu müəyyənləşdirin.

a

... fransızca *cansız təbiət* deməkdir. Bu janra daxil olan əsərlərin mövzusunu müxtəlif predmetlər: məişətdə işlənən əşyalar, evi bəzəyən qablar, gül dəstələri, meyvə, ovlanmış quşlar və s. təşkil edir. Bu janrda əsl rəssam dövrünün ruhunu, öz hiss və duyğularını çox gözəl ifadə edə bilər.

1

2

b

... yunanca *rəsm, şəkil* deməkdir. XIX əsrdə ... əsasını yalnız cizgilər, yaxud ağ və qara xətlər təşkil edirdi. Karandaşla işlənilən rəsm, əsasən, kağızda, bəzən isə parça üzərində çəkilir. Azərbaycanda onun ilk nümunələrinə Qobustan qaya rəsmlərində, Təbriz miniatür məktəbi sənətkarlarının yaratdıqları əsərlərdə və rəssamların qrafik lövhələrində rast gəlinir.

3

c

... italyanca *nəm* deməkdir. Suvağı qurumamış divarda sulu boyalarla işlənən sənət növüdür. Qədim memarlıq abidələri belə rəsmlərlə bəzədilirdi.

d

... fransızca *rəngli qurama* deməkdir. Eyni və ya müxtəlif rənglərdə şüşə, daş hissəciklərdən və plitələrdən hazırlanmış incəsənət nümunəsidir. ... daxili divarlarda, döşəmələrdə və tavanda istifadə oluna bilər. Naxçıvanda XVIII əsrdə inşa olunan Zaviyə məscidi adlandırılan binanın giriş qapısı və pəncərələri, məşhur Şəki Xan sarayı rəngli hissəciklərlə bəzədilmişdir.

4

✓ *Siz şəkillərdən hansını bəyəndiniz və ya əksinə, bəyənmədiniz? Nə üçün? Fikirlərinizi əsaslandırın.*

23. Təsəvvür edin ki, xaricdən gəlmiş dostunuzu Dövlət İncəsənət Muzeyinə aparmaq istəyirsiniz. Bu təklif üçün hansı sözlərdən istifadə edərdiniz və onu maraqlandırmaq üçün hansı məlumatları verərdiniz?

24. Mətndə (səh. 44–45) fərqləndirilmiş hansı cümlələr sadə cümlələrdir? Fikirlərinizi əsaslandırın və sadə cümlələr haqqında kiçik mətn qurun.

Bir neçə cümləsi verilmiş mətni davam etdirin.

Cümlənin quruluşuna görə növlərindən biri sadə cümlədir. Sadə cümlənin bir qrammatik əsası, yəni ...

Məsələn:

Nitqdə...

Sadə cümlə ikinci dərəcəli üzvlər vasitəsilə ...

25. “Rəssamlarımızı tanıyırıqmı?” mövzusunda müsahibə götürün. Müsahibə əsasında qısa mətn yazın.

Müsahibə götürmək üçün yaddaş

1. Mövzunun müəyyənləşdirilməsi;
2. Sualların tərtib edilməsi;
3. Müsahibənin aparılacağı yerin, məkanın və şəxslərin müəyyənləşdirilməsi;
4. Alınan cavabların sistemləşdirilib yekunlaşdırılması;
5. Videoçarxın hazırlanması.

1. Mətndən seçilmiş sözlərin düzgün tələffüzünü müəyyənləşdirin.

söykəyir, işləyir, gözləyir, dinləyir, izləyir, söyləyir, titrəyir, başlayır, baxmayaraq		
[i]	[ü]	[ı]

BƏSTƏKARIN PORTRETİ

TEATR MUZEYİ məşhur Xalq rəssamı Mikayıl Abdullayevdən xahiş etmişdi ki, o, Üzeyir bəy Hacıbəylinin şəklini (…) çəksin. Mikayıl Abdullayev həmişə danışırdı ki, bu portreti çəkəndə Üzeyir bəy razı deyilmiş: "Mənim vaxtım da, həvəsim də yoxdur", – deyirmiş. Mikayıl Abdullayev isə inad göstərib: "Sizin şəklinizi mənə sifariş ediblər, mən bu əsəri çəkməli və muzeyə verməliyəm", – deyib. Növbəti dəfə Üzeyir bəyin əhvali-ruhiyyəsi yaxşı olduğundan o, işlərinin çox olmasına baxmayaraq, portretin çəkilməsinə razılıq verib.

O zaman Üzeyir bəy konservatoriyanın direktoru vəzifəsində işləyirdi. Rəssam onun portretini kabinetindəcə çəkməli olmuşdu. Onun çəkdiyi ilk şəkil Üzeyir bəyin xoşuna gəlir. Bunu hiss edən rəssam həmin şəkli bəstəkara hədiyyə (...) kimi təqdim edir. Sonra o, ikinci şəkildə böyük (...) bəstəkarı öz kabinetindəki masa (...) arxasında təsvir etməyə nail olur. Həmin müddət ərzində bəstəkara soyuq dəyir. O, işə çıxmır. Rəssam portretini çəkib qurtarır və onu rənglərin quruması üçün Üzeyir bəyin masası arxasındakı kürsünün (...) üstündə divar xalçasına söykəyib gedir. Ertəsi gün Üzeyir bəy evdən konservatoriyaya zəng vurub nə isə soruşur. Bununla əlaqədar olaraq kabinetin açarını xidmətçi qadına verirlər ki, lazım olanı oradan gətirsin. Xidmətçi qadın qapını açıb içəri girir və tez geri dönüb direktorun özünün kabinetdə olduğunu xəbər verir. Təəccüblənirlər. Ona görə ki (...) Üzeyir bəyin xəstə olduğunu bilirdilər. Kimsə tez gedib kabinetin açar deşiyindən baxıb görür ki, Üzeyir bəy, doğrudan da, öz yerindədir. Bu dəfə tədris hissə müdiri özü gedib kabinetin qapısını açanda əvvəl çaşır, (...) sonra masa arxasında Üzeyir bəyin portretinin olduğunu görüb gülməyə başlayır.

Bu əhvalat tezliklə yayılır. Bəstəkar özü eşidəndə isə rəssamı çağırıb deyir:

– Çox sağ ol, oğlum, bu portret özü müəllifsiz imtahandan çıxdı.

Kamran Məmmədov

2. Mətn üçün açar sözlər seçin.

3. Nöqtələrin yerinə elə sözlər seçin ki, məzmuna xələl gəlməsin.

4. Frazeoloji birləşmələri müəyyənləşdirib qarşılığı ilə əvəz edin.

5. Məntiqi ardıcıllığı davam etdirin:

yaxşı – pis, vermək – ..., soyuq – ..., açmaq – ....

6. Nümunələr əsasında *yaxşı* və *əla* sözlərinin sinonim olub-olmadığını əsaslandırın.

Onun əhvali-ruhiyyəsi yaxşı/əla idi.
Onun biliyi yaxşı/əla qiymətləndirildi.

7. Mətni abzaslara ayırın.

8. Sizcə, mətnin son hissəsində hansı uyğunsuzluq var?

9. Mətndən hansı faktları toplamaq olar?

10. Mətndən hansı fikir çıxmır?
- M.Abdullayev Ü.Hacıbəylinin portretini sifarişlə çəkirdi.
- Hər iki portret teatr muzeyinə təqdim edilmək üçün hazırlanırdı.
- M.Abdullayev Ü.Hacıbəylidən yaşca kiçikdir.
- İkinci portret rəssama daha çox şöhrət qazandırdı.
- İkinci portret daha uğurlu olduğu üçün teatr muzeyinə verilir.

11. Mətndə hansı suala cavab yoxdur?
- Birinci portret indi hansı muzeydə saxlanılır?
- M.Abdullayev Ü.Hacıbəylinin şəklini nə məqsədlə çəkirdi?
- Ü.Hacıbəyli hansı dövlət müəssisəsində fəaliyyət göstərib?
- İkinci portret nə üçün bəstəkarın iş yoldaşlarını təəccübləndirir?
- Portret sınaqdan necə çıxdı?

12. Mətndən çıxış edərək M.Abdullayev haqqında fikir yürüdün və yığcam təqdimat hazırlayın.

13. Mətndə (səh. 51) bütün hərfləri böyük yazılmış sözləri orfoqrafiya lüğətinin köməyi ilə düzgün yazın.

14. Aşağıdakı cümlələrdə feilləri düzgün yazın.

1. Yağış damcıları damı döyəcliyirdi. 2. Tinglər yavaş-yavaş dirçəlməyə başlıyırdı. 3. Ceyhun astanada dostunu gözlüyürdü. 4. Bu səs anadan ayrılmış bir körpənin ağlamasına bənziyirdi. 5. Səhərin soyuğu onu başqa bir aləmə səsliyirdi.

15. Aşağıdakı cümlələri müqayisə edin. Hansı fərqi gördünüz?

Ertəsi gün Üzeyir bəy evdən konservatoriyaya zəng vurur, nə isə soruşur.
Ertəsi gün Üzeyir bəy evdən konservatoriyaya zəng vurur, o nə isə soruşur.

16. Mətndə altından xətt çəkilmiş cümlələri sadə cümlə şəklində yazın.

Nümunə:

Teatr Muzeyi məşhur Xalq rəssamı Mikayıl Abdullayevdən xahiş etmişdi ki, o, Üzeyir Hacıbəylinin şəklini çəksin.

Teatr Muzeyi məşhur Xalq rəssamı Mikayıl Abdullayevdən Üzeyir Hacıbəylinin şəklini çəkməyi xahiş etmişdi.

17. Mətni oxuyun, cümlələrin quruluşundakı fərqləri müəyyən edin.

1991-ci ildə Cüzeppe Verdinin "Otello" operasında iştirak etmiş Plasido Dominqonu dinləyicilər 1 saat 20 dəqiqə alqışlamış, səhnədən buraxmamışdılar.	... cümlədir, çünki ...
1988-ci ildə isə Luçano Pavarottinin Berlindəki konsertindən sonra pərdə 165 dəfə qaldırılmış, beləliklə, tamaşaçılar üçün mahir ifaçıya öz minnətdarlıq hislərini bildirməyə imkan yaradılmışdır.	... cümlədir, çünki ...

18. Mətni oxuyarkən mötərizədəki ifadələrdən uyğun olanını seçin. Mətni tədris aldığınız dilə tərcümə edin.

Milli musiqimizdə əbədi ənənələrin banisi Cabbar Qaryağdıoğlu Qarabağın parlaq ulduzudur. O, Azərbaycan musiqisinin tarixi və inkişafında mühüm rol oynamış və özündən sonra dəyərli miras qoymuş ustadlardan biridir. C.Qaryağdıoğlu böyük bir xanəndə, (*qabiliyyətli, istedadlı*) şair və bəstəkar olmuşdur. Məşhur rus tədqiqatçısı V.Krivonosov haqlı olaraq qeyd edirdi ki, Cabbar Qaryağdıoğlunun repertuarını bilmədən Azərbaycan xalq musiqisinin tarixini öyrənmək mümkün deyil.

Cabbar Qaryağdıoğlu Şərqdə ilk opera olan "Leyli və Məcnun"un yaranmasında əhəmiyyətli rol oynamışdır.

Operanın müəllifi Üzeyir Hacıbəyli özü bu barədə belə yazırdı: "Opera üzərində (*işləməyə, çalışmağa*) mən 1907-ci ildən başlamışdım, lakin bu (*ideya, fikir*) mənə daha əvvəl, təxminən 1897–1898-ci illərdə gəlmişdi. O vaxt mənim on üç yaşım var idi və doğma Şuşamda mən həvəskar aktyorların ifasında "Məcnun Leylinin qəbri üstündə" səhnəsinə tamaşa etmişdim (Məcnun rolunu Cabbar Qaryağdıoğlu ifa

edirdi). Bu səhnə məni o qədər həyəcanlandırmışdı ki, bir neçə il sonra Bakıya gələndə mən operaya oxşar bir əsər yazmağı qərara aldım".

Cabbar Qaryağdıoğlunun ifasını dinləyən və onun oxu tərzi haqqında öz (*təəssüratını, düşüncələrini, fikirlərini*) bildirən Sergey Yesenin etiraf edirdi ki, heç bir xanəndədə belə uzun nəfəsə rast gəlməmişdir. Xanəndə oxuduqca muğam biliciləri şairin qulağına onların adlarını pıçıldayırdı: "Muğam "Mahur", muğam "Rahab", muğam "Heyratı" və s. İfasını bitirən Cabbar Qaryağdıoğlu qavalı dizləri üstünə qoymuş və salon gur alqış səslərindən lərzəyə gəlmişdi. Təkcə S.Yesenin deyil, bütün zaldakılar tilsimlənmiş kimi oturmuşdular.

– Şair şairə, rəssam rəssama öz təşəkkürünü nə cür bildirə bilər?

Siz necə düşünürsünüz, Azərbaycan xanəndəsinin və muğamının sehrinə düşən şair xanəndəyə öz təşəkkürünü necə bildirəcəkdi?

S.Yesenin ayağa durmuş və bədahətən Cabbar Qaryağdıoğlunun şərəfinə şeir söyləmişdir. Sonra o, şeiri yazıb xanəndəyə vermişdi. Şair Cabbar Qaryağdıoğlunu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdır.

Zemfira Səfərova

- ✓ *Mətnin məzmununu "Bəstəkarın portreti" mətninin məzmunu ilə müqayisə edin. Gəldiyiniz qənaəti müzakirə edin.*
- ✓ *Mətndən əsas faktları seçin.*
- ✓ *Mətnlə tanış olduqdan sonra bu nəticəyə gəlmək olar ki, Cabbar Qaryağdıoğlu ..., ..., ... (fikri tamamlayın).*

- heykəltəraşlıq
- memarlıq
- məişət
- monumental
- milli
- təsviri

Sözlərin qrammatik mənalarını müəyyənləşdirin.

* * *

opera operetta muğam

Üzeyir Hacıbəyli ilə Müslüm Maqomayevin talelərində, sənət yollarında qəribə oxşarlıqlar var. Onlar nəinki bir ildə, hətta bir gündə anadan olmuş, Qori Müəllimlər seminariyasında bir yerdə təhsil almış, sonradan həyatlarını musiqiyə həsr etmək qərarına gəlmişlər. Hər ikisi Azərbaycan musiqisinin tərəqqisi naminə var gücləri ilə çalışmışdır. Üzeyir bəyi Müslüm bəylə sıx yaradıcılıq əməkdaşlığından başqa, səmimi dostluq münasibətləri də bağlamışdır. Həyatlarının ən çətin məqamlarında onlar bir-birinə möhkəm dayaq olmuş, biri digərindən öz köməyini əsirgəməmişdir.



1. Üzeyir Hacıbəylinin 1908-ci il yanvarın 25-də Bakıda tamaşaya qoyulmuş “Leyli və Məcnun” operası *təkcə* Azərbaycanda deyil, ümumən bütün müsəlman Şərqində ilk opera sənətinin ilk nümunəsidir. Üzeyir Hacıbəyli tariximizə milli musiqi ənənələrini Avropa musiqisinin qanunauyğunluqları ilə ilk dəfə üzvi surətdə birləşdirmiş dahi sənətkar kimi daxil olmuşdur. ***

2. M.Maqomayev ilk operası “Şah İsmayıl”ı xalq dastanı əsasında yaratmışdır. “Leyli və Məcnun” kimi, bu opera da zəngin muğam xəzinəsindən bəhrələnmişdir. Bəstəkarın ikinci operası – “Nərgiz” isə Azərbaycan mədəniyyəti tarixinə Avropa üslublu ilk milli opera kimi daxil olmuşdur. M.Maqomayev həmçinin Azərbaycanda ilk opera dirijoru, habelə milli musiqi folklorunun yorulmaz toplayıcısıdır. ***

3. 1897–98-ci illərdə Azərbaycanın zəngin musiqi ocaqlarından sayılan Şuşada dahi Füzulinin “Leyli və Məcnun” poemasının son – “Məcnun Leylinin məzarı üstündə” hissəsi əsasında həvəskarlar musiqili teatr tamaşası

göstərirlər. Yazıçı Ə.Haqverdiyevin rəhbərliyi altında hazırlanmış bu tamaşada artıq tanınmış xanəndələr Cabbar Qaryağdıoğlu və Əhməd Ağdamski ilə yanaşı, Üzeyir adında 13 yaşlı bir oğlan da iştirak edir. ***

4. Milli auditoriyanı xalqın nabələd olduğu opera formasına *alışdırmaq* məqsədilə Ü.Hacıbəyli "Leyli və Məcnun"da maraqlı bir üsula əl atır – klassik operaya xas olan ariya və qəhrəmanları səciyyələndirən digər nömrələri muğamlarla əvəz edir. Bu səbəbdən Ü.Hacıbəylinin "Leyli və Məcnun", həm də sonralar yaratdığı bir neçə yeni əsər "muğam operası" adı ilə tanınır. ***

Bu cümlə hansı abzasın sonundakı ulduzların yerinə əlavə olunsa, məzmuna xələl gəlməz?

O zaman heç kəs təsəvvür edə bilməzdi ki, cəmi 10 il sonra bu uşağın adı Bakının teatr afişalarında yazılacaq və elə bu andan da Azərbaycan musiqisinin tarixinə əbədi həkk olunacaq.

* * *

22 dekabr 1942-ci ildə Üzeyir Hacıbəyli Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Mir Cəfər Bağırova ..... göndərmişdir.

Sizcə, nöqtələrin yerində hansı söz yazılmalıdır?

A) teleqram B) ərizə C) məktub

"Arşın mal alan" operettasının ermənilər tərəfindən oğurlanıb xaricdə ekranlaşdırıldığını ifşa edən bu yazı əsərin sonrakı uğurlu kino taleyində bir tarixi təkan rolu oynamışdır.

Çərçivələrin ardıcıllığını bərpa edib yazının məzmunu ilə tanış olun.

1

Ssenarisinin zəif, çəkilişinin başdansovdu olmasına baxmayaraq, film böyük müvəffəqiyyətlə nümayiş etdirilir. Onların dediklərinə görə, filmdə əvvəldən axıradək mənim musiqimdən istifadə edilmişdir. Əsərin süjet xətti, komediyadakı obrazların adları dəyişdirilməmişdir. Bununla belə, komediyanın müəllifinin adı heç yerdə çəkilmir.

2

Musiqinin müəllifi qismində filmdə Kuşnerev deyilən birisinin, ssenarist kimi Manukyanın və rejissor olaraq Tiqranovun adları gedir. Hadisələrin İran zəmininə köçürüldüyünə baxmayaraq, bütün ifaçılar XX əsrin əvvəllərindəki Azərbaycan əlbisəsində çıxış edirlər.

Həmin tamaşaçıların dediklərinə görə, "Arşın mal alan" filmi bu əsərin pis bir teatr tamaşası səviyyəsində çəkilmişdir və acınacaqlı haldır ki, həmin təhrif olunmuş film xarici ölkələrdə nümayiş etdirilir. Bu aşkar ədəbi oğurluq faktının mövcudluğunu, eləcə də əsərin əsl müəllifinin familiyasının xarici tamaşaçılardan gizlədilməsini qeyd etməklə, yuxarıda adı çəkilən fakt haqqında Sizə məlumat verməyi vacib sayıram.

3

"Arşın mal alan" musiqili komediyasının müəllifi, SSRİ Xalq artisti, professor Ü.Hacıbəyli

"1942-ci ildə Təbrizdə və İranın digər şəhərlərində olmuş bir sıra yazıçı və incəsənət xadimlərimiz: Osman Sarıvəlli, Məmməd Əkbər, Şəmsi Bədəlbəyli və başqaları mənə məlumat vermişlər ki, Təbriz, Rəşt və digər şəhərlərdəki kinoteatrlarda 1942-ci ilin mart ayının əvvəllərindən başlayaraq erməni dilində Amerikada çəkilmiş "Arşın mal alan" filmi göstərilir.

4

M.C.Bağırov 1943-cü ildəki görüşlərinin birində bu məktubun məzmunu ilə Stalini tanış etmiş, o da həmin faktdan mütəəssir olub demişdir: "Eybi yoxdur; biz də öz sovet "Arşın mal alan"ımızı çəkərik!" Təbiidir ki, bunun ardınca layihənin ittifaq hökuməti tərəfindən maliyyə təminatı həyata keçirilmişdir. Yoxsa hələ çörək kartoçkalarının işlək olduğu, ərzaq və sənaye mallarının qıtlığı şəraitində yaşayan Azərbaycanda böyük xərc və çox gərgin yaradıcılıq əməyi tələb edən "Arşın mal alan" kimi bir filmi qısa müddətdə çəkmək mümkün olmazdı…

Bəkir Nəbiyev

"Üzeyir Hacıbəylinin ömürnaməsi" kitabından

1. *Ariya, opera, operetta, dirijor, ssenari, afişa* sözlərinin leksik mənalarını müəyyənləşdirin.
2. *Familiya* sözünün qarşılığını tapın.
3. Fərqləndirimiş sözlərin sinonimlərini tapın.
4. Mətndən beynəlmiləl sözləri seçib davam etdirin:
   Ariya, folklor, ...
5. Aşağıdakı sözləri rus dilinə tərcümə edin.

tərəqqi – ...	nabələd – ...
yaradıcılıq – ...	təsəvvür – ...
təmayül – ...	həvəskar – ...

6. Stalinin sovet “Arşın mal alan” filmini çəkdirməkdə məqsədi nə idi? Mühakimə yürüdün:

- Bu, Üzeyir sənətinə olan maraq və pərəstiş idi.
- Bu, müəllif hüquqlarını pozanlara sərt bir cavab idi.
- Bu, Stalinin öz gücünü digərlərinə göstərmək istəyindən irəli gəlirdi.

7. Bu parça əsas mətndəki hansı hissəyə aydınlıq gətirə bilər?

“Heyratı” Azərbaycan zərbi-muğamlarından biridir. Gümrah, nikbin və cəngavər əhvali-ruhiyyəlidir. Ü.Hacıbəylinin “Leyli və Məcnun” operasında sərkərdə Nofəlin səhnəsi və leytmotivi “Heyratı” zərbi-muğamının mövzusuna əsaslanır. Müasir dövrdə hərbi-vətənpərvərlik ruhuna görə əsgər marşı kimi də oxunur.

8. Mətnin birinci hissəsində abzasların ardıcıllığını müəyyənləşdirin.

9. Mətnə ad qoyun.

10. Mətndən əsas faktları seçib sistemləşdirin.

11. Mətndə hansı suala cavab var?
- Ü.Hacıbəyli nə vaxt anadan olmuşdur?
- Azərbaycanın ilk opera dirijoru kim idi?
- Ü.Hacıbəylinin ikinci səhnə əsəri necə adlanır?
- Ü.Hacıbəyli ilə M.Maqomayevin ilk tanışlığı nə vaxtdan başlayıb?
- M.Maqomayev milli auditoriyanı operaya alışdırmaq üçün nə edir?

12. Mətndə hansı fikir öz əksini tapmamışdır?
- Stalinin Ü.Hacıbəyli yaradıcılığına olan sonsuz sevgi və ehtiramı.
- Ermənilərin çəkdiyi filmdə obrazların Azərbaycan geyimində olması.
- Mənfur erməni şovinistlərinin başqa xalqların bədii nümunələrini mənimsəməsi.
- “Arşın mal alan” filminin çəkilişinə xərclənən vəsaitin məbləği.
- Ü.Hacıbəylinin “Arşın mal alan” filminin birinci çəkilişindən narazı qalması.

13. Sizcə, filmin çəkilişindən sonra Ü.Hacıbəyli hansı etiketdən istifadə edə bilərdi?
- Sizə zəhmət verdim.
- Ömrün uzun olsun.
- Biz bundan məmnun olduq.
- Halal olsun.
- Təşəkkür edirəm.
- Əvvəlcədən minnətdarlığımı bildirirəm.

25 oktyabr 1913-cü ildə Üzeyir Hacıbəylinin “Arşın mal alan” komediyası Bakıda, Hacı Zeynalabdin Tağıyevin teatrında ilk dəfə tamaşaya qoyulmuşdur.

Ceyhun Hacıbəyli xaricdə yaşadığı dövrdə Üzeyir bəyin “Arşın mal alan” komediyasını fransız və ingilis dillərinə tərcümə etmişdir. Çox əlamətdar bir faktdır ki, 1925-ci ildə Ceyhun bəy öz tərcüməsində və özünün rejissorluğu ilə Parisin məşhur “Femina” teatrında “Arşın mal alan” komediyasını müvəffəqiyyətlə tamaşaya qoymuşdur.

✓ *Verilmiş materiallardan istifadə etməklə və əlavə məlumatlar toplamaqla dialoq qurun.*

14. Bir sənətşünas kimi verilişinizə bəstəkar (müğənni, rəssam və s.) dəvət etsə idiniz, ona hansı suallarla müraciət edərdiniz? Nümunə kimi verilmiş sual və cavablardan istifadə edə bilərsiniz. Nöqtələrin yerinə lazım bildiyiniz söz, ifadə və cümlələr artırın. Yeri gəldikcə uyğun nitq etiketlərindən istifadə edin.

Verilişimizə xoş gəlmişsiniz, hörmətli	Dəvətinizə görə təşəkkür edirəm.
Sizi dəvət etməkdə	.....
.....	Maraqlı sualdır. Düşünürəm ki, ...
Necə düşünürsünüz, insan və onun mənəviyyatının formalaşmasında musiqinin (rəssamlığın) rolu varmı?	Bilirsiniz, ...
.....	Böyük məmnuniyyətlə, ...
.....	.....
Dəvətimizi qəbul edib	.....

İki və daha artıq qrammatik əsası (mübtəda və xəbəri) olan cümlələrə *mürəkkəb cümlələr* deyilir. Sadə cümlə kimi mürəkkəb cümlənin tərkib hissələri baş üzvlərlə yanaşı, ikinci dərəcəli üzvlərdən də təşkil oluna bilər.

Məsələn:

Musiqi təkcə hisləri ifadə etmir, həm də o, yeni hislər yaradır. (*C.Allen*)

I tərkib hissə — II tərkib hissə

Mürəkkəb cümlənin tərkib hissələri, əsasən, intonasiya və bağlayıcılarla bağlanır.

Azərbaycan Xalq rəssamı Səttar Bəhlulzadə vətənini çox sevmiş, o, rənglərin dili ilə Azərbaycan adlı bir ölkə yaratmışdır. (*Ə.Məmmədova*)

Kifayət qədər ağıllı olmalısan ki, özünü həddən artıq ağıllı saymayasan. (*A.Morua*)

1-ci cümlə intonasiya, 2-ci cümlə bağlayıcı vasitəsilə bağlanmışdır.

15. Mətndəki mürəkkəb cümlələri seçib düzgün intonasiya ilə oxuyun və onların hansı vasitələrlə bağlandığını müəyyənləşdirin. Mötərizədə verilmiş sözlərdən yazılışı düzgün olanını seçin.

Dahi alman bəstəkarı Bethoven dünyanın ən nəhəng bəstəkarlarından biridir. O öz yaradıcılığında ilk növbədə insanın qəhrəmanlıq, mübarizlik *(əzmini, yoxsa əzimini?)* tərənnüm edirdi. Bethovenin şəxsi problemləri, ələlxüsus sağlamlığı ilə bağlı çətinlikləri də onun dünyagörüşünə ciddi təsir göstərmişdir. 28 yaşında ikən o, ağır xəstəliyin – musiqiçi üçün *(əsl, yoxsa əsil?)* faciə olan karlığın ilk əlamətlərini hiss edir. Xəstəlik şiddətlənir və Bethoven çalmaq, sonra dirijorluq etmək qabiliyyətini get-gedə itirir. Adamlarla ünsiyyət saxlaması da tədricən çətinləşir: ömrünün son illərində o, dəftər vasitəsilə yazılı "söhbətlər"ə keçir. Ən dəhşətlisi isə odur ki, bəstəkar yaratdığı musiqini daha eşitmir! Lakin nə xəstəlik, nə də tənhalıq Bethovenin *(mətin, yoxsa mətn?)* iradəsini qıra bilmir.

Bethoven cəmi 9 simfoniya yazmışdır. O, 3-cü simfoniyanı əvvəlcə Napoleona *(həsr, yoxsa həsir?)* etməyi nəzərdə tutubmuş. Lakin Napoleonun özünü imperator elan etməsini bəstəkar olduqca mənfi qarşılayır. Bethoven nəzərdə tutduğu fikirdən daşınır və o, simfoniyanı "Qəhrəmanlıq" adlandırır.

✓ *Mətnə əsasən Bethovenin şəxsi keyfiyyətləri haqqında fikir yürüdün.*

16. Hər hansı bir muğamı (*"Bayatı-Şiraz", "Rast", "Simayi-Şəms"*) dinləyib onun sizdə oyatdığı hisləri təsvir edin. Mürəkkəb cümlələrdən istifadə etməyi unutmayın.

ƏBDÜLBAĞI ZÜLALOV BÜLBÜLCAN
(1841–1927)

Əbdülbağı Zülalov Şuşada Xarrat Qulunun musiqi məktəbində təhsil almışdır. Çox tez bir zamanda məşhurlaşan Bülbülcan gözəl muğam ifası ilə daim seçilərdi. Cabbar Qaryağdıoğlu özü dəfələrlə etiraf etmişdir ki, zəngulə vurmağı böyük xanəndə Əbdülbağıdan öyrənmişdir.

Yenə Cabbar Qaryağdıoğlunun yazdığına görə, rus çarı III Aleksandr Qafqaza səyahət vaxtı Tiflisin ən gözəl guşəsi olan "Müctəhid bağı"nda onun şərəfinə təşkil edilmiş şənlikdə Bülbülcan elə zəngulə vurub oxumuşdur ki, III Aleksandr və onun xanımını heyran qoymuşdu. Bütün Qafqaz səyahəti vaxtı Bülbülcan onun məclislərinin ifaçısı olmuşdur.

1900-cü ildə İran hakimi Müzəffərəddin şahın Tiflisə gəlməsi ilə bağlı böyük məclisdə Əbdülbağı Zülalov elə məharətlə oxumuşdur ki, şah onun ifasına valeh olaraq xanəndəni "Şiri-Xurşid" qızıl medalı ilə mükafatlandırmışdır.

✓ *Aşağıdakı cümlələrin ardıcıllığını bərpa edin. Ardıcıllığı nəyə əsasən bərpa edəcəksiniz?*

1920-ci illərdə Əbdülbağı Zülalov Bakıya köçmüş, "Qısa müddətli Şərq musiqisi kursları"nda, 1923-cü ildən isə Azərbaycan Dövlət Türk Musiqi Məktəbində muğamatdan dərs demişdir. Əbdülbağı Zülalov Bülbülcan Xurşidbanu Natəvanın təşkil etdiyi ədəbi məclislərdə, xüsusilə də 1873-cü il avqustun 18-də Şuşaya su çəkdirmək məqsədilə təşkil olunmuş şənlikdə fəal iştirak etmişdir. Gürcü dilini öyrənib Azərbaycan muğamatlarını o dildə ifa edərdi və onu dinləyənləri mükəmməl səsi, yaraşıqlı xarici görünüşü və artistik davranışı ilə heyran edərdi. Bülbülcan Tiflisdə dəfələrlə musiqi dəstəsi yaratmış və yerli teatr tamaşalarının fasilələrində çıxış etmişdir. Onun repertuarı çox geniş və hərtərəfli idi. O, bir çox dillərdə: Azərbaycan, gürcü, qumuq, fars dillərində də mahnı oxuyardı. 1905-ci ildə Bülbülcan Şuşaya qayıdaraq vaxtını yetim qalan qardaşı uşaqları Əli Zülalovla Qəmbər Zülalovun böyüməsinə həsr edir. 1875-ci ildən isə o, Tiflis şəhərinə köçmüş və 1920-ci ilədək burada yaşamışdır.

"Muğam ensiklopediyası"ndan

1. Mətn üçün açar sözlər seçin.
2. *Mükafatlandırmışdır, ifaçı, fasilə* sözlərinin sinonimlərini müəyyənləşdirin.
3. Məntiqi ardıcıllığı davam etdirin.



4. *Arzu, istək, məqsəd, amal* sözlərinin leksik mənalarını müəyyənləşdirib fərqləndirin. Cümlədə işlətməklə fikirlərinizi əsaslandırın.
5. *Xanəndə və müğənni* sözlərinin leksik mənalarını müəyyənləşdirin.

6. Əbdülbağı Zülalov Bülbülcan kim idi?
7. Mətndən çıxış edərək Ə.Zülalovun şəxsi keyfiyyətləri barədə fikir yürüdün.
8. "Hansı ölkədə yaranmasından asılı olmayaraq, elm və sənət bütün dünyaya məxsusdur" (*A.S.Puşkin*) fikri mətnin ideyası ola bilərmi?
9. Mətndə hansı suala cavab yoxdur?
   - Ə.Zülalov hansı xidmətinə görə "Şiri-Xurşid" medalı ilə təltif edilmişdir?
   - C.Qaryağdıoğlu muğam ifaçılığını kimdən öyrənmişdir?
   - Ə.Zülalovun Bakıya köçməsinin səbəbi nə idi?
10. "Sübhün səfiri" filmini izləyin. Sizi maraqlandıran faktları toplayın və yoldaşlarınızla müzakirə edin.

11. "Minnətsiz çörək" hekayəsi əsasında aşağıdakı tapşırıqları yerinə yetirin.

11.1. Mötərizələrdə verilmiş sözlərə uyğun şəkilçilər artırın. Hansı sözlər şəkilçi qəbul edərkən kökündə dəyişiklik baş verdi?

Minnətsiz çörək

(*ixtisarla*)

Mirzə Valeh neçə illər idi ki, Hatəm xanın *(dəbdəbə...)* sarayında yaşayır və onun uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olurdu. Hatəm xan imarətindəki ən gözəl (*otaq...)* əvvəldən Mirzə Valeh üçün ayırmışdı. Otaq başdan-ayağa Şərq üslubu ilə bəzənmişdi. Bu otağın pəncərələri birbaşa qızılgül bağçasına açılırdı.

Mirzə Valeh bu evin *(hörmət...)* siması, məclislərin *(fəxr...)* olmuşdu. Ziyafətlərdən kənar zamanlarda da Mirzə Valeh Hatəm xanın süfrəsinin başında özünəməxsus yer tuturdu. O, Hatəm xanın düzəltdiyi məclislərdə iştirak edər, ağlı və kamalı ilə hər kəsi *(heyran edər...)*. Mirzə ən qədim elmlərdən tutmuş bu günə qədərki bütün elmlərdən xəbərdar idi. O bütün Şərq ayin və əfsanələrini (*bilmək...)* ilə hamının diqqətini cəlb edirdi. Mirzə Xəyyamın rübailərini, Füzulinin qəzəllərini mükəmməl bilirdi. Onun yetirmələri olan Adil və Aqil isə öz fərasəti, qabiliyyəti və gözəl nitqi ilə hər kəsi heyran edirdi.

Bir gün Hatəm xanın əmisi oğlu Yədullah xan bir ziyafət düzəltmək və vaxtını keçirmək qərarına gəldi. O, dost-aşnaya, o cümlədən Hatəm xana məktub yazdı. Yədullah xan Mirzə Valehi də gətirməyi Hatəm xandan rica edirdi. O yazırdı: "Çox təvəqqe edirəm ki, Mirzə Valehi də özünüzlə gətirəsiniz ki, qoy bizi *(əylən...)*, biz darıxmayaq". Hatəm xan Mirzə Valehi çağırıb onu məsələdən agah etdi. İnandırmaq üçün məktubu ona verdi. Mirzə Valeh məktubu oxuyub xana qaytardı və saralmış halda dedi:

– Xan, mən gedə bilməyəcəyəm.



Sizcə, bundan sonra hadisələr necə davam edəcək? Növbəti hissədən istifadə edərək hadisələrin necə davam edəcəyi barədə fikir yürüdün.

... Mirzə Valeh köhnə paltarlarını geyinib saraydan çıxdı. O hər şeydən və hər kəsdən qaçmaq və uzaq olmaq istəyirdi. O, qalın və qaranlıq meşəyə çatdığı zaman daha qəti *(qərar...)* gəlirdi: "Minnətsiz çörək, sərbəst ölmək!" Bu meşəlik qocaman ağaclar, qədim qalalar və abidələrlə dolu idi. Burada keçmişdən qalmış kənd və şəhərlərin *(dağıl...)* divarları aydın görünürdü. Birdənbirə insansız təbiət ona *(vahimə...)* göründü. Geriyə dönməkmi? Yox, irəliyə *(get...)*, irəliyə *(addımla...)*! Bu düşüncələr içərisində o, böyük bir dağa çatdı...

Süleyman Rəhimov

11.2. Verilmiş söz və söz birləşmələrindən istifadə edərək hekayənin ardını yazın. Yazınızda sadə və mürəkkəb cümlələrdən istifadə edin.

qədimdən qalmış bir istehkam, böyük bir bulaq, yaşamaq üçün yer, payızın quru otları, düzəltmək, döşəmək, yeni həyatın axtarışında, cır alma-armud, odun və duzun əldə edilməsi, axtarış, arpa sünbülünün dənlərinin tapılması, taxıl zəmisi, qışın soyuğu, təklik, arzuya çatmaq, Adil və Aqilin onu tapması, təəssüf

11.3. Sizcə, Mirzə məclisə getməkdən niyə imtina edir? Onun yerində olsa idiniz, siz necə hərəkət edərdiniz?

11.4. Mirzə Valeh və Hatəm xan obrazını səciyyələndirin.



11.5. Yədullah xan necə etməli idi ki, Mirzə Valeh ziyafətdə iştirak etsin? Ona hansı sözlərdən istifadə etməyi tövsiyə edərdiniz?

11.6. **"**Minnətsiz çörək" hekayəsini məzmun və məna baxımından əsas mətndəki fərqləndirilmiş hissə ilə müqayisə edin.

11.7. *Ziyafət, fərasət, agah etdi* sözlərini yaxınmənalı sözlərlə əvəz edin. Həmin sözlərdən istifadə edərək cümlələr qurun.

11.8. *Rica, təvəqqe, xahiş* sözlərinin sinonim olduğunu əsaslandırın.

11.9. Müzakirə.

✓ *Cümlələri tamamlamaqla fikirlərinizi əsaslandırın.*

Ə.Zülalov yadların məclisində oxumamalı idi. Hesab edirəm ki, Mirzə Valeh daha düzgün hərəkət edir.

Mirzə Valehin hərəkətlərində yanlışlıq vardır, o, əvvəlcədən ...

Ə.Zülalov düzgün hərəkət edir, çünki ...

12. Aşağıdakı cümlələri müqayisə edərək fərqlərini izah edin.

Mirzə Valeh Hatəm xanın düzəltdiyi məclislərdə iştirak edər, ağlı və kamalı hər kəsi heyran qoyardı.

Cabbar Qaryağdıoğlu özü dəfələrlə etiraf etmişdir ki, zəngulə vurmağı böyük xanəndə Əbdülbağıdan öyrənmişdir.

Mürəkkəb cümlələrin iki növü var: tabesiz və tabeli mürəkkəb cümlələr.

Bərabərhüquqlu cümlələrin birləşməsindən əmələ gələn cümlələrə tabesiz mürəkkəb cümlələr deyilir. Belə cümlələr həm intonasiya, həm də tabesizlik bağlayıcıları ilə bağlanır.

Məsələn:

Başqalarını tanıyan şəxs bilikli, özünü tanıyan şəxs ağıllıdır.

1938-ci ildə "Koroğlu" operası Moskvada tamaşaya qoyulur və Bülbül baş rolda çıxış edərək ariyaları gözəl səslə ifa edir.

13. Tabesizlik bağlayıcılarını yadınıza salaraq aşağıdakı sxemi tamamlayın. Bağlayıcılardan istifadə edərək tabesiz mürəkkəb cümlələr qurun, onları düzgün intonasiya ilə oxuyun.



14. Mətndə (səh. 61) altından xətt çəkilmiş cümlələri tabesiz mürəkkəb cümlələr şəklində qurun.

15. Aşağıdakı cümlələri tamamlayın.

- Şirvan mahalında xanəndəlik sənətinin inkişafında _____ (1826–1896) və onun musiqi məclisinin böyük xidməti olmuşdur.
- _____ Mahmud ağa gözəl oxuyar, həm də tar çalardı. O dövrün məşhur xanəndələrindən _____ onun məclislərinin iştirakçısı və ifaçısı olmuşlar.
- Mahmud ağa gənc _____ təşkil edər və qalibləri hədiyyələrlə mükafatlandırardı. Ona görə onun məclislərinin şöhrəti çox yayılmışdı. O dövrdə Şamaxıya Tiflisdən, İrandan, Qarabağdan və həmçinin xaricdən də yazıçılar, səyyahlar, rəssamlar qonaq gələrdilər. _____ Mahmud ağanın evindəki bu məclislərdə iştirak etmişlər.
- Mahmud ağanın məşhur qonaqlarından biri də rus rəssamı _____ olmuşdur. O, _____ idi. Onu Mahmud ağanın məclisində xüsusilə məftun edən Şamaxı rəqqasələrinin rəqsi olmuşdur. Qaqarinin bu məftunluğu nəticəsində rəssamın məşhur _____ yaranmışdır.
- Mahmud ağa tək muğam sənətinin inkişafına deyil, həm də Şamaxı şəhərinin ümumi _____ çox kömək etmişdir.

Mahmud ağa
Əhməd ağa oğlu Məmmədzadə

1. Məşhur fransız yazıçısı Aleksandr Düma, məşhur rus səyyahı və etnoqrafı İ.Yevlaxov
2. xanəndələr arasında yarış
3. Alicənablığı, əliaçıqlığı ilə seçilən
4. abadlaşmasına və maariflənməsinə
5. knyaz Qaqarin
6. Mahmud ağa Əhməd ağa oğlunun
7. Peterburq Rəssamlıq Akademiyasının prezidenti
8. Əbdülbağı Zülalov (Bülbülcan), Sadıqcan, Cabbar Qaryağdıoğlu
9. "Şamaxı rəqqasələri" tablosu

16. "Azərbaycan muğamı" adlı təqdimat hazırlayın. Aşağıdakı fikirlərdən epiqraf kimi istifadə edə bilərsiniz.

"Biz muğamı gələcək nəsillərə qəlbimizin və ruhumuzun bir hissəsi kimi miras qoyuruq. Məhz muğam bizim varislərimizdə köklərə bağlılıq, milli ləyaqət, qürur, emosional zənginlik, iztirab çəkməyi və başqalarının iztirabına şərik olmağı bacarmaq, muğamın özünün malik olduğu mənəvi kamillik, tamlıq kimi keyfiyyətlər aşılamağa qadirdir".

Mehriban Əliyeva

UNUDULMAZ XATİRƏ

xeyirxahlıq

yadigar

tar

1931-ci il idi. Məni indiki Azərbaycan Dövlət Akademik Dram Teatrına aktyor təyin etmişdilər. Səhər saat on birin yarısı idi. Teatrın foyesində gəzirdim. Bu vaxt Cəfər Cabbarlı mənə yaxınlaşıb:

– Yoldaş Tağızadə, tar çalmaq bilirsinizmi? – deyə soruşdu.

– Xeyr, bilmirəm.

– Çox təəssüf, – deyə o məndən ayrılıb pillələrlə yuxarı çıxmağa başladı.

Bu söhbət məni çox maraqlandırdı. Ertəsi gün Cəfər Cabbarlının kabinetinə gedib soruşdum:

– Cəfər qardaş, sizin mənə verdiyiniz sualın səbəbini bilmək istəyirəm.

– *Mən səni düşünüb bir rol yazırdım, heyif ki, tar çalmaq bilmirsən.*

– *Cəfər qardaş, məktəbi yenicə qurtarıb gəlmişəm, tar almağa imkanım yoxdur*. Əgər tarım olsaydı, sizin arzunuzu yerinə yetirərdim.

Cəfər bir söz demədi...

Sonuncu söhbətimizin üstündən bir neçə saat keçdi. Saat üçdə xidmətçi qadın Cəfər Cabbarlının məni çağırdığını xəbər verdi. Getdim. Biz küçəyə çıxdıq. O danışmırdı. Mən də heç nə soruşmurdum.

İsti avqust günlərindən biri idi. İndiki Sabir bağının yanındakı meydançada musiqi alətləri satılan mağaza var idi. Ora çatanda Cəfərlə həmin mağazaya girdik. Satıcı Cəfər Cabbarlını tanıdı və:

– Cəfər yoldaş, nə istəyirsiniz? – deyə soruşdu.

– Mənə bir yaxşı tar ver!

Satıcı bir tar gətirib Cəfərə uzatdı. Cəfər tarın simlərini mizrabla cingildətdikdən sonra kassaya yaxınlaşıb alətin pulunu verdi. Tarı mənə uzatdı. “Yəqin ki, tarı küçə ilə əlində aparmağa utanır”, – deyə düşündüm.

Biz mağazadan çıxıb yolumuza davam etdik. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti nəzərdə tutulur) qabağında Cəfər Cabbarlı mənimlə xudahafizləşib dayanacağa doğru yönəldi.

– Cəfər qardaş, tarınız qaldı, – deyə mən onu səslədim.

– Deyirdiniz ki, tarım yoxdur. Tar olsa, çalmağı öyrənib, sizin arzunuzu yerinə yetirərəm. Bu da tar. Mən bunu sənə yadigar verirəm. Necə deyərlər, bu meydan, bu da şeytan. İndi öyrən, – deyə o, ikinci dəfə xudahafizləşib məndən ayrıldı.

Süleyman Tağızadə

1. *Doğru* sözünün omonimliyini əsaslandırın.
2. *Çalmaq* sözünü həqiqi və məcazi mənalarda cümlədə işlədib rus dilinə tərcümə edin.
3. *"Bu meydan, bu da şeytan"* ifadəsinin mənasını izah etməyə çalışın.
4. *Xudahafizləşmək* sözünün sinonimini və antonimini müəyyənləşdirin.
5. Mətndə hansı etiketlərdən istifadə olunmuşdur? Siz onları hansı etiketlərlə əvəz edərdiniz?
6. Tərcümə edin:

Təyin edilmək –	Mizrab –
Ertəsi gün –	Xudahafizləşmək –

7. Cəfər Cabbarlının hərəkətinə münasibət bildirin. Mətnə əsasən onun şəxsi keyfiyyətləri barədə danışın. C.Cabbarlı haqqında məlumat toplayın.
8. Mətndə hansı suala cavab yoxdur?
   - Teatra aktyor göndərilən şəxs kim idi?
   - Cəfər Cabbarlı tarı nə üçün alır?
   - Mətndəki hadisələr nə vaxt baş verir?
   - Cəfər Cabbarlı tarı nə üçün özü aparmır?
   - Aktyorun tarda ifası hansı tamaşa üçün nəzərdə tutulmuşdur?
9. Oxuduğunuzdan hansı nəticəni çıxardınız?
10. Mətndən hansı faktları toplaya bildiniz?
11. Hadisələri III şəxsin dilindən danışın.

12. Nöqtələrin yerinə söz və söz birləşmələrindən uyğun gələnini əlavə edin.

Cəfər Cabbarlı ... Bakının ... anadan olmuşdur. Bakıda rus-tatar məktəbində oxuyarkən ... ona dərs demişdir. ... sonra Cəfər Cabbarlı Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində stenoqraf işləyir.

O, ... müasir ... banisi kimi düşmüşdür. Bir çox ..., satirik şeirlərin müəllifidir. C.Cabbarlı tərcüməçiliklə də məşğul olmuş, V.Şekspirin ... və ... əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Yaradıcılığının əsas mövzusu qadın azadlığıdır. C.Cabbarlı ... dekabrın 31-də vəfat etmişdir.

Azərbaycan ədəbiyyatının, milli hökumət qurulduqdan, Süleyman Sani Axundov, 1899-cu ildə, Xızı kəndi, hekayələrin, ədəbiyyat tarixinə, "Hamlet", "Otello", 1934-cü il.

13. Mətndə məqsəd və intonasiyaya görə sadə cümlənin hansı növlərindən daha çox istifadə olunmuşdur?

14. Mətndə (səh. 67) fərqləndirilmiş cümlələrin mürəkkəb cümlə olduğunu əsaslandırın.

15. Uyğunluğu müəyyənləşdirin. Durğu işarələrinin işlənməsinə diqqət yetirin.

Hadisələr eyni zaman çərçivəsində baş verir.	*Dünya gözəldir, yersiz bədbinliyə qapılıb həyatımızı zəhərləməyək.*
Məzmun qarşılaşdırılır.	*Təcrübə məktəbə bənzəyir: bu məktəbdə yetişənlərin qiyməti çox yüksəkdir.* *(B.Franklin)*
Bir hadisə digərini aydınlaşdırır.	*Bilmək irəlini görmək, irəlini görə bilmək isə güclü olmaq deməkdir.* *(İ.Kant)*
Hadisələr ardıcıl şəkildə baş verir.	*Zəngin səsi kəsildi, dərs başlandı.*
Fikrin bölüşdürülməsinə xidmət edir.	*Dünyada ən böyük xeyir elm, ən böyük şər nadanlıqdır.* *(Diogen)*
Hadisələrdən biri səbəb, digəri nəticədir.	*Ya sən həqiqəti deməlisən, ya da biz bu məsələni qaldırmalıyıq.*

16. Mətndə (səh. 67) altından xətt çəkilmiş cümlələri mürəkkəb cümləyə çevirib onları əvvəlcə intonasiya, sonra tabesizlik bağlayıcılarından uyğun olanı ilə əlaqələndirin.

17. Hansı düzgündür?

məşhur	———	məhşur
layihə	———	lahiyə
müşayiət	———	müşaiyət

18. Doğru və yanlış fikirləri müəyyənləşdirin.

Mürəkkəb cümlələr quruluşuna görə iki cür olur.	doğru
Mürəkkəb cümlə sadə cümlələrin əsasında qurulur.	
Tabesiz mürəkkəb cümlənin tərkib hissələri bağlayıcı ilə də bağlanır.	yanlış
Biləyi güclü birini yıxar, biliyi güclü minini cümləsi tabesiz mürəkkəb cümlədir.	

A)

B)

C)

D)

E) 

19. Mürəkkəb cümlələrdə durğu işarələrini bərpa edin.

- Bilik güc güc isə bilikdir. (*F.Bekon*)
- Bəzi insanlar böyük kainatı tanıya bilirlər lakin özlərini tanıya bilmirlər. (*J.Lafonten*)

• Böyük insanlar ulduzlara bənzəyir yalnız sonralar diqqəti cəlb edirlər.
(*P.Buast*)

• Qardaş dost olmaya bilər ancaq dost həmişə qardaş olmalıdır. (*B.Franklin*)

• Dünya bir pəncərədir hər gələn baxar gedər.

• Ona elə gəlirdi ki, müəllim ya acıqlanacaq ya da acı bir söz deyəcəkdir.
(*C.Cabbarlı*)

• Oradan nə bir səs gəlirdi nə də işıq görünürdü. (*Ə.Əbülhəsən*)

• O qorxudan tir-tir əsərək hasara yaxınlaşdı hasarın dibi tikanlıq idi. (*H.İbrahimov*)

✓ *Cümlələrdə hansı intonasiyanın (sadalama, zaman, qarşılaşdırma) olduğunu müəyyənləşdirin. Hansı cümlə fərqləndi?*

20. Nöqtələrin yerinə sağ sütundan uyğun gələn sözləri seçib yazın.

1	Dil mədəniyyətlə birgə ..... (*L.N.Tolstoy*)	boy atır, yetişir, böyüyür
2	..... hər kəsin öz yeri var. Heç kim kiminsə ..... tutmur. (*H.Əliyev*)	sənət, peşə, yer, məkan
3	Həyatımız ....., vaxtımız az olduğu üçün yalnız ..... kitablar oxumalıyıq. (*Y.Rozen*)	qısa, kəsə, yığcam, müxtəsər, dəyərli, qiymətli, bahalı
4	Musiqi incəsənətin bir çox növlərinin	sintezidir, qarışığıdır, əlaqəsidir

21. Nöqtələrin yerinə buraxılmış hərfləri əlavə edib düzgün yazın.

m...barək, müd...r, üf...q, müh...m, k...rə, k...çə, hök...mət, m...siqi, xəz...nə, d...nya, ka...nat, təcr...bə.

22. Şəxsi keyfiyyətlərinizi gələcək sənətinizlə uyğunlaşdırın.

Cümlələri oxuyun və xarakterinizə uyğun olan variantları işarələyin.

I	1. İnsanlara _____ bacarıram.	qulaq asmaq
	2. İnsanlara problemlərinin həllində _____ sevirəm.	kömək etmək
	3. Əmək haqqının _____ mənim üçün o qədər də əhəmiyyəti yoxdur.	çox olmaq
	4. Komandanın bir üzvü olaraq _____ istəyərdim.	işləmək

II	5. Tez qərar _____ bacarıram.	qəbul etmək
	6. Riskli _____ məni stress vəziyyətinə salmır.	iş görmək
	7. Müstəqil şəkildə _____ mənim üçün çətin deyil.	işləmək
	8. Külli miqdarda pul vəsaitlərini _____ qorxmuram.	idarə etmək

III	9. Öz fikirlərimi _____ bacarıqlıyam.	ifadə etmək
	10. Hər zaman öz intuisiyalarıma uyğun _____ çalışıram.	hərəkət etmək
	11. Yaradıcı _____ mənim üçün çox önəmlidir.	olmaq
	12. _____ çox sevirəm.	İmprovizasiya etmək

IV	13. Mürəkkəb hesablamalar _____ mənim üçün çətin deyil.	aparmaq
	14. Məntiqi məsələləri _____ sevirəm.	həll etmək
	15. Nəzəri prinsipləri _____ mənim üçün asandır.	başa düşmək
	16. Sahə və məsafəni _____ bacarıram.	hesablamaq

1

Əgər işarələdiyiniz cümlələrin sayı I hissədə (1–4-cü cümlələr) çoxluq təşkil edirsə, deməli, sizə uyğun olan insanlara qayğı göstərməklə bağlı sənət növü ola bilər. Əgər təbii elmlər (*естественные науки*) sizi maraqlandırırsa, demək, tibb sahəsində işləmək haqqında düşünə bilərsiniz, məsələn: həkim və ya tibb bacısı sənətini seçə bilərsiniz. Tədris və ya sosial sahə üzrə işlər sizin şəxsi keyfiyyətlərinizə uyğun ola bilər.

2

Əgər işarələdiyiniz cümlələrin sayı II hissədə (5–8-ci cümlələr) çoxluq təşkil edirsə, deməli, siz biznes sahəsinə aid işlər haqqında düşünə bilərsiniz, məsələn: satış və marketinq sənətini seçə bilərsiniz. Həmçinin mühasib və iqtisadiyyat da sizin üçün uyğun variant ola bilər.

3

Əgər işarələdiyiniz cümlələrin sayı III hissədə (9–12-ci cümlələr) çoxluq təşkil edirsə, deməli, sizə yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq daha uyğundur. Xüsusi istedadınızdan asılı olaraq, musiqi, ədəbiyyat və ya incəsənət aləmində özünüzə uyğun iş tapa bilərsiniz. Sizə uyğun sahələrə həmçinin nəşriyyat, jurnalistika, kitabxanaçılıq, qrafik dizayn və s. aid ola bilər.

4

Əgər işarələdiyiniz cümlələrin sayı IV hissədə (13–15-ci cümlələr) çoxluq təşkil edirsə, deməli, analitik düşüncəyə maliksiniz. Kompüter elmləri və ya mühəndislik peşəsi sizin üçün uyğun ola bilər. Sizin həmçinin ətraf aləmi dərketmə bacarığınız da var. Buna görə də memarlıq, inşaat və buna yaxın sahələr də sizin üçün alternativ peşə ola bilər.

✓ *Uyğun variantı müəyyənləşdirdikdən sonra özünüz haqqında kiçik mətn tərtib edin. Arzularınız, seçdiyiniz peşə, gələcək planlarınız barədə məlumat verin.*

HAQQIN SƏSİ

(*ixtisarla*)

pirani – qoca

Bu nurani dünya, pirani dünya
Əzəldən meyvəli bir bağa bənzər.
Bəşərin qocaman sərt ağacında
Hər insan bir gülə, yarpağa bənzər.

Yarpaqlar, budaqlar ayrı olsa da,
Bu dünya bağının bəhəri birdir.
Udduğu hava bir, içdiyi su bir,
Yerdən şirə çəkən kökləri birdir.
Budaq heç yaşarmı budaqdan ayrı,
Ömr edə bilərmi insan insansız?
O doğma gülşəndən, o bağdan ayrı
İnsan xəzəl kimi ölüdür yalnız!

Misradakı fikrə münasibət bildirin.

Eynidir havamız, suyumuz bizim,
Eyni torpaqdandır mayamız bizim,
Yoğurub yapanda xilqətimizi
Eyni gözdə görüb təbiət bizi.

xilqət – yaradılış

1. *Yer kürəsi, insan, təbiət, xilas* əsər üçün açar söz ola bilərmi?
2. *Gül* sözünü cümlədə işlətməklə omonimliyini əsaslandırın.
3. Uyğunluğu müəyyənləşdirib nümunələrlə əsaslandırın.

? baxış	1. sərt	? söz
? qaya	2. möhkəm	? hərəkət
? yumruq	3. bərk	? özül
	4. ciddi	

4. *Həm S.Tahir, həm də M.Şəhriyar insanları sevir, onlara sonsuz ehtiram duyur, çünki ...* . Cümləni tamamlayaraq fikirlərinizi əsaslandırın.
5. Nə üçün Yer kürəsinin qorunması vacibdir? Hansı qlobal proseslər bizim planetimiz üçün təhlükə törədir?
6. Bəşəriyyətin xilası üçün siz hansı təklifləri verərdiniz?

Şair təbiəti nə üçün ata hesab edir?

Təbiət – o böyük ağ saçlı ata
Bizi bəxş edəndə bu kainata,
Can verdi, qan verdi, qeyrət verdi o,
Bizə insaf verdi, mürvət verdi o.

Bizə əl verdi ki, imdada çataq,
Yıxılan bir kəsin qolundan tutaq.
Bizə ağıl verdi – vicdanlı, mətin,
Dərk edək dərdini bəşəriyyətin.

Gözəldir baharın bağ çiçəkləri,
Sevgili nəfəsi – dağ çiçəkləri!
Zəmilər qoynunda xəyala dalmaq,
Çörəyin ətrini sünbüldən almaq!
Dalıb üfüqlərin sonsuzluğuna,
Qışqırmaq bu eşqi bütün cahana:
– İnsan Yer üzünün dürdanəsidir,
İnsanın Vətəni Yer kürəsidir.

Şair niyə insanı Yer üzünün dürdanəsi hesab edir?

Məhəmmədhüseyn Şəhriyar

7. Sxemi şərh edin.



8. Sxemi tamamlayın. “Haqqın səsi” əsərində ...

Şairin çağırışları	Şairin etirazları
1. Birliyə çağırış	1. Birliyin pozulması
2.	2. ..... qayğısızlıq
3. İnsana	3. .....

Bütün sənətlər qardaşdır, biri digərinin ziyası altında irəliləyir.
(F.Volter)

Azərbaycan bütün dünyada yüksək mədəniyyəti, möhtəşəm incəsənət nümunələri ilə tanınır. Festivallar mədəniyyətin inkişafında son dərəcə mühüm rol oynayır.

Aşağıdakı məlumatları oxuyub nəticə çıxarın.

2009-cu ildən ənənəvi olaraq Heydər Əliyev Fondu ilə Mədəniyyət və Turizm Nazirliyi birgə hər il yay aylarında Qəbələdə açıq səma altında Beynəlxalq Musiqi festivalı keçirir. Festival çərçivəsində klassik musiqi konsertləri ilə bərabər, caz və muğam gecələri də təşkil olunur.

13 iyun 2014-cü ildə Masallıda Ulu öndər Heydər Əliyevin 91 illik yubileyinə həsr olunmuş III Beynəlxalq Folklor festivalında Azərbaycanla yanaşı, Türkiyə, Gürcüstan, İran, Qazaxıstan, Litva, Latviya və Rusiya-Dağıstanın folklor qrupları iştirak etmişlər.

İştirakçı ölkələrin milli rəqs nümunələri meydana toplaşmış şəhər sakinləri tərəfindən böyük maraqla qarşılanmışdır.

İçərişəhər 2000-ci ildə UNESCO-nun Dünya Maddi İrsi Siyahısına daxil edilmişdir. Burada yerləşən və paytaxtımızın rəmzi hesab olunan Qız qalasının dünyada tanıdılması məqsədilə 2010-cu ildən "Qız qalası" Beynəlxalq İncəsənət festivalı keçirilir.

2010-cu ildə keçirilən **ilk festivalda** 18 ölkənin 20-dən çox rəssamı, 2011-ci ildə keçirilən **ikinci festivalda** isə 20 ölkənin 25 tanınmış rəssamı iştirak etmişdir. Onlar Qız qalasının maketlərini öz milli üslublarında bəzəyərək fərqli mədəniyyət və adət-ənənələrin sintezini əks etdirən əsərlər yaratmışlar. 2014-cü il mayın 7–9-da Bakıda **"Qız qalası" Beşinci Beynəlxalq İncəsənət festivalı** keçirilib. Festivalda 26 ölkədən 28 rəssam iştirak edib. Bu festival çərçivəsində dünyada küçə incəsənətinin (street art) ən populyar növlərindən olan 3D rəsmləri də təqdim edilmişdir.

✓ 3-cü və 4-cü Beynəlxalq İncəsənət festivalları haqqında məlumat toplayın. Onları dostlarınıza hansı formada təqdim edəcəyinizi düşünün.

Sizcə, bu festivalların hansı əhəmiyyəti vardır?

Uzun bir tarix yaşadıq, oddan-alovdan keçdik. Bizi yox etmək, parçalamaq, pərən-pərən salmaq istədilər, bacarmadılar. Düşmən bizə nələr etdi... Nə etdilərsə, bizi ruhən, qəlbən ayıra bilmədilər.

Haralarda olsaq belə, dilimizi qoruduq. Adımız, sevincimiz, kədərimiz, yaşam tərzimiz bir oldu, heç yadlaşmadı. Tarımızın, sazımızın simi bir, teli bir oldu...

Bir olmağı öyrəndik. Sürgündə bir, əsirlikdə bir, yaxında bir, uzaqda bir. Kökü-soyu təmiz bizlər hər zaman bir olmağı öyrəndik, AZƏRBAYCANLI olmağı öyrəndik, öyrətdik – yaşadıq.

"Füyuzat" jurnalından, 2013-cü il

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası ...

Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında material toplayıb ilk cümləsi natamam verilmiş mətni davam etdirin. Təqdimat da hazırlaya bilərsiniz.

Həmin günün təntənəli şəkildə keçirilməsi üçün ssenari yazın və tədbir hazırlayın. Tədbirdə təqdimatınızla çıxış edin.

Bakıda ilk Avropa oyunlarının açılışı zamanı birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışını xatırlayın. Həmin çıxışda olimpiya oyunlarının keçirilməsinin əsas məqsədi açıqlanmışdı. Sizcə, bu oyunların keçirilməsində məqsəd nə idi?

Müxtəlif ölkələrdən olan insanların həmrəyliyi nəyin qarşısını ala bilər?

Şəkli şərh edin.

Həmrəylik – əmin-amanlığın, bütövlüyün, yenilməz qüvvətin, bəşəri əzəmətin təminatçısıdır!

Həmrəylik – milli yüksəlişə gedən yol!

Həmrəylik – haqqın gücü, qələbəsi!

Həmrəylik – insanlığın adı, özü, gələcəyi, istəyi, arzusu!

✓ *Bu hökmlərlə razısınızmı? Fikrinizi əsaslandırın.*

❑ Tutaq ki, sizə gördüyünüz işlərin nəticəsi haqqında məlumat hazırlamaq tapşırılır. Sizcə, hansı əməli yazıdan istifadə etməlisiniz?

A) protokol B) arayış C) hesabat

❑ Hesabat əməli yazı növüdür, ərəb sözü olan *hesab* sözünün cəmidir.

1. Hesabatın əvvəlində onu yazan şəxsin adı, atasının adı və soyadı göstərilməli, sonunda isə imza qoyulmalıdır.
2. Hesabat inandırıcı olmalıdır.
3. Hesabatdakı faktlar və rəqəmlər dəqiq verilməlidir.
4. Hesabatda təkrarlara, yorucu fikirlərə, yersiz sitatlara yol verilməməlidir.
5. Hesabat ictimai xarakter daşıyırsa, qorunub saxlanılmalıdır.

HESABAT

Verilən tapşırığın yerinə yetirilməsi, görülmüş işin nəticəsi haqqında məsul şəxsə, kollektivə, təşkilata, ictimaiyyətə yazılı və ya şifahi şəkildə verilən rəsmi məlumatdır.

Uşaq birliyinin rəhbəri Nigar Ceyhun qızının Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı keçirdiyi tədbirlərə dair

HESABATI

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi üçün noyabr ayında məktəb fəallarının iştirakı ilə tədbirlər planı işlənib hazırlanmış, siniflər arasında vəzifə bölgüsü aparılmışdır.

Ədəbi-bədii gecənin keçirilməsi üçün ssenari yazılmış, həmin ssenari əsasında hazırlanmış tədbir dekabrın 26-da məktəb kollektivi qarşısında nümayiş etdirilmişdir.

Bu münasibətlə məktəbdə inşa müsabiqəsi keçirilmiş, şagirdlərin əl işlərindən ibarət sərgi təşkil edilmiş və .....

✓ *Cümləni tamamlayın.*

✓ *Daha bir-iki cümlə yazıb hesabatı sona çatdırın.*

ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

1. Buraxılmış hərfləri bərpa edin.

1964-cü ildə yaradılmış bu muzey Bakıda yerləşir. Muzeyin fondunda 35 mindən çox eksp...nat toplanmışdır. Onların içərisində milli musi...i alətlərindən tar, kamança, saz, dəf, qoşana...ara, həmçinin qədim qr...mmofon və pat...fonlara rast gəlmək mümkündür. Görkəmli bəstəkar Üzeyir Hacıbəylinin, milli professi...nal vokal sənətinin banisi Bülbülün, eləcə də Qara Qarayevin, Fikrət Əmirovun, Cövdət Hacıyevin və başqalarının müəllif not əlyazmaları, əsərlərindən seçmələr və başqa n...munələr də muzeydə saxlanılan əşyalar cərgəsindədir. Muzeyin iki filialı: Niyazi və Vaqif Mustafazadənin ev-muzeyləri, daimi fəaliyyət göstərən xalq çal...ı alətləri sərgisi vardır.

2. Mətni oxuyaraq qarşısında ulduz işarəsi qoyulmuş tapşırıqları yerinə yetirin.

Tar mizrabla çalınan simli musiqi alətidir. Azərbaycan tarı özünəməxsus quruluşa, konstruksiyaya və bədii-texniki imkanlara malikdir. Ümumiyyətlə, tar bir çox ölkələrdə: İranda, Orta Asiyada, Dağıstanda və başqa yerlərdə geniş yayılmışdır.

Milli musiqi ifaçılığında həm solo, həm də müşayiətçi kimi istifadə olunan 11 simdən ibarət olan tar muğam sənətində aparıcı alətdir.

Tar sözünün mənası "sim" deməkdir. Şərqdə bir sıra simli musiqi alətlərinin adında rast gəlinir. Ərəb ölkələrində isə dəf alətini "tar" adlandırırlar.

* Tar haqqında bildiyiniz hər hansı bir məlumatı mətnə elə əlavə edin ki, məzmuna xələl gəlməsin.

* Mətndə hansı suala cavab yoxdur?

a) Nə üçün ərəb ölkələrində dəfi "tar" adlandırırlar?
b) Tar neçə simli musiqi alətidir?
c) Tar hansı ölkələrdə tanınır?
d) Muğam ifaçılığında tarın rolu nədən ibarətdir?

* Sözlərin leksik mənalarını tapın.

mizrab – _____, bədii-texniki – _____, müşayiətçi – _____.

3. Aşağıdakı cümlələri quruluşuna görə qruplaşdırın. Fikrinizi əsaslandırın. Baş üzvləri müəyyənləşdirib sintaktik təhlil edin.

a) Həyata keçməyən yüksək məqsədlər, həyata keçmiş alçaq niyyətlərdən qiymətlidir. (*Höte*)
b) Dost min isə azdır, düşmən bir isə çoxdur.
c) Yaz bitirir, yay yetirir, payız gətirir, qış aparır.
d) İnsan mədəniyyəti ilə tanınar.

* 3-cü tapşırıqda altından xətt çəkilmiş cümlələrdə hansı intonasiya müşahidə olunur?

b) _____ c) _____

4. Nöqtələrin yerinə uyğun gələn bağlayıcını seçin:

Lakin ... bu qardaşlar bir-birinin dilini başa düşür, ... ana-bacısı onları anlayırdı.

A) nə, nə də C) gah, gah da E) istər, istərsə
B) ya, ya da D) ya, yaxud

5. Mətni oxuyaraq qarşısında ulduz işarəsi qoyulmuş tapşırıqları yerinə yetirin.

İsti yay günlərinin birində yaxın qonşusu Mollanı qonaq çağırır. Ev sahibi ortalığa böyük bir qabda buzlu şərbət qoyur. *O, Mollaya bir çay qaşığı verir, özü isə yekə bir çömçə götürür*. Molla nə qədər çalışırsa, ağzına bir şey getmir, ev sahibi isə hər dəfə çömçəni doldurub içdikcə deyir:

– Uf öldüm! Uf öldüm!

Bunu belə görən Molla axırda çay qaşığını bir tərəfə tullayır, zorla ev sahibinin əlindən çömçəni alır və deyir:

– Qonşu, mən bu cür yaşamaqdan yoruldum. Qoy bircə dəfə mən bu çömçə ilə içim, ölüm, canım qurtarsın.

* Cümləni tamamlayın.

Mətndə fərqləndirilmiş cümlə quruluşca _____, çünki _____ .

* Aşağıdakı sözlərdən hansını mətndə altından xətt çəkilmiş hər hansı sözün yerində işlətmək olmaz?

A) atır B) iri C) vəfat etdim D) usandım (bezdim) E) səy göstərir

* Aşağıdakı atalar sözlərindən hansı mətnin məzmununa uyğundur?

A) Qonağa get deməzlər, altından palazı çəkərlər.
B) Qonaq qonağı istəməz, ev yiyəsi heç birini.
C) Qonaq evin bəzəyidir.
D) Vaxtsız gələn qonaq öz kisəsindən yeyər.
E) Dinsizin öhdəsindən imansız gələr.

6. Atalar sözlərini tamamlayın:

I. Tənbələ iş buyur, ... a. başını saxlar.
II. Qurddan qorxan ... b. özünü oda yaxar.
III. Qonşu qonşuya baxar, ... c. o sənə ağıl öyrətsin.
IV. Dilini saxlayan ... d. qoyun saxlamaz.

A) Id, IIb, IIIc, IVa C) Ic, IIb, IIIa, IVd
B) Ia, IIc, IIId, IVb D) Ib, IIa, IIId, IVc E) Ic, IId, IIIb, IVa

TARİXİ ABİDƏLƏR – ABİDƏLƏRİN TARİXİ



❑ Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.

Ümummilli lider ***Heydər Əliyev***

❑ Tarixi yaratmaqda bütün insanlar iştirak edir. Deməli, bizim hər birimiz, az da olsa, tarixin gözəlliyinə kömək etməyə çalışmalı, onun eybəcərləşdirilməsinə imkan verməməliyik.

Jan Labrüer
fransız yazıçısı və filosofu

- Bölmənin adına münasibət bildirin.
- Bu bölmədə nə haqqında danışılacağı barədə fikir yürüdün.

İÇƏRİŞƏHƏR MƏHV EDİLMƏKDƏN NECƏ XİLAS OLDU?

Bakının nə zaman tarix meydanına çıxması, eləcə də şəhərə çevrilməsi barədə dəqiq məlumat vermək çətindir. Ancaq *paleontologiya, arxeologiya və numizmatikanın* bir çox fakt və məlumatları, rahat liman çox qədim vaxtlardan insanların burada məskunlaşdığını göstərir.

Bakı qalası dedikdə hara nəzərdə tutulur?

Sara Aşurbəyli yazır ki, şübhəsiz, Bakı artıq I əsrdə liman şəhəri idi və onun təşəkkülü daha erkən dövrlərə aiddir.

Bakı qalasında əsaslı arxeoloji tədqiqat işləri ilk dəfə olaraq 1920-ci ildə başlamışdır. Belə ki tədqiqatçı alimlər E.A.Paxomov, İ.M.Cəfərzadə, F.Ə.İbrahimov, Ö.S.İsmizadə İçərişəhərin tarixini öyrənmiş, uzun illər burada aparılan arxeoloji qazıntı işlərinə rəhbərlik etmişlər. Bu qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət nümunələrinin öyrənilməsi göstərir ki, orta əsrlərdə Bakı sıx məskunlaşan yaşayış yeri olmuş, burada ticarət, pul dövriyyəsi, müxtəlif sənətlər və şəhər təsərrüfatının digər sahələri dövrünə görə yüksək inkişaf dərəcəsinə çatmışdı.

X əsrin ikinci yarısından etibarən mənbələrdə Bakı mühüm dəniz limanı kimi qeyd olunur. Onun sakinlərinin dənizçilik təcrübəsi çoxdankı ənənələrə əsaslanırdı və onların daimi məşğuliyyəti idi. Bakıdan yelkənli gəmilərlə neft, duz, sənətkarlıq məmulatları, ipək parçalar, nərə balığı, kürü, zəfəran aparılırdı. Artıq XIII-XIV əsrlərdə Genuya və Venetsiya tacirləri burada öz ticarət donanmalarına malik idilər. Bakı daim yazılı mənbələrdə xatırlanır, qədim ərəb və Avropa xəritələrində qeyd olunurdu. Bu isə onunla tanışlığın, eləcə də onun ticari əhəmiyyətinin göstəricisi idi.

1. Fərqləndirilmiş sözlərin leksik mənasını müəyyənləşdirin.
2. *Zaman, vaxt, çağ*, *an* sözlərinin sinonim olduğunu əsaslandırın.
3. *Təşəkkül* və *inkişaf* sözlərinin hər birinin sinonimlər cərgəsini tapın.
4. Sxemi tamamlayın:



5. *Tut* sözünü müxtəlif mənalarda cümlələrdə işlədin.
6. *Qala* sözünün omonimliyini əsaslandırın.

İnkişaf etmiş orta əsrlər dövründə Bakı Azərbaycanın iqtisadi, siyasi, mədəni həyatında mühüm rol oynayırdı.

...1806-cı ildə rus qoşunları Bakını tutdu. 1813-cü il Gülüstan sülh müqaviləsinin şərtlərinə görə, Bakı xanlığı Rusiyaya birləşdirildi. 1859-cu ildə Bakı quberniya mərkəzinə çevrildi. Bu ərəfədə rus mühəndisləri tərəfindən İçərişəhərin genişləndirilməsi üçün layihə işləri hazırlanırdı. Hələ 1796-cı ildən etibarən rus mühəndisləri tərəfindən tərtib olunmuş baş planda Bakı qalasının cənub-qərb istiqamətində ən azı iki dəfə, təxminən indiki Bəhram Gurun heykəli (funikulyorun qarşısı) yerləşən əraziyədək genişləndirilməsi nəzərdə tutulmuşdu.

1807-ci ildə mühəndis mayor X.İ.Truzsonun yerli planına əsasən, İçərişəhərin şimal hissəsində qaladan 200 sajen (təxminən 2,16 metr) məsafədə, dəniz sahilində ulduzşəkilli qalanın qurulması təklif olunurdu. Lakin bu layihələrin həyata keçirilməsi baha başa gəldiyi üçün hər iki plandan imtina olundu.

Qalanın 1807-ci ildə tərtib edilmiş layihəsi həyata keçirilməsə də, ancaq Bakı ərazisində *istehkamların* yaradılması ideyası rus hərbi qüvvələrinin diqqət mərkəzində idi. 1835-ci ildə "İstehkam və qalanın qurulması nəzərdə tutulmaqla Bakı qalasının və qalanın arxasında *forştadtın* genişləndirilməsi planı" işlənib hazırlandı və təsdiqləmək üçün Qafqaz rəhbərliyinə təqdim olundu. Bu plana əsasən, yalnız Şirvanşahlar *kompleksi* saxlanılmaqla bütün

Şəkli şərh edin. Sizcə, bu gün irsimiz necə qorunur?

orta əsr abidələri sökülməli, yeni küçələr sistemi salınmaqla əhali forştadta köçürülməli idi. Lakin bu köçürülmənin baha başa gəlməsi və əhali tərəfindən arzuolunmaz olunduğu nəzərə alınaraq layihədən imtina edildi. Beləliklə, İçərişəhər məhv edilməkdən xilas olundu.

Xoş tale, həmçinin xalqın iradəsi və qətiyyəti İçərişəhəri düşünülməmiş qərarlardan mühafizə etmiş, onu qoruyaraq bugünkü müstəqil Azərbaycana qovuşdurmuşdur.

“İçərişəhər Azərbaycan tarixində” kitabından

7. Rusların Bakıya olan marağının səbəbi nə idi?
8. Mətnin abzaslara düzgün bölündüyünü əsaslandırın.
9. Xronologiyanı nəzərə alsanız, mətndəki abzasları necə düzərsiniz?
10. Mətndə hansı faktlar sizin üçün maraqlı oldu? Bildiyiniz hansı faktı mətnə əlavə etmək istərdiniz?
11. *Mətni oxuyarkən bu qənaətə gəldim ki, ...* cümləsini mətndən əldə etdiyiniz müxtəlif hökmlərlə tamamlayın.
12. Qız qalası abidəsi haqqında məlumat toplayıb mətnə əlavə edin. Bu zaman abzaslar arasında rabitənin itməməsinə çalışın.

13. Uyğunluğu müəyyənləşdirin.

1	Aleksandr Nevski adına kilsənin ucaldılması qərarının verilməsi	1835-ci il
2	İçərişəhərdə ilk tədqiqat işlərinin aparılması	1850-ci il
3	Şirvanşahlar sarayından başqa, digər abidələrin sökülməsi planı	1807-ci il
4	Ulduzşəkilli qalanın qurulması təklifi	1920-ci il

14. Əgər siz arxeoloq olsa idiniz, yaşadığınız ərazinin hansı hissəsində tədqiqat işləri aparardınız? Nə üçün?

15. Hər iki şəkli müqayisə edin və sualları cavablandırın.
    - Şəkillərdə nə təsvir olunmuşdur?
    - Hansı fərqi gördünüz? Keçmişdən bu günə nə dəyişmişdir?
    - Bu dəyişikliyi siz necə qiymətləndirirsiniz?

✓ *Şəkillər əsasında özünüz də suallar tərtib edib yoldaşlarınıza müraciət edin. Fikirlərinizi ümumiləşdirin.*

16. Mətni oxuyun.

Şəhərin əsas rəmzi "Qoşa qala qapısı" adlanan şimal darvazaları üstündə yerləşir. O, mərkəzində buynuzlu öküz başı, solda və sağda simmetrik şir fiqurları və günəş diskləri təsvir olunmuş üfüqi kompozisiyadır.

Mərkəzdə təsvir olunmuş buynuzlu öküz başı bukranidir. H.Həsənova görə, bukrani böyük skif ilahəsi Tabutinin təcəssümü olaraq, "qurban kəsilmə"nin rəmzidir və Bakını Böyük İlahənin "məbədi" kimi təsbit edir. Günəş diskləri ölən və yenidən canlanan Misir Osirisinin skif analoqu olan Qoytosirin rəmzidir. Şir fiqurları mühafizə, himayə mənasındadır. Təhlil olunmuş rəmzlər H.Həsənova belə bir nəticəyə gəlməyə əsas verir ki, qədim Bakı gerbinin mənası "Bakı – Tabuti və Qoytosirin himayəsində olan müqəddəs Od, Günəş və Bahar şəhəridir" deməkdir. O, Kimmer-skif dövründə yaradılmış və Bakının əsas darvazası üzərində təxminən eramızdan əvvəl VIII-VII əsrlərdə quraşdırılmışdır. Sonralar qala divarları və darvazalar yenidən bərpa olunarkən gerb yenidən girişin üzərində quraşdırılmışdır.

(*"İçərişəhər Azərbaycan tarixində" kitabından*)

Sözləri tərcümə edin və mənasını izah edin.

təcəssüm –	himayə –
məbəd –	rəmz –
təsbit edir –	quraşdırılmaq –

Gerbləri öyrənən elm *heraldika* adlanır.

- Siz dövlət rəmzləri haqqında nə bilirsiniz?
- "Azərbaycan Respublikasının dövlət rəmzləri" mövzusunda fikir mübadiləsi aparın.

17. Aşağıdakı bağlayıcılardan istifadə etməklə sxemi tamamlayın.

Ki, ilə, hətta, indi ki, madam ki, hərçənd, həmçinin, o cümlədən, ona görə ki, onun üçün ki, əgər, hərgah, habelə, amma



✓ *Hansı bağlayıcıları qutulara yerləşdirə bilmədiniz? Səbəbini izah edin.*

✓ *Qutudakı bağlayıcılardan istifadə etməklə cümlələr qurub yazın.*

18. Mətndə hansı cümlələrdə tabelilik bağlayıcılarından istifadə olunmuşdur?

19. Dəfələrlə İçərişəhərin qala divarları yanından ötmüş, bəlkə də, oradakı simvolik işarələrə, binaların divarlarındakı və tavanlarındakı fiqurlara baxmamısınız. Halbuki bu rəmzlər keçmişimizin əksidir. İçərişəhərə səfər təşkil edin. Maddi-mənəvi irsimizlə tanış olun. İçərişəhərdəki abidələrin tarixi haqqında məlumatı sizə hansı peşə sahibi verə bilər?

✓ *"İçərişəhər tariximizin yaddaşıdır" mövzusunda təqdimat hazırlayın. Təqdimatınızda şəkillərdən istifadə edin.*

Sözlərin leksik və qrammatik mənalarını müəyyənləşdirin. İzahınızı nümunələrlə əsaslandırın.

- **arxeologiya**
- **qəfildən**
- **kompleks**
- **layihə**
- **simmetrik**

1. Mətndən seçilmiş sözlərin düzgün tələffüzünü müəyyənləşdirin.

onlar, tədbirlər, qasidlə, cavanlar, tərəfindən, nəzərindən, əyanlar, cürətlə, qəzəbindən, ənamlar, məhəbbətlə, damarlar, torpaqlar		
[n]	[l]	[r]

BAKI – 1501

(*romandan bir hissə, ixtisarla*)

Sizcə, söhbət hansı qaladan gedir?

Qalaya bir ay əvvəl elçi gəlmiş, Şah İsmayılın xərac (*tələbini, xahişini*) gətirmişdi. Onda Fərrux Yasar hələ sarayda idi və elçiyə rədd cavabı vermişdi. İsmayılın Şirvan və Bakı üzərinə hücumu da elə bununla izah edilirdi. İndi onların heç biri: nə qayınatası Şirvanşah Fərrux, nə də əri Qazi bəy sarayda idi. Onlar qoşun və kömək gətirmək üçün getmişdilər. Lakin heç birindən xəbər yox idi. İndi bütün bunları düşünən Sultanım xanım şəhərin müdafiəsi üçün tədbirlər tökürdü.

Nə üçün Sultanım xanım qasidlə görüşə süvari paltarında getdi?

Bu zaman qasidin gəldiyini və Qazi bəylə görüşmək istədiyini dedilər. Sultanım xanım məşqlər zamanı əyninə geydiyi süvari paltarını geyindi və qasidlə görüşmək üçün Qazi bəyin qəbul otağına keçdi.

Burada Bakı darğası Əbdülfəttah bəyi qasidlə yanaşı dayanan gördü. Bir neçə cavan sərkərdə isə Qazi bəyin (*dostları, tanışları*) idi və Sultanım xanımı tanıyırdılar. Qazi bəyin əvəzinə Sultanım xanımın tək daxil olması cavanları heyrətləndirsə də, onlar qasidin yanında bunu üzə vurmadılar.

Qasid irəli gəldi, sinəsini qabağa verib əda ilə dilləndi:

– Mən hökmü Ərdəbildən Ərzincana, Şirvanşahlıqdan Şama (*işləyən, çalışan*) qibleyi-aləm Şah İsmayıl tərəfindən hüzurunuza təslim tələbi ilə göndərilmişəm. (–)Təslim olmalısınız! Yoxsa iki gün keçməyəcək, qala alt-üst olacaq. Hamınız da əsir ediləcəksiniz!

Qasid çox ürəklə danışırdı. Bilirdi ki, qalanın o biri üzündə döyüşə hazırlıq gedir. Arxasında Xülafə bəy, Bayram bəy kimi igidlər durmuşdu. Bir də ki saray qayda-qanunlarına bələd idi.

Qasidin hökmlü və (*hirsli, acıqlı*) danışığı xanımın qəlbinə işlədi. Qasidin Əbdülfəttah bəyə baxması da onun nəzərindən yayınmadı. Sonra sərkərdələrə baxdı. Darğadan başqa, bütün sərkərdə və əyanlar qəzəblənmişdilər.

Sultanım xanım təmkinlə dedi:

– Sən nə cürətlə yeddi yüz illik Şirvanşahlar xanədanına meydan oxuyursan, bu sarayda təslimdən danışırsan?

– (–)O xanədanın çırağı sönüb, şahzadə.

– Bəs camaat? Onların təslim olmaq istəyib-istəmədiyinin əhəmiyyəti yoxdur?

Qasidin həyasızlığı o dərəcəyə çatdı ki, o, cavab qaytardı:

– Camaat! Camaat kimdir, nədir?

Sultanım xanım gözlənilməz bir hökmlə əlini qaldırdı:

– Aparın, meydanda asın! Günahını da carçılar desin! Qoy bəyənmədiyi camaat onu öz gözü ilə görsün!

Qərarın qətiliyinə inanan qasid yalvarmağa başladı. Sultanım xanım qaşlarını çatdı:

– Sən hələ (*qorxaqmışsan da, ürkəkmişsən də*)? Bir qaşıq qanından (*ötrü, üçün, görə*) sürünmə! Danışdığın kimi mərdanə ölməyi bacar.

Elçi aparılandan sonra Əbdülfəttah bəy dedi:

– Xanım, heç yaxşı iş görmədiniz.

– Niyə? – deyə Sultanım xanım maraqla soruşdu: – Şirvanşahları alçaldan, camaatımızı bəyənməyən bir qasidə aman verəydik?

– Axı bir nəzərə alın ki, üstümüzə gələn Şah İsmayıldır. Onun qəzəbindən qorxun! Sizin qayınatanız Fərrux Yasar Cabanıda həlak olub. Qazi bəy ortada yoxdur. Axı dava-şava kişi işidir! Ya şəhəri təslim elə, ya da şahzadənin yerini de!

Bu sözləri deyəndə(–) darğanın qorxudan əlləri əsir, barmaqları titrəyirdi. Ancaq aldığı ənamlar, verdiyi sözlər onun öz canı ilə oynamasına bais oldu.

Sultanım xanım üzüklü sağ əlini qaldırıb qeyzlə dedi:

– Mənim şahzadə adından danışmağa səlahiyyətim var. Amma qoy sənə bir misal çəkim. Deyirlər(–), (*qədim, antik*) zamanlarda məğlub bir padşah qalibin yanında çox ürəkli danışırmış. Bunun (*səbəbini, məqsədini*) axtarırlar. Axırda dünyagörmüş bir qoca deyir: "Baxın görün, o şah harada dayananda ürəkli danışır və həmin yeri qazın. Növbəti danışıq zamanı şahın durduğu yeri qazırlar. Həmin yerdən xeyli qızıl küpü çıxır. Məlum olur ki, məğlub şahı danışdıran üstündə dayandığı xəzinə imiş!" İndi mən də əmin oldum ki, səni danışdıran düşməndən aldığın ənamlardır. Sən xəyanət yolu tutmusan, Əbdülfəttah bəy!

Sərkərdələrin çoxu ürəyində "Əhsən!", "Halal olsun!" – deyə düşünərək məhəbbətlə şahzadəyə baxdı. Gözləmədiyi halda Sultanım xanımın onun sirrinə vaqif olması bəyi sarsıtdı. Dəhşətdən damarlarında qanı dondu. İxtiyarsız xanımın ayaqlarına döşəndi:

– Aman, aldadıblar məni, şahzadə xanım! Bağışla məni!

Sultanım xanım:

– Mən qarasına demişdim, bəy! – deyə (*qışqırdı, bağırdı*). – Xəyanətini özü etiraf edəndən sonra casusun, doğma yurduna məğlubiyyət arzu edən xainin cəzası ölümdür! Aparın! Darğanın xəyanətini xalqa elan edin. ... İndi isə, ağalar, buyurun, məşvərətə. Görək şəhərimizi necə müdafiə etməliyik...

* * *

Bu qalanın fəthindən illər keçəcəkdi. Ömrünün son günlərində Şah İsmayıl (1487–1524) övladlarına yazacaqdı: "Bir çox döyüşlərdə iştirak etdim. Qələbə qazandım. Çaldıran döyüşündən 14 il keçib. Hələ bir dəfə üzüm gülməyib. Əziz xələflərim! Ömrümün son günlərini yaşayıram. Bu az ömrümdə əlimdən gələni etdim. Parça-parça bölünmüş (*diyarlarımızı, yurdlarımızı, torpaqlarımızı*) qılınc gücünə birləşdirməyə çalışdım. Vətənin bir sıxma torpağını bir ovuc qızıldan, dilimizin bir kiçicik sözünü ləl-cəvahiratdan üstün bildim. Hər ikisinin: Vətənin və dilin əbədiyyəti üçün. Məni lənətlə yad etməyin! Yaxşı nə başlamışamsa, onu göyərdin! Səhvlərimi təkrar etməyin! Sizə üç əmanət qoyub ərən babalar: dilimiz, qeyrətimiz, Vətənimiz! Əmanəti qoruyun!

Sizcə, Şah İsmayıl "səhvlərim" dedikdə nəyi nəzərdə tuturdu?

Əzizə Cəfərzadə

1. Mətndə mötərizədə verilmiş sözlərdən uyğun olanını istifadə edin.
2. Mətndən frazeoloji birləşmələri seçin.
3. Mətndəki hansı sözlər müasir dilimizdə işlənmir? Belə sözlər necə adlanır? Həmin sözlərin bədii əsərlərdə işlənməsi nə üçündür?
4. Çərçivəyə alınmış sözləri nitq etiketinin bir növü hesab etmək olarmı? Həmin etiketi adlandırın və uyğun nümunələr tapın. Bu etiketlərdən hansı halda istifadə olunur?
5. Aşağıdakı ifadələrin əksini tapın.

Səni yüz yaşa!	Allah öldürsün!
.....	Evin yıxılsın!
Allah qorusun!	.....
.....	Bədbəxt olasan!

✓ *İkinci sütundakı ifadələr necə adlanır?*

6. Sultanım xanımın hərəkətlərinə münasibət bildirin. Fikirlərinizi əsaslandırın.
7. Əsər əsasında Sultanım xanımın şəxsi keyfiyyətlərini sadalayın.
8. Mətndən çıxış edərək Şah İsmayılın şəxsi keyfiyyətləri haqqında danışın.
9. Sonuncu abzasda hansı faktın düzgün olmadığını müəyyənləşdirin. Bunun üçün Çaldıran döyüşünün baş verdiyi tarixi xatırlamaq kifayətdir.
10. Qasidin hökmlə danışmasının ən azı iki səbəbini göstərin.
11. Mətndən hansı nəticəni çıxardınız?
12. Bu atalar sözlərindən biri mətnin məzmununa uyğun gəlir:
    - Əmanətə xəyanət olmaz.
    - Saxla samanı, gələr zamanı.
    - Qul xətasız, ağa kərəmsiz olmaz.
    - El malına xor baxanın gözlərinə qan damar.
13. Siz torpağınızın, yurdunuzun şərəfini qorumaq üçün nə edirsiniz? Vətənin şərəfini qorumaq üçün yalnız döyüşməkmi lazımdır?

14. Mətni oxuyun, müzakirə edin.

ELÇİYƏ ZAVAL YOXDUR

Bu ifadə Şərqdə çox qədim tarixi olan bir adətlə əlaqədardır. Qalib hökmdarlar məğlubları həmişə öz əsarətində saxlamaq üçün onların övladlarını və ya çox yaxın adamlarını zaval olaraq öz saraylarında yaşamağa məcbur edirdilər. Bu mənada "zaval" sözü "girov" anlayışına uyğun gəlir (lakin girov cansız əşyalardan olur və başqa səciyyəlidir). Zaval kimi sarayda saxlanan adamlar isə nə qədər olsa da, özlərini azad, sərbəst hesab edə bilmirdilər, yad mühitdə aciz, yazıq görkəm alırdılar, buradan da "zavallı" sözü meydana gəlmişdir.

Elçi sifəti ilə göndərilən şəxs isə zaval olaraq saxlanıla bilməzdi. "Elçiyə zaval yoxdur" ifadəsi bu adətlə bağlıdır.

(*Musa Adilov, "Niyə belə deyirik" kitabından*)

✓ *"Elçiyə zaval yoxdur" atalar sözü mətndə (səh. 90) çərçivəyə alınmış hissədə hansı cümlədən sonra artırılsa, məzmuna xələl gəlməz?*

15. Mətndə (səh. 90–92) mötərizə içərisindəki xətlərin yerinə aşağıdakı bağlayıcılardan uyğun gələnini artırın.

Hərçənd ki, buna görə də, çünki, ki, əgər, hərgah, və, o səbəbə ki

16. Mətndə (səh. 91) altından xətt çəkilmiş cümlələrin mürəkkəb cümlə olduğunu əsaslandırın. Onların necə fərqləndiyini izah etməyə çalışın.

Tərkibindəki sadə cümlələrdən biri digərinə tabe olan mürəkkəb cümlələrə *tabeli mürəkkəb cümlələr* deyilir.

Tabeli mürəkkəb cümlələrdə tərkib hissələrdən biri asılı, digəri əsas olur. Əsas cümlə baş cümlə, asılı cümlə budaq cümlə adlanır.

Məsələn:

Albert Eynşteyn demişdir (baş cümlə) ki, bütün insani dəyərlərin təməli əxlaqdır. (budaq cümlə)

Ağıl olmasa, (budaq cümlə) gözəllik heç nəyə yaramaz. (baş cümlə)

17. Mətndən tabeli mürəkkəb cümlələrə aid nümunələr seçin.

18. Mətndə (səh. 90) fərqləndirilmiş cümlələri tabeli mürəkkəb cümləyə çevirin.

Nümunə: Darğanın xəyanətini xalqa elan edin.
Xalqa elan edin ki, darğa xəyanət etmişdir.

19. Aşağıdakı cümlələrdən biri tabeli mürəkkəb cümlə deyil?

A) Sən fikirləş ki, bir sənət əsəri yaradırsan. (*H.İbrahimov*)
B) Bir-birimizin evinə gediş-gəlişimiz olmasa da, onun haqqında həmişə yaxşı fikirlər eşitmişdim. (*Y.Əzimzadə*)
C) Beynimə qan, gözlərimə işıq, ürəyimə hərarət verənə həmişə sidq ilə ibadət etmişəm. (*H.İbrahimov*)
D) Telefonu asmaq istəyirdi, dəstəkdən səs gəldi. (*Anar*)
E) Arxeoloq Həsən Həsənov müəyyən etmişdir ki, Qız qalası od ilahəsi Tabutiyə həsr olunmuş kimmer-skif məbədidir.

20. Bitişik, yoxsa ayrı? Düzgün yazın.

Dünən(ki) söhbət məni narahat edirdi.
Dünən(ki) sən gəlmədin, fikrim dəyişdi.
Bilirdi(ki) bizə gələcək.
Məktəbdə(ki) tədbir çoxlarının ürəyincə oldu.
Məktəbdə(ki) belə tədbir keçirmisiniz, səsi hər yerə yayılıb.

21. 1-ci və 2-ci cərgədəki sözləri düzgün əlaqələndirin.

1. şəhər — maddi-mənəvi sərvət — dissertasiya

2. müdafiə — qorunma

22. Durğu işarələrini bərpa edin.

Tarixçilər nağıl edirlər ki Buxara Səmərqənd kimi şəhərlərin gözəl abidələri Təbriz ustalarının əli ilə yaradılmışdır (*Ə.Cəfərzadə*). Yerlisini sorğu-suala tutsa da heç nə öyrənə bilmədi (*Ə.Cəfərzadə*).

General Əliağa Şıxlinskinin şəxsi fondunda şair Osman Sarıvəlliyə yazdığı məktubların surəti və poçt qəbzi saxlanılır. O şair O.Sarıvəlliyə yazır ki mən cəsarət edib böyük dramaturq C.Cabbarlıya yazdığınız Yaşar və Ölüm şeirlərini türkcədən ruscaya tərcümə etdim. Xahiş edirəm tərcümə ilə tanış olun xoşunuza gəlsə dərc etdirmək üçün rüsxət verin (*Ş.Nəzirli*).



Şəhid olmaq ölmək, yox olmaq deyil, ölümlə var olub mənən diri qalmaq deməkdir. Allah yolunda ölənləri heç də ölü zənn etmə! Əslində, onlar diridirlər. Onlara Rəbbi yanında ruzi əta olunur.

(Qurani-Kərim, Ali-İmran surəsi, 169-cu ayə)

“1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də, gələcək nəsillər buna daha doğru, daha düzgün qiymət verəcəklər. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur”.

Ümummilli lider Heydər Əliyev

Baxıram dünyanın bu gərdişinə,
Dəli bir ağlamaq keçir könlümdən.
Fələk rəvac verdi namərd işinə,
Dəli bir ağlamaq keçir könlümdən.

Torpaqda haqqı var axan qanın da,
Bir nərin qolları düşüb yanında,
Müqəddəs Şəhidlər xiyabanında,
Dəli bir ağlamaq keçir könlümdən.

Alı Mustafayev

20 Yanvar faciəsi ilə bağlı əlavə məlumat toplayın.

Verilmiş materiallardan və topladığınız məlumatlardan istifadə edərək ssenari yazın və “20 Yanvar – Qan yaddaşımız” adlı ədəbi-bədii kompozisiya hazırlayın. Ssenari əsasında kiçik sənədli film də çəkə bilərsiniz.

“ƏBƏDİ MƏŞƏL” ABİDƏSİ QƏHRƏMANLIQ VƏ RƏŞADƏTİN ƏBƏDİLƏŞƏN TƏSVİRİDİR

(*ixtisarla*)

“*Daş bizi qədimdən bu günə qədər daşıyan vasitədir*”.

Hər bir abidə tariximizin “yaşayan” bir parçası olmaqla bərabər, həmin dövrün qədirbilən və yaradıcı insanlarının xidmətlərini özündə *təcəssüm* etdirir. Bu baxımdan 20 YANVAR faciəsi şəhidlərinin xatirəsinə ucaldılmış “Əbədi məşəl” abidə *kompleksinin* necə yaranmasını, həmçinin yaradıcılarını tanımaq və tanıtdırmaq hər birimizin borcudur.

“Əbədi məşəl” abidə kompleksinin yaradılması fikri ilk dəfə 1994-cü ildə irəli sürülüb. Milli Məclisdə bu faciəyə qiymət verilərkən Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsini əbədiləşdirmək üçün abidə yaradılması qərarı da qəbul olunur. O bu məsələni şəxsi diqqətində saxlayır, yaradılmış komissiyaya tapşırıq və tövsiyələrini verir: memar və heykəltəraşlara öz təsirliliyinə, məzmununa, səviyyəsinə görə böyük həcmli əsərdən də çox qiymətli olacaq bir abidə yaratmağı tapşırır. Bir il sonra, faciənin beşinci ildönümündə keçirilmiş sərgidə ona iki layihə təqdim olunur. Hazırlanmış layihələr yalnız faciəni əks etdirdiyi üçün Prezident Heydər Əliyevi qane etmir, o daha bir neçə layihənin hazırlanmasını tapşırır. Tapşırıq ondan ibarət olur ki, yaradılacaq abidə faciəni də, xalqın qəhrəmanlığını da, təcavüzü də əks etdirməlidir.

Keçirilən müsabiqədə Əməkdar memar Elbay Qasımzadənin rəhbərlik etdiyi Layihələndirmə şirkətinin işləyib hazırladığı layihə seçilir. Heydər Əliyev 5 avqust 1998-ci il tarixində Bakı şəhərindəki Şəhidlər xiyabanında “Əbədi məşəl” abidə kompleksinin ucaldılması haqqında sərəncam verir.

Kompleksin açılışı 9 oktyabr 1998-ci il tarixində olmuşdur. Abidə səkkizguşəli ulduz üzərində dayanan qızılı rəngdə şüşə günbəzdən, tac qoyulmuş

1. Fərqləndirilmiş sözlərin leksik mənasını tapın.
2. *Memar* və *heykəltəraş* sözlərinin məna fərqini izah edin.
3. Cərgəni elə tamamlayın ki, sinonim sözlər alınsın.

4. *Sərdabə, türbə, məqbərə* sözlərini cümlələrdə işlətməklə məna fərqini izah edin.
5. *Zərif* və *zəif* sözlərinin yaxınmənalı söz olmadığını əsaslandırın.

sərdabədən (türbədən) ibarətdir. Sərdabənin divarlarını zərif şəbəkə bəzəyir. Gecə səmasında parlayan qızılı rəngli günbəz Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərin ruhunu *təcəssüm* etdirir.

2007-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Şəhidlər xiyabanı *rekonstruksiya* olunarkən "Əbədi məşəl" abidəsinin sütunları hündürləşdirilmiş, abidədəki səkkizguşəli ulduz və məsamələri qızılla işlənmişdir.

Bu gün Şəhidlər xiyabanı xalqımızın müqəddəs and yeri, inam yeri olmuş mötəbər ziyarətgahdır.

Seymur Yunusov

6. 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Bakı şəhərində baş vermiş faciə haqqında məlumat toplayın:
   - Həmin hadisənin başvermə səbəblərini araşdırın.
   - Hadisənin nəticələri barədə mülahizələrinizi yazın.
   - Həmin hadisənin sizdə oyatdığı təəssüratı əks etdirin.

7. Lüğətin köməyi ilə düzgün yazın.

Tövsi.ə, ehti.at, mədəni.ət, əbədi.ət, ədəbi.at, fərzi.ə, qafi.ə, tərbi.ə, mali.ə, xi.aban, səvi.ə, la.ihə



8. Mətndə çərçivəyə alınmış söz birləşməsinin düzgün yazılışını müəyyənləşdirin. Özünüz də belə nümunələr tapın.

9. Hansı düzgün yazılmışdır? Fikirlərinizi əsaslandırın.

30 dekabr	31 Dekabr
31 Mart	30 Mart
14 iyun	15 İyun

10. İzahlı lüğətin köməyi ilə sözlərin mənalarını izah etməyə çalışın.

əsr – əsir	kəsr – kəsir	sənəd – sənət
həsr – həsir	məhrum – mərhum	süfrə – sürfə
hərf – hərif	mətn – mətin	şahid – şəhid

11. Mətni oxuyun, münasibət bildirin.

Tədqiqatlardan məlum olur ki, “and” sözü, əslində, “qan qardaşı” mənasında işlənən “anda” sözündəndir. “Anda” sözü monqolca həm də “əmi, dayı” mənasını verir. Monqollarda “xoş gəldiniz” demək məqamında “anda” deyirlər ki, bunun da mənası “qardaşımsan və əzizimsən” deməkdir. Qədim türk xalqlarının və monqolların bir adətinə görə, əsilləri başqa-başqa qəbilələrdən olan, ancaq qardaşlaşmaq, dostlaşmaq istəyən iki şəxsin hər biri öz barmağını deşər və barmaqdan çıxan qanı qarışdırarlarmış. Bu mərasim bitəndən sonra onların hər biri digərinin qəbiləsində qardaşlığının bütün hüquqlarını əldə edir, doğma qardaşdan fərqləndirilmirdi. “And içmək” ifadəsi bu adətlə əlaqədardır.

(*Musa Adilov, “Niyə belə deyirik” kitabından*)

✓ *Özünüz də belə nümunələr söyləyin.*

12. Altından xətt çəkilmiş sözləri elə əvəz edin ki, fikir düzgün olsun.

- İgidlərimiz döyüşdə qəhrəmancasına öldülər.
- S.Vurğun 1956-cı ildə xərçəng xəstəliyindən həlak olmuşdur.
- Ç.Mustafayev Qarabağ uğrunda gedən döyüşləri lentə alarkən vəfat etmişdir.
- Aldığı yaradan gözlərini əbədi qapadı.
- İşıq düşməsin deyə gözlərinin üstünü yumdu.
- Baş verən faciəni görməmək üçün əlləri ilə gözlərini bağladı.

13. 20 Yanvar faciəsi ilə bağlı Vahid Mustafayevin “Qanlı Yanvar” filmini izləyin. Həmin filmi müzakirə edin və verilmiş fikirləri tamamlayın:



Aşağıdakı fikri tamamlayın.

Bir daha belə faciələrin baş verməməsi üçün ..... .

Mən Bakıda doğulmuşam. Şəhərin mərkəzində, metronun "Nizami" stansiyası yaxınlığındakı binada yaşamışam. Eyvanımız metronun giriş qapıları tərəfə baxdığından ətrafdakı binalarda yaşayan insanları da tanıyırdıq. XX əsrin əvvəllərində tikilmiş ikimərtəbəli binaların sakinləri sanki böyük bir ailənin üzvləri idi. Memarlıq üslubu ilə seçilən, fərqli görünüşə malik olan bir bina isə Qərb memarlığını xatırlatdığından diqqəti daha çox cəlb edirdi. Bəlkə də, elə buna görə bu binaya baxmağı çox sevirdim. Bir dəfə həmin binanın memarının Zivərbəy Əhmədbəyov olduğunu eşitdim...

... 2011-ci ilin iyul ayında Bakıya yay tətilinə döndüm. "Nizami" metro stansiyasının yanından keçərkən qarşısındakı meydanı tanımadım. Az vaxt ərzində ətrafda çox şey dəyişmişdi. Meydan və ətrafdakı binalar yeni görkəm almışdı. Meydanın mərkəzində isə məşhur azərbaycanlı memar Z.Əhmədbəyova heykəl qoyulmuşdu. Yaxınlaşıb heykələ diqqətlə baxmağa başladım.

Mən və mənim yaşıdlarım bu böyük memar haqqında nə bilirik? Onun Azərbaycan memarlıq tarixində yeri və rolu nədən ibarətdir? Bəs Azərbaycanın böyük memarları haqqında məlumatımız kifayət qədərdirmi? Təkcə ötən əsrin əvvəllərində, ortalarında, sonlarında deyil, heç bu gün də şəhəri gözəlləşdirən insanları tanımırıq. Zənnimcə, belə olmamalıdır.

(Xaricdə təhsil alan tələbənin məktubundan, ixtisarla)

ZİVƏRBƏY ƏHMƏDBƏYOV

Məşhur Azərbaycan memarı Zivərbəy Əhmədbəyov Avropa təhsili almış və 1918–1925-ci illərdə Bakının baş memarı olmuş ilk ali təhsilli azərbaycanlı idi. O, 1873-cü ildə Şamaxı şəhərində anadan olmuşdur. Bu gün Bakını bəzəyən, *möhtəşəmliyi* ilə *göz oxşayan* bir çox tikililər məhz onun adı ilə bağlıdır.

Zivərbəyin istedadlı memar kimi yetişməsi təsadüfi deyildi. Anası Töhfə xanımın musiqi, ədəbiyyat və poeziya həvəskarı olması onun gələcək *karyerasının* formalaşmasında əhəmiyyətli rol oynamışdır. O, yuxarı siniflərdə oxuyarkən qərara alır ki, memar olub gözəl sənət nümunələri yaratsın, xalqımızın zəngin memarlıq ənənələrini yaşatsın.

1893-cü ildə Peterburq şəhərindəki Mülki Mühəndislər İnstitutuna daxil olan Zivərbəy 1902-ci ildə memar diplomu ilə vətənə qayıdır. Dövrünə görə *mükəmməl* təhsil alan gənc kadr ilk fəaliyyətinə doğulduğu şəhərdən başlayır. Onu Vətənə qayıtmağa istiqamətləndirən şəxs isə Azərbaycanın böyük ziyalısı Həsən bəy Zərdabi olur. H.Zərdabiyə yazdığı məktubların birində o bu görüşü həyatının ən böyük *töhfəsi* adlandırır.

Z.Əhmədbəyov bu görüşü nə üçün "töhfə" adlandırırdı?

Zivərbəy Əhmədbəyovun nəvəsi, yeganə qızı Firəngiz xanımın oğlu Oqtay Əfəndiyev deyir ki, məhz həmin ərəfədə, yəni 1902-ci ilin 31 yanvarında baş verən zəlzələ Şamaxını xarabazara çevirmişdi. Buna görə də Z.Əhmədbəyov bir müddət Şamaxıda qalır, o, şəhərin abadlaşması ilə məşğul olur. Tamamilə dağılmış Cümə məscidi ilə yanaşı, digər tikililəri də yenidən bərpa edir. 1907-ci ildə babam Bakıda başlanılan abadlıq işlərinə nəzarətçi təyin edilir. Həmin dövrdə Bakı şəhərinin memarlığı xüsusi naxışları və ornamentləri ilə fərqlənirdi. Zivərbəy Əhmədbəyov öz layihələrində Qərbi Avropa və Şərq memarlıq ənənələrini böyük məharətlə birləşdirirdi. Bu səbəbdən də paytaxtın qubernatoru və ali təbəqəsi şəxsi mülklərinin layihəsini məhz ona etibar edirdi".

Bu gün Bakıya yaraşıq verən tikililərin sırasında Təzəpir məscidi xüsusi memarlıq üslubu ilə fərqlənir. Məscid məşhur Aşurbəyovlar nəslinin nümayəndəsi Nabat xanımın vəsaiti hesabına tikilib. O zaman Bakı milyonçularının çoxu Avropanın ən məşhur memarlarını Bakıya dəvət edib özləri üçün yaşayış binaları tikdirirdilər. Nabat xanım məscidi məhz **ilk azərbaycanlı memara** tikdirmək fikrinə düşür. Bu memar isə gənc Zivərbəy idi. Müdrik qadın memarı yanına çağırıb niyyətini bildirdikdən sonra onu öz vəsaiti hesabına Şərq ölkələrinə göndərir ki, məşhur məscidlərin memarlıq üslubunu öyrənsin. Nabat xanım Bakıda Şərqin ən möhtəşəm məscidlərinə bənzər məscid görmək istəyirdi. Zivərbəyi Məkkə və Mədinəyə, İstanbula Şərqin memarlıq inciləri sayılan məscidlərin memarlıq üslubu ilə tanış olmağa göndərəndə ona belə demişdi: "Oğlum, qoy o müqəddəs ocaqların ruhu sənə ilham versin. Bax, öyrən, ən yaxşısını seç! Xalqımızın adına layiq elə məscid tik ki, adı dillər əzbəri olsun".

Nə üçün Nabat xanım məhz Zivərbəyi seçir?

Beləliklə, Zivərbəy Şərqin zəngin məscid memarlığını mənimsəyərək geri dönür. İndi Nabat xanım Aşurbəyovanın arzuladığı məscidi tikmək olardı. Zivərbəyin layihəsi əsasında ən bacarıqlı sənətkarların iştirakı ilə Bakıda unikal memarlıq abidəsi – Təzəpir məscidi meydana gəlir. Məscidin 1905-ci ildən başlanan tikintisi 1914-cü ilə kimi davam etdi.

Mehparə

"Mədəniyyət" jurnalından, 2014-cü il

1. Tünd şriftlə verilmiş söz birləşməsi mətn üçün açar söz ola bilərmi? Siz hansı variantı təklif edərdiniz?
2. Fərqləndirilmiş sözlərin leksik mənalarını lüğətin köməyi ilə tapın. Hansını sinonimi ilə əvəz edə bilərsiniz?
3. İzahlı lüğətin köməyi ilə *abidə, heykəl, büst* sözlərinin mənalarını izah edin.

26 may 2011-ci ildə Bakıda "Nizami" metro stansiyası qarşısında Z.Əhmədbəyovun heykəlinin və onun adını daşıyan parkın açılışı olub. Heykəlin məhz "Nizami" metro stansiyasının qarşısında ucaldılması təsadüfi deyil. Metronun sol tərəfində memarlıq üslubunda tikilən binanın müəllifi Z.Əhmədbəyovdur. Metronun qarşısından keçən küçə də memarın adını daşıyır.

4. Şəkil üzrə iş.

- Abidə sizə hansı təsiri bağışladı?
- Nə üçün bu abidə belə hazırlanıb?
- Abidəni bəyəndinizmi və ya əksinə? Niyə?

Meydanın mərkəzində ucalan heykəlin müəllifi azərbaycanlı heykəltəraş *Natiq Əliyevdir*. Paytaxtımızı bəzəyən bu sənət əsəri bir sənətkarın digərinə olan məhəbbətindən, hörmətindən yaranmışdı.

5. Mətnin məzmunu üzərində iş aparmaq üçün suallar tərtib edin. Sualların dolğun və məzmunlu olmasına çalışın. Həmin suallarla dostlarınıza müraciət edin.
6. Mətndəki faktları toplayıb "Bilirsinizmi?" başlıqlı rubrika hazırlayın.
7. H.Zərdabinin kim olduğu haqqında kiçik məlumat toplayın. Həmin məlumatı feili birləşmə şəklində formalaşdırın və mətnə əlavə edin. Bu zaman mətndə rabitənin pozulmamasına çalışın.
8. Məntiqi ardıcıllığı davam etdirin:

   Badisəba xanım Köçərli, Nabat xanım ... , ... , ... və s.

   Sizcə, bu ardıcıllıq hansı məntiqə əsaslanır?

9. Memar Natiq Əliyev haqqında məlumat toplayıb kiçik təqdimat hazırlayın.

10. Şəkilçiləri düzgün artırmaqla sağ sütundakı sözləri sol sütundakı sözlərlə uyğunlaşdırın.

Tamaşa ___	seyr etmək
Film ___	baxmaq
Mənzərə ___	nəzər salmaq
Ətraf ___	müşahidə etmək
Hadisə ___	şahid olmaq

11. Mətndə altından xətt çəkilmiş cümlələrin mürəkkəb cümlə olduğunu əsaslandırın. Həmin cümlələri bir-birindən fərqləndirin.

12. Tabeli və tabesiz mürəkkəb cümlələri müqayisə edib bu nəticəyə gəldik ki, ...

Tabesiz mürəkkəb cümlələr

Bərabərhüquqlu cümlələrin ..... .

Tabesiz mürəkkəb cümlələr ..... bağlanır.

Belə cümlələr ..... əlaqələnə bilir.

Tabeli mürəkkəb cümlələr

Tərkibindəki cümlələrdən biri əsas, ...

Əsas cümlə ..... , ... cümlə adlanır.

Tabeli mürəkkəb ..... tərkib hissələri ..... və ..... bağlanır.

13. Düzgün yazmaqla cümlələri tamamlayın, durğu işarələrini bərpa edin.

Nabat xanımın Ziyərbəy Əhmədbəyovu Şərq ölkələrinə ezam etməkdə məqsədi o idi(ki) _____. Əgər Həsən bəy Zərdabi gənc memarın bacarığına inanmasa(idi) _____. Maştağa kəndində tikilmiş məscidin üslubu onu təəccübləndirsə(də) _____.

14. Dialoqu oxuyun və təhsil aldığınız tədris dilinə tərcümə edin. Hotel işçisinə məxsus cümlələrdə orfoqrafik səhvləri düzəldin.

– Salam.
– Salam. Xoş gəlmisiz.
– Biz sizin hotelinizdə otaq sifariş etmək istərdik.
– Əlbətdə, buyurun. Neçə gün şəhərmizdə qonaq olacağsız?
– Yəqin ki, ən azı, bir həftə burada qalacağıq.
– Çox gözəl. Otaxlarımız çox rahat, geniş və işıqlıdır. Siz hansı otağa üstünlük verirsiz? Dəniz mənzərəli, yoxsa şəhərə görüntülü olan otaqlara?

– Çox istərdik ki, pəncərələri dənizə baxan otaq olsun.

– Onda sizi otağınıza qədər müşayət etsinlər. III mərtəbə 315-ci otaq. Lift sol tərəfdədir.

– Təşəkkür edirik. Otaq bizim xoşumuza gəldi; çox geniş və rahatdır, hər yer tərtəmizdir. Pəncərədən görünüş isə həddən artıq gözəldir.

– Sizi qane etdiyimiz üçün çox məmnunam. Hoş istirahətlər. Səhər yeməyi saat 7^{00}-dan 11^{00}-a qədərdir. Restoran ən üst qatda yerləşir. Oradan da bütün şəhərə gözəl bir mənzərə açılır.

– Bizi şəhərin görməli və gəzməli yerləri ilə tanış etmək üçün bələdçi də istərdik.

– Böyük məmnuniyyətlə, bu xidmət növünü təklif edə biləcək bir əməkdaşımızla tanış edərik.

15. Mətnləri oxuyun. Hər iki şəxsin: yazıçı və aparıcının yazısına münasibət bildirin.

1897-ci ildə rus yazıçısı M.Qorki 2-ci dəfə Bakıda olmuş, şəhərin xeyli dəyişməsi yazıçını heyran etmişdir:

"...Gecələr mən Botanika bağının salınacağı yüksəklikdən Bakıya, onun sayrışan işıqların ziyasına qərq olmuş gözəlliyinə tamaşa etməkdən doymurdum. Mən bugecəki gözəl mənzərəni Bomer dağından suların əks etdirdiyi rəngarəng işıqlara bürünmüş Neapola baxarkən görmüşdüm. Xəzərin güzgüsündə əks olunan sahil işıqlarının büründüyü Bakı gecələri daha işıqlı, daha cazibədardır".

"Mən Bakıdan Moskvaya qayıdarkən maşında ağladım". KİV-in verdiyi məlumata görə, bu sözləri Rusiya mətbuatına verdiyi müsahibədə Rusiyanın məşhur aparıcısı Andrey Malaxov demişdir.

"İki il əvvəl, 2014-cü ildə Bakıya ezamiyyətə getmişdim. Şəhərin qısa müddət ərzində fantastik dərəcədə dəyişdiyinin şahidi oldum. Bakı qısa vaxtda olduqca müasir, gözəl, tamamilə fərqli bir şəhərə çevrilmişdir. Əvvəlki illərlə müqayisədə yaxşı mənada şəhər tanınmaz dərəcədə dəyişmişdir. Budur, mən Bakıdan – günəşin, ağ mərmərin, işıqlandırılmış gözəl küçələrin, təmizliyin və sairənin olduğu şəhərdən Moskvaya qayıdıram".

✓ *"Bakı XX və XXI əsrdə" mövzusunda söhbət aparın.*

16. Təsəvvür edin ki, çoxdan Azərbaycanda olmayan və yaxud xaricdə yaşayan yaxın bir dostunuz sizə qonaq gəlir. Onu yaşadığınız ərazinin, şəhərinizin hansı mədəni yerləri ilə tanış edərdiniz? Bu yerləri dəqiqləşdirin. Qonağınıza təklif etmək üçün hansı cümlələrdən istifadə edərdiniz?

17. Yaşadığınız ərazidə hər hansı bir abidə, onun memarı, yaranma tarixi haqqında məlumat toplayıb kiçik mətn tərtib edin.

OSMANLI DÖVLƏTİNİN İLK BAŞ MEMARI: TƏBRİZLİ MEMAR ƏLİ

XV–XVI əsrlərdə güclənən Azərbaycan-Osmanlı münasibətlərində bütün istiqamətlərdə olduğu kimi, mədəni əlaqələrdə də inkişaf özünü göstərir. Bu mədəni əlaqələrin möhkəmlənməsində adlı-sanlı azərbaycanlı şəxslərin: elm adamlarının, şairlərin, sənətkarların, memarların böyük xidmətləri olub. Bu şəxslərdən biri də Təbrizli Memar Əlidir.

Əsl adı Ələddin Əbdülkərim olan Memar Əlinin doğulduğu tarix dəqiq bilinməsə də, tarixi mənbələrdə onun Təbrizdə doğulduğu, təhsilini də bu şəhərdə aldığı göstərilir. Sultan Səlim Çaldıran döyüşündən sonra təxminən 8 gün Təbrizdə qalmışdı. Bu səfərdən qayıdarkən bir çox azərbaycanlı alim və sənətkarları özü ilə birlikdə Osmanlı dövlətinə aparmışdı. Xüsusi istedadına və bacarığına görə Memar Əliyə Sultan Səlim tərəfindən Osmanlı dövlətinin ilk baş memarı kimi önəmli bir vəzifə verilmiş, o, təxminən 23 ilə qədər baş memar kimi fəaliyyət göstərmişdir.

Memar Əli ilk dəfə olaraq klassik osmanlı memarlığı ilə İran üslubunu birləşdirərək, “toplu plan” adlandırılan memarlıq üslubunun əsasını qoyub. Bu üsulun özəlliyi ondan ibarətdir ki, binanın böyüklüyü və tarazlığına görə sütun və ya dayaq hörgüləri olmadan geniş salonlu binaların inşa edilməsi mümkün olub. Məhz bundan sonra klassik osmanlı memarlıq əsərlərindən fərqlənən əzəmətli saraylar, çoxminarəli məscidlər və mədrəsə komplekslərinin tikilməsi gerçəkləşib və geniş yayılıb. Memar Əlinin ilk dəfə tətbiq etdiyi bu üsul daha sonralar məşhur osmanlı arxitektoru Memar Sinan tərəfindən inkişaf etdirilərək tətbiq edilib. Lakin bir çox tədqiqatçılar bu ardıcıllığı qarışdıraraq “toplu plan” memarlıq üslubunun ilk dəfə Memar Sinan tərəfindən istifadə olunduğunu deyirlər. Onlar Memar Əlinin inşa etdirdiyi bir çox abidə-

1. Lüğət üzərində iş aparmaq üçün suallar tərtib edin.

ləri səhvən Memar Sinana aid etmişlər. Buna görə də, əslində, Memar Əli tərəfindən inşa edilən Gəbzə şəhərindəki Çoban Mustafa Paşa məscidi, İstanbulun Sultan Əhməd məscidi səmtindəki İbrahim Paşa sarayı Memar Sinanın əsərləri kimi tanınır. Halbuki Memar Sinan, sadəcə, bu binaları öz dövründə təmir edib.

Üslub və memarlıq xüsusiyyətlərinə görə Memar Əliyə aid edilən, lakin kitabəsi ("tarixi lövhə"si) olmayan Topqapı Sarayında Babüs-Salamlıq bölməsi, İstanbulda Sultan Səlim məscidi və öz vəsaiti ilə ərsəyə gətirdiyi Memar Əcəm kamil sənət nümunələridir.

Hərçənd ki onun ölüm tarixi ilə bağlı mənbələrdə açıq məlumat verilmir, ancaq öz vəsaiti hesabına tikdirdiyi Memar Əcəm məscidinin 20 mart 1537-ci il tarixli sənədindən onun hələ həyatda olduğu anlaşılır. Bu tarixdən sonra haqqında heç bir bilgi verilməməsi və 1538-ci ildə Memar Sinanın Osmanlı dövlətində baş memar olaraq işə başlaması belə bir qənaətə gəlməyə əsas verir ki, Memar Əli 1538-ci ildə vəfat edib.

Bilal Dədəyev

2. Hansı fikir mətnə aid deyil?

a) Memar Əli Çaldıran döyüşü zamanı Sultan Səlimə əsir düşmüşdür.
b) Memar Əlinin yaratdığı "toplu plan" üslubu Memar Sinan tərəfindən inkişaf etdirilib.
c) Memar Əli təxminən XVI əsrin sonlarında anadan olmuş və ömrünün son illərini Osmanlı imperiyasının ərazisində yaşamışdır.
d) Memar Əlinin fitri istedadı onu Osmanlı imperiyasının baş memarı kimi yüksəltmişdir.

3. Mətndən hansı nəticəyə gəlmək olur?

a) Çaldıran döyüşündən sonra Memar Əli bir müddət Təbrizdə qalmışdır.
b) Sütunsuz və dayaq hörgüləri olmadan geniş salonların tikilməsi üslubu Memar Əlinin adı ilə bağlıdır.
c) Memar Sinan Memar Əlinin davamçısı olmuşdur.
d) Memar Sinan bir çox memarlıq sirlərini Memar Əlidən öyrənmişdir.

4. Cümlələrdə durğu işarələrini bərpa edin.

1) Bu adətdir adam həmişə qürbətdə vətən həsrəti çəkir. 2) Bu dünyanı dilimiz vasitəsilə öyrəndik dilimiz vasitəsilə tərbiyə tapdıq (*A.Səhhət*). 3) Bir aydan çox idi ki səfər davam edirdi (*Ə.Cəfərzadə*). 4) Turqut Dədə dedi ki xəyanət olan yerdə birlik olmaz (*Ə.Cəfərzadə*).

5. Mətndə altından xətt çəkilmiş tabeli mürəkkəb cümlələr hansı vasitələrlə bağlanıb?

Tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlələr müxtəlif vasitələrlə bağlanır. Tərkib hissələr daha çox intonasiya və tabelilik bağlayıcıları ilə əlaqələnir.

Məsələn:

1) İntonasiya ilə

baş cümlə — **budaq cümlə**

- Bilin, ← sürüdən ayrılan qoyunu qurd yeyər. (*Ə.Cəfərzadə*)
- Adətdir, bir iş görəndə elin ağsaqqalına müraciət edərlər. (*Ə.Cəfərzadə*)

2) Tabelilik bağlayıcıları ilə

baş cümlə — **budaq cümlə**

- Mən onu çoxdan görmürdüm, ← ona görə ki daha Bakıda yaşamırdı.
- Ölüm var ki, həyat qədər dəyərli,
  Həyat var ki, ölümdən də zəhərli.

6. Uyğunluğu müəyyənləşdirin. Durğu işarələrini bərpa edin.

Ağıllı o adamdır ki	özünü həddindən artıq ağıllı saymayasan. (*A.Morua*)
Kifayət qədər ağıllı olmalısan ki	ürəyi hamı üçün döyünür. (*R.Rollan*)
Həqiqi dahi o adamdır ki	çünki xoşbəxtliyi artırar. (*V.Şekspir*)
Əsl dost misilsiz xəzinədir	başqalarının müdrikliyindən və təcrübəsindən öyrənir. (*F.Manuil*)

7. Atalar sözlərinin əslini bərpa edin.

Biləyi güclü minini yıxar, biliyi güclü birini.
Ağıl köhnəlməyən mədəndir, bilik tükənməyən geyim.
Meyvəsiz adam elmsiz ağac kimidir.

8. Sxemlərə uyğun mürəkkəb cümlələr düzəldin.

Budaq cümlə	+ **sa,** +	baş cümlə
Baş cümlə	+ **ki,** +	?
?	+ **,** +	baş cümlə
?	+ **,** +	?

9. Mətni oxuyun və aşağıdakı tapşırıqları yerinə yetirin.

Şahzadə bir çoban qızına aşiq olur. Qız gələn elçilərdən şahzadənin nə sənətin sahibi olduğunu soruşur. Elçilər şahzadəyə sənət lazım olmadığını, atasından sonra böyük bir ölkəni idarə edəcəyini söyləyirlər. Lakin qız şahzadənin bir sənəti yaxşı öyrənməyincə ona ərə getməyəcəyini qəti olaraq bildirir.

Şahzadə çarəsiz qalıb bir sənət əldə etməyə məcbur olur. Ölkənin ən mahir xalçaçılarını çağırıb incə, zərif naxışlı xalçalar toxumağı öyrənməyə başlayır.

Bir-iki il keçir, şahzadə mahir bir xalça ustası olur. Gözəl xalça toxuyub onun naxışları arasında rəmzlə çoban qızının gözəlliyini əks etdirir. Xalçanı qıza göndərir. Qız xalçanı çox bəyənir və şahzadəyə ərə getməyə razılıq verir. Onlar evlənirlər.

Bu hadisədən bir neçə il də keçir. Şahzadə səfərə çıxır. Yolda quldurlar onu tuturlar. Onu öldürmək istəyənlərə gözəl xalça toxuduğunu söyləyir. Quldurlar onun zəhmətindən fayda götürməyi qərara alır, şahzadəni sağ saxlayıb ona xalça toxutdururlar. Şahzadə toxuduğu xalçaların naxışları arasında rəmzlə harada və kimlərin əlində əsir olduğunu yazır. Təsadüfən bu xalçalardan birini gətirib şah sarayına satarkən şahzadənin arvadı naxışların arasındakı "yazıları" oxuyub əhvalatı başa düşür. Xalçanı satanı tutub onun vasitəsilə şahzadənin yerini öyrənir və onu xilas edirlər.

9.1. Verilənlərdən hansı mətnə ad kimi seçilə bilər? Siz hansını təklif edirsiniz?

A) Sənət şahzadəni ölümdən qurtardı.
B) İş ustasından qorxar.
C) _____

9.2. Sizcə, nə üçün qız asan yol seçmədi?

9.3. Qız şahzadəyə ərə getməyə razılıq verir:

- Gözəl xalça toxuduğu üçün
- Sənət sahibi olduğu üçün

9.4. Şahzadə ilə Memar Əlinin oxşar talelərini müqayisə edin.



✓ *Bu nəticəyə gəlmək olur ki, ...* (Qutucuqları birləşdirməklə cümləni oxuya bilərsiniz.)



9.5. Mətndə (səh. 109) çərçivəyə alınmış cümlələri tabeli mürəkkəb cümləyə çevirin və düzgün intonasiya ilə oxuyun. Daha hansı cümlələri tabeli mürəkkəb cümləyə çevirmək olar?

Sözlərin əlifba sırasına görə ardıcıllığını bərpa edin, onların leksik və qrammatik mənalarını izah edin.

- rekonstruksiya
- təcəssüm etdirmək
- çoxlu
- vəsait

Kim bilir, neçədir dünyanın yaşı,
Tarixin nə qədər yazısı vardır.
Hər saxsı parçası, hər məzar daşı
Nəsildən nəsilə bir yadigardır.

Səməd Vurğun

FİT QALASI

(*ixtisarla*)

Azərbaycanı qarış-qarış gəzsən, hər bucağında tariximizin yadigarı olan qəhrəman qalalara, onların qalıqlarına rast gələ bilərsən: Ağcaqala, Bakı qalası, Girdiman qalası, Gülüstan qalası, Fit qalası...

Fit dağı mühüm hərbi strateji əhəmiyyətə malik olmuşdur. Yamacları, əsasən, meşəlikdən, bir sıra yerlərdə isə sıldırım qayalıqlardan ibarət olan dağın ən yüksək zirvəsində inşa olunan Fit qalası Şamaxı şəhərindən təxminən 35 km məsafədə yerləşir.

Divarların müəyyən hissəsi uçduğundan tam olaraq qala divarlarının hündürlüyünü müəyyən etmək mümkün deyil. Lakin mənbələrdə divarların hündürlüyünün təxminən 5 metrə çatdığı göstərilir.

Fit dağındakı "Qanlı qaya" adlanan ərazidə Şirvan hakimi Mustafa xanın 1791–1792-ci illərdə tikdirdiyi qalanın divarları qalmaqdadır. Mənbələrdə verilən məlumata görə, 1795-ci ildə Ağa Məhəmməd şah Qacarın bölgəyə hücumu zamanı Mustafa xan Fit qalasına çəkilir və sonadək orada müdafiə olunur. Ağa Məhəmməd şah Qacarın orduları hücuma keçsə də, qalanın alınmaz olduğunu görüb geri çəkilirlər. Sonradan Mustafa xan Qala ətrafında üç arşın enində divar tikdirir. Fit qalası XIX əsrdə Çar Rusiyasının işğalçılıq müharibəsinə də mətanətlə sinə gərmişdir.

XIX yüzilliyin ilk illərində Çar Rusiyasının Azərbaycan torpaqlarını işğal etməsi bölgədə yeni müharibə ocaqlarının yaranmasına səbəb olur. Bu dövrdə Şamaxı xanlığının da müstəqilliyi real təhlükə qarşısında qalır. Mustafa xan ilk dövrlərdə Rusiyanın tələblərinə məhəl qoymur. Lakin qüvvələrin qeyri-bərabərliyi və Azərbaycan xanlıqlarının bir cəbhədə birləşməməsi Şamaxı xanlığının da vəziyyətini olduqca çətinləşdirir.

Fit qalasını özünə sığınacaq seçən Mustafa xan Çar Rusiyasına tabe olmaq istəmir. Bu dövrdə general Sisianov qalanı zəbt etməyin qeyri-mümkün olduğunu öyrənir və Şamaxı xanlığını tabe etmək üçün Mustafa xanla danışıqlara getməyə razı olur. Sisianov Mustafa xanı Kürəkçay sahilindəki öz hərbi qərargahına dəvət edir. Lakin Mustafa xan Fit qalasını tərk etməyəcəyini bildirir. Çünki o, Sisianovun hiyləgərcəsinə plan hazırladığını anlamışdı. Bir müddət sonra müqavilə mətni ilə yaxından tanış olan Mustafa xan Şirvan əhalisinin təzminat ödəməyəcəyini bildirir və sülh müqa-

Sizcə, Sisianovun planı nədən ibarət idi?

viləsindən bu maddənin çıxarılmasını tələb edir. Lakin Sisianov bunun müqabilində Şamaxı xanlığının illik bac vergisini 7 min çervon məbləğində müəyyənləşdirir və Fit dağı yaxınlığındakı Çərtmə dağının ətəyində görüş keçirilir. 1805-ci il dekabrın 27-də Mustafa xanla Sisianov arasında 11 maddəlik müqavilə imzalanır və Şamaxı xanlığı Rusiyadan asılılığı qəbul edir.

Mahir Qəribov,

"Füyuzat" jurnalından, 2010-cu il

1. *Saziş, müqavilə* sözlərinin leksik mənalarını müəyyənləşdirin.
2. *Maddə* sözünü cümlədə işlətməklə mənalarını fərqləndirin.
3. *Müstəqillik, azadlıq, sərbəstlik* sözlərini uyğun cümlələrə artırın.
   - Evdə Gültəkinə tam … verilmişdi.
   - ... verilmir, alınır.
   - Hər ölkəyə … əldə etmək nəsib olmur.
4. Uyğunluğun düzgün olub-olmadığını müəyyənləşdirin.

Qala	zəbt etmək
Torpaq	işğal etmək
Şəhər	talamaq

5. *Çervon* və *arşın* sözlərinin müasir qarşılığını və uyğun gəldiyi vahidi tapın.

6. Nə üçün Şamaxı xanlığı Rusiyanın asılılığını qəbul edir?
7. Mətndən əsas faktları seçin.
8. Fərqləndirilmiş hissə əsasında dialoq tərtib edin. Dialoq Sisianov və Mustafa xanın dilindən olmalıdır. Durğu işarələrinin düzgün işlənməsinə diqqət yetirin. Bu zaman etiketlərdən düzgün istifadə edin.
9. Mətnin əvvəlində verilmiş epiqrafı oxuyun və mətnin hansı hissəsi ilə daha çox əlaqələndiyini deyin.

10. Müzakirə aparın.

Qalalar bədnam hadisələrin şahididir.

Qalalar qürur yerimiz, qəhrəmanlıqla dolu tariximizin şahididir.

11. Epiqraf kimi verilmiş şeir parçasında (səh. 111) altından xətt çəkilmiş misradakı cümlənin tərkib hissələri hansı vasitə ilə bağlanmışdır?

12. Bəs mətndə altından xətt çəkilmiş cümlələrin tərkib hissələri hansı vasitə ilə bağlanmışdır?

Tabeli mürəkkəb cümlənin tərkib hissələri *-sa*^{2} şərt şəklinin şəkilçisi ilə bağlanır. *-sa*^{2} şəkilçisindən sonra vergül işarəsi qoyulur.

Məsələn:

- Od olmasa, tüstü çıxmaz.

(*Atalar sözü*)

- Dostunuz varsa, demək, hər şeyiniz var.

(*K.Lessinq*)

Tabeli mürəkkəb cümlənin tərkib hissələri *-sa*^{2} şərt şəklinin şəkilçisi və *da*^{2} ədatı ilə də bağlanır. Vergül işarəsi *da*^{2} ədatından sonra qoyulur.

Məsələn:

- Memar Əlinin doğulduğu tarix dəqiq bilinməsə də, tarixi mənbələrdə onun Təbrizdə doğulduğu, təhsilini də bu şəhərdə aldığı göstərilir.

Belə cümlələrdə budaq cümlə əvvəl, baş cümlə sonra gəlir.

13. Sxemlərə uyğun mürəkkəb cümlələr düzəldin və intonasiyaya fikir verin.

Budaq cümlə	+ **sa,** +	baş cümlə
Baş cümlə	+ **ki,** +	?
?	+ **sa da,** +	baş cümlə
?	+ **,** +	?

14. Cümlələrə şəkilçilər artırıb yazın.

Əgər oxusam, dərsə yaxşı cavab verər... .
Evdə qalsa, sənə kömək ed... .
Nə vaxt istəsə... , gələr... .
Necə görsə... , elə də deyər... .

15. Mətndəki mürəkkəb cümlələri müəyyənləşdirin. Altından xətt çəkilmiş cümlələri mürəkkəb cümləyə çevirin.

Çıraqqala Şabran rayonunun təqribən 20-25 kilometrliyində Çaraqqaya adlanan sıldırım qayanın zirvəsində 1232 metr hündürlükdə qərar tutub. Neçə yüz ildir, qala zamanın tufanlarına mətanətlə sinə gərərək ulularımızın şanlı tarixini bu günümüzə qədər yaşatmaqdadır.

Alimlərin dediyinə görə, Çıraqqala Sasani hökmdarları tərəfindən IV–VI əsrlərdə tikilmişdir. Gilgilçay səddinin baş qarovulxanası (*сторожевой пункт*) olmuş bu qaladan geniş bir ərazini nəzarət altında saxlamaq mümkün olmuşdur. Düşmənin gəlişini görən qaladakılar tonqallar vasitəsilə ətrafa xəbər vermiş, hamını köməyə çağırmışlar.

Yerli əhali həmişə qalanı "Çaraqqala" adlandırmasına baxmayaraq, buranın orta əsrlərdən qala-şəhər olmasını göstərmişdir. Qalanın bir neçə kilometrliyindəki kəndin Çaraq adlanması da bu faktı təsdiqləyir. Məlumdur ki, bu qalanın Sasanilər tərəfindən təyin edilmiş ilk hakiminin adı Çara olmuşdur. Deməli, bu qalanın əhali tərəfindən "Çara yaşayan qala" adlanması daha inandırıcıdır. Sonralar Çara qala "Çaraqqala" şəklində işlənmişdir. Hərçənd ki bu günə qədər tarixçi alimlər arasında bu barədə vahid rəy yoxdur, amma biz A.A.Bakıxanovun yazdığına uyğun olaraq qalanı "Çıraqqala" adlandırırıq.

Ümummilli lider Heydər Əliyevin 23 iyun 2003-cü il tarixli sərəncamı ilə Çıraqqala tarixi abidə kompleksi qoruq elan edilmiş, onun qorunması və bərpası üçün əlaqədar təşkilatlara mühüm tapşırıqlar verilmişdir.

✓ *Fit qalası ilə Çıraqqala arasında hansı oxşarlığı gördünüz?*

16. Fit qalasının yerləşdiyi bölgəyə yaxın yerdə yaşayan şagirdlərin nəzərinə! ☺

1) Həmin ərazinin rəngli fotolarını çəkin.
2) Videoçarx da hazırlaya bilərsiniz.
3) Fit qalası haqqında ətraflı məlumat toplayıb təqdimat hazırlayın.
4) Təqdimatınızdakı sözlərin düzgün yazılışına, cümlələrin düzgün qurulmasına, durğu işarələrindən yerində istifadəyə fikir verin.
5) Hazırladığınız materialları sosial şəbəkələrdə yerləşdirin.

Azərbaycanın müxtəlif bölgələrindəki şagirdlər də yaşadıqları ərazidə tarixin bizə yadigar qoyduğu qalalar, abidələr, tikililər haqqında təqdimat hazırlayıb həmyaşıdları ilə paylaşsa, yaxşı olar.

Təqdimatlarınızın məzmunlu və dolğun olmasına çalışın.

Əziz şagirdlər, unutmayın ki, yazdığınız hər cümlə, dediyiniz hər söz sizin haqqınızda dolğun təsəvvür yaradır. Ona görə də təqdimatınızda və təqdiminizdə diqqətli olun!

TSİN Şİ XUANDİNİN MƏQBƏRƏSİ

Bu maraqlı hadisə 1974-cü ilin martında Çinin Sian şəhərindən 40 km məsafədə yerləşən Şensi əyalətində baş vermişdir. İnsanlar əmələ gəlmiş yarğana baxanda gözlərinə inanmadılar. Torpaqdan camaatın üzünə gildən hazırlanmış orta yaşlı bir kişi baxırdı. Onun arxadan hörülmüş uzun saçları vardı. Əynindəki geyim qədim (*köhnə*) Çin əsgərlərinin geyiminə oxşayırdı. Əhali dərhal bu barədə yerli arxeoloqlara xəbər verdi. Tezliklə bu ərazidə geniş miqyaslı qazıntı işləri başlandı.

(1) Torpaqdan orta yaşlı qədim Çin əsgərinin gil fiquru çıxdı. (2) O, əlində bürünc uclu nizə tutmuşdu. İlk vaxtlar heç bir alim bu tapıntını yaxınlıqda olan təpə ilə əlaqələndirmirdi. (3) Amma alimlər bilirdilər ki, haradasa bu təpənin altında məşhur Çin imperatoru Tsin Şi Xuandinin məqbərəsi yerləşir. (4) Əldə olan məlumatlara görə, məqbərənin özü dağıdılmışdır. (5) Ona görə də alimlər buna elə də əhəmiyyət vermirdilər. (6) Bunun nəticəsində bütün dünya (*cahan*) yeni tapıntıdan xəbər tutdu. (7) Axtarışlar zamanı təpədən şərqə doğru çoxlu sayda gil əsgər tapıldı. İlk baxışdan bu, böyük (*iri*) orduya bənzəyirdi (*oxşayırdı*). Bu günə qədər arxeoloqlar 6 min gil əsgər tapıblar. Burada 4 cərgə süvari əsgər ordusu, döyüş arabaları var idi. Hər bir ordu növü cərgə halında yığılmışdır. Hər bir əsgər, araba, at çox təbii görünürdü. Onların

1. Hansı sözləri mötərizədə verilmiş sözlərlə əvəz etsək, uyğunsuzluq yaranar? Mətndə çərçivəyə alınmış sözlərin məna fərqini izah edin.
2. Hansılar mətn üçün açar sözlər ola bilər?
   gil əsgər, məqbərə, imperator, ənənə, mühafizə, ordu, arxeoloq, ağıl
   Siz hansı sözləri təklif edirsiniz?
3. *İmperator, hökmdar, şah, çar* sözlərinin leksik mənalarını fərqləndirin.

əllərində olan oxlar, qılınclar, nizələr isə əsl silahlar idi. Ən maraqlısı isə bu idi ki, tapılmış heykəllər, onların silahları zamanın təsirinə məruz qalmamışdı.

Tədqiqatlar zamanı aşkar edildi ki, tapılmış hər bir heykəlin ölçüsü real adamdan götürülüb. Əlbəttə, inandırıcı deyildi ki, Çin heykəltəraşları bir yerə 6 min nəfər adam (*insan*) yığıb, onların hər birindən ölçü götürmüşlər. Görünür, heykəltəraşlar işlərini öz yaddaşları əsasında görüblər. Əsgərlərin üzlərinə diqqətlə baxdıqda hamısında eyni üz cizgilərinin olduğu görünürdü. Tədqiqatlar (*axtarışlar*) davam etdikcə məlum oldu ki, "ordu" e.ə. III əsrə aiddir. Onların əsas məqsədi imperator Tsin Şi Xuandinin məqbərəsini qorumaq olmuşdur. Bəs niyə imperator özü üçün bu boyda gil ordu hazırlamışdır? Eyni zamanda niyə o, gil ordunu yerə basdırmışdır? Bu suallara cavab tapmaq üçün Qədim Çin tarixinə nəzər salmaq lazımdır.

Tsin Şi Xuandi parçalanmış imperatorluqlarından birinin imperatoru oldu. Uzun müddət davam edən müharibələrdən sonra o bütün ölkəni öz hakimiyyəti altında birləşdirdi. E.ə. 221-ci ildə özünü Çinin birinci imperatoru elan etdi. Bütün ölkəni ələ keçirəndən sonra imperator islahatlara başladı. Onun ən böyük layihəsi Böyük Çin səddi idi. Ona qədər və ondan sonra da belə böyük tikinti olmamışdır.

Tsin Şi Xuandi öz ölümsüzlüyünə inanırdı. Təbii ki, imperator Tsin Şi Xuandi sonsuza qədər hökmranlıq edə bilməzdi. Hər bir insan kimi vaxtı çatdımı, o da vəfat edəcəkdi. Ona görə də ömrünün sonlarına doğru o özü üçün möhtəşəm məqbərə tikilməsinə əmr verir. İmperator vəfat edərkən onu tikdirdiyi məqbərədə dəfn edirlər. İmperatorun əmrinə əsasən, onunla birlikdə bütün arvadları, qulluqçu və nökərləri, məqbərəsini tikən bütün şəxslər də diri-diri basdırılır.

Sizcə, bunu etməkdə imperatorun məqsədi nə idi?

Qədim Çin adət-ənənəsinə görə, imperatorun ordusu da basdırılmalı (*dəfn olunmalı*) idi. Ancaq Tsin Şi Xuandinin yerinə hakimiyyətə gələn oğlu əmrə tabe olmur, böyük bir ordunu diri-diri basdırmağa razılıq vermir. Bunun əvəzinə o, simvolik bir ordunu qurban verməyi əmr edir (*qərara alır*). Əmrə görə, bütün ordu gildən heykəllər şəklində hazırlanmalı və onun atasının məqbərəsinin yaxınlığında basdırılmalı idi. Alimlərin tapdığı gil fiqurlar həmin "qurban verilmiş" ordu idi.

4. "*Ancaq gil əsgər arxeoloqları çox maraqlandırırdı, elə buna görə də qazıntıları davam etdirmək qərara alındı*" cümləsi hansı rəqəmin yerinə yazılsa, mətnin məzmununa xələl gəlməz?

5. Tsin Şi Xuandinin məqbərəsini kim üzə çıxarır?

6. Cavan imperatorun hərəkətinə münasibət bildirin. Niyə digər şəxslərin ölümünə razı olsa da, ordunun məhvinə yol vermir?

7. Oğulu atasına xəyanət etməkdə günahlandırmaq olarmı? Niyə?

8. Aşağıdakı xüsusiyyətlər mətnin hansı hissəsinə uyğundur?

- diqqət _____
- maraqlı fakt _____
- birlik _____
- uzaqgörənlik _____
- ağıllılıq _____
- adət-ənənəyə sadiqlik – imperatorla birlikdə bütün arvadları, qulluqçu və nökərləri, məqbərəsini tikən bütün şəxslər də diri-diri basdırılmalı idi.

9. Mətndə altından xətt çəkilmiş tabeli mürəkkəb cümlənin hansı vasitə ilə bağlandığını göstərin. Cümlələri düzgün intonasiya ilə oxuyun.

Tabeli mürəkkəb cümlənin tərkib hissələri *-mı*[4] sual ədatı ilə bağlanır. *-mı*[4] sual ədatından sonra vergül işarəsi qoyulur.

Məsələn:

- Qocalıq gəldimi, axtar bir bucaq.
(*N.Gəncəvi*)
- Bir az yağış yağdımı, küçədə palçıq əlindən tərpənmək olmurdu.
(*C.Cabbarlı*)

Tabeli mürəkkəb cümlənin tərkib hissələri bağlayıcı sözlərlə də bağlanır. Bağlayıcı sözlər sual əvəzlikləri ilə ifadə olunur.

Məsələn:

Bağlayıcı sözlər

Kim insanları pis hesab edirsə, onun öz ürəyi təmiz deyil.
(*H.Mehdi*)

Nə qədər bacarırsan, bir o qədər yaz.

Belə cümlələrdə budaq cümlə əvvəl, baş cümlə sonra gəlir.

10. Mətni oxuyun, məzmununu “Tsin Şi Xuandinin məqbərəsi” mətninin məzmunu ilə müqayisə edin. Hansı nəticəyə gəldiniz?

1217–1227-ci illər ərzində Çingiz xan bəşər tarixində ən möhtəşəm imperiya yaratmışdır. Onun sərəncamında Çində, Hindistanda və Qədim Rusiyada ələ keçirilmiş saysız-hesabsız var-dövlət var idi. Tarixçilər indiyə qədər həmin var-dövlətin harada olması barədə baş sındırırlar. Belə ehtimal edirlər ki, onun qəbri bütün əvvəlki tapıntıları, məsələn, Tutanxamonun sərdabəsini kölgədə qoya bilər. Deyilənə görə, böyük fateh onun dəfnində iştirak edən əsgərlərin hamısının öldürülməsini və onunla bir yerdə (*basdırılmasını, dəfn edilməsini*), sonra isə çayın məcrasının dəyişdirilərək onun qəbrinin üstündən axıdılmasını vəsiyyət etmişdir.

✓ *Mötərizədə yazılmış hansı sözdən istifadə etsəniz, məqsədəuyğun olar?*

✓ *Altından xətt çəkilmiş cümlələrə hansı bağlayıcı vasitə artırılsa, mürəkkəb cümlə yaranar və məzmuna xələl gəlməz?*

a) *-sa*^{2} b) *-sa*^{2} *da*^{2} c) *-mı*^{4}

11. Birinci sütundakı cümlələrə münasibət bildirin. Tünd şriftlə verilmiş sözlərin düzgün işlənmədiyini əsaslandırın. İkinci sütunda tire işarəsinin yerinə uyğun gələn sözləri seçib yazın.

1 Müəllimin **bərk** sözləri mənə təsir etdi.	1 Müəllimin _____ sözləri mənə təsir etdi. (kobud, qaba, sərt, möhkəm)
2 Ağıl insan üçün ən **yaraşıqlı** zinətdir. (*Z.Şirvani*)	2 Ağıl insan üçün ən _____ zinətdir. (*Z.Şirvani*) (gözəl, qəşəng, göyçək)
3 **Hündür** insanların ömrü illərlə deyil, onların əməlləri ilə ölçülür.	3 _____ insanların ömrü illərlə deyil, onların əməlləri ilə ölçülür. (uca, yüksək, ali)
4 **İlxıdan** ayrılan qoyunu qurd yeyər.	4 _____ ayrılan qoyunu qurd yeyər. (naxır, sürü)

✓ *Cümləni tamamlayın.*

Fikrin düzgün ifadə edilməsi üçün sözün _____.

12. Cümlələrin tabeli və ya tabesiz mürəkkəb cümlə olduğunu müəyyənləşdirin. Durğu işarələrinin düzgün qoyulduğunu əsaslandırın.

1) Ay keçir, il dolanır, əzizlərini itirmiş bu analar ümidlə yol gözləyirdilər (*H.Seyidbəyli*). 2) Divarı uçurmazdan əvvəl öyrən ki, səni o tərəfdə nə gözləyir (*N.Tusi*). 3) Qonaq uzun müddət menyuya baxdı, sonra o, istədiyi yemək və içkini sifariş etdi (*S.Dağlı*). 4) Elə bil yaxınlaşarsa, bunun həqiqət deyil, xəyal olacağından qorxurdu (*H.Seyidbəyli*). 5) Vətəni ona görə sevmirlər ki, o, böyükdür. Ona görə sevirlər ki, o, özününkündür.

13. Doğru və yanlış fikirləri müəyyənləşdirin.

Tabesiz mürəkkəb cümlələrdən fərqli olaraq, tabeli mürəkkəb cümlələrdə əsas və asılı cümlələr olur.	yanlış
-sa^2 şərt şəklinin şəkilçisi ilə əlaqələnən cümlələrdə baş cümlə əvvəl gəlir.	doğru
Ona görə ki, çünki tabelilik bağlayıcılarının işləndiyi cümlələrdə vergül işarəsi bağlayıcılardan sonra qoyulur.	doğru
Tabeli mürəkkəb cümlələrin tərkib hissələri müxtəlif vasitələrlə bağlanır.	doğru
Bağlayıcı sözlər işarə əvəzlikləri ilə ifadə olunur.	yanlış

A)

B)

C) 

D)

E)

BÜLLUR PİRAMİDA

1. Maraqlıdır ki, əsrlər, qərinələr **ötdükcə,** insanların zövqü, dünyagörüşü dəyişdikcə gözəllik meyarları da dəyişdi. Elmin, texnikanın inkişafı ilə *həmahəng* yeni **inşaat** materialları və konstruksiyaları yarandıqca memarların *təxəyyülü* üçün geniş imkanlar açıldı və onlar daha ənənəvi, arxaik görünüşlü piramidaya "bir yığın daş" kimi baxmaq istəmirdilər. Nəticədə Misir piramidası "yavaş-yavaş yana yıxıldı" və nəhayət, zirvəsi üstə qərar tutdu. Bəli, bəli, çevrilmiş piramida zirvəsi üstə dayandı, özü də daşdan yox, müasir materialdan, içərisi də bomboş!..

2. Hələ eramızdan əvvəl qədim Misirdə yaranmış piramidalar ("Dünyanın yeddi möcüzəsi"ndən biri!) 20-30 il ərzində yüz minlərlə qulun ağır əməyi və əzablı ölümü bahasına **ucaldılmışdır.** Hər daşının çəkisi üç-dörd ton olan və hündürlüyü 145 metrə çatan *fironların məzarı* niyə məhz piramida olmalıydı?

Bəlkə, sükunət, *tarazlıq* və əbədilik təəssüratı yaratdığına görə **üstünlük** verilib piramidaya?

Bəlkə, piramida yer *cazibəsi* şəraitində kütləsi ilə ağırlığı düzgün və rasional paylanan ən kamil həndəsi fiqurdur, ona görə?!

1. Tünd şriftlə verilmiş sözlərin əvəzinə onların elə sinonimlərini işlədin ki, cümlənin məzmununa xələl gəlməsin.
2. Fərqləndirilmiş sözlərin leksik mənasını izah edin.
3. Bunlardan hansı *qərinə* sözünün leksik mənası ola bilər:
   - əsrin bir hissəsi
   - 33 illik bir dövr
   - əsr
   - əsrin ¼ hissəsi

Tarixən daş konstruksiyalı imarətlərin rəmzi piramida olmuşdur.

İlk “çevrilmiş piramida” layihəsini 1954-cü ildə Oskar Nimeyer verdi. Karakas şəhərində (Venesuela) Müasir incəsənət muzeyi zirvəsi üstə yerə sancılmış nəhəng piramida idi. Təbiətən romantik memar olan O.Nimeyer iddia edirdi ki, betondan və şüşədən **qurulmuş** belə piramida sırf memarlıq əsəridir, həm də heykəltəraşlıq əsəri *təəssüratı* bağışlayır. Onun fikrincə, əgər piramidalar sonsuz səmaya doğru açılırsa, bu həm funksional, həm də estetik tələblərə cavab verir.

3. İkinci “üsyankar cəhd” kanadalı memarlara məxsusdur. Monreal şəhərində keçirilən ümumdünya sərgisində Kanadanın pavilyonu da çevrilmiş piramida şəklində qurulmuşdu.

Müasir memarlıqda piramida formasına üçüncü müraciət 1985-ci ildə Paris şəhərində oldu. Fransa Respublikasında “Böyük yenidənqurma” proqramına əsasən, Napoleon meydanında Luvr Muzeyinin yeni giriş – *vestibülü* üçün elan olunan Beynəlxalq müsabiqəyə 200-dən çox müxtəlif səpkili layihə təqdim edilmişdi. Münsiflər heyətinin bəyənib seçdiyi ən parlaq ruhlu layihə beləcə də adlanırdı: “Büllur piramida”.

Salvador Dalinin “Tarixi qabaqlamaq daha maraqlıdır, nəinki sonradan onu vəsf etmək” məşhur kəlamı “Büllur piramida”nın yaranması məqamında yerində deyilmiş ifadədir.

Bu gün piramidalar paytaxtımız üçün də reallığa çevrilmişdir. Metronun “İçərişəhər” və “Koroğlu” stansiyalarının əsas girişi də piramida şəklindədir.

Ömər Qoçulu

“Daşa dönmüş musiqi” kitabından

4. Mətndəki abzasların ardıcıllığını bərpa edin.
5. Mətndən əsas faktları seçin.
6. Memarlıqda piramida şəklində olan tikililərə münasibət bildirin. Əgər memar olsa idiniz, hansı üslubda olan layihələrə üstünlük verərdiniz?

7. Sözlərin ardıcıllığını bərpa edib cümlələri düzgün yazın. Həmin cümlələri təhsil aldığınız tədris dilinə tərcümə edin. Hər iki dildə cümlə üzvlərinin işlənmə yerini müəyyənləşdirib müqayisələr aparın və nəticə çıxarın.

Oskar Nimeyer klassik modernizmin və XX əsrin görkəmli arxitektorlarından biri 104 yaşında vəfat etmişdir. O vəfat etmişdir özünün doğma şəhəri Rio-de Janeyroda, hospitalda. Bu şəhərdə arxitektorluğu o öyrənmiş və müasir görkəmini müəy-

yənləşdirən Rio şəhərinin bir çox obyektlər tikmişdir. “Sambodrom” (karnavalların keçirilməsi üçün küçə) və Müasir İncəsənət Muzeyi bu tikililərə misal ola bilər.

Bundan başqa, Fransada Fransız Kommunist Partiyasının ştab-mərkəzi yerləşən mərkəz, Nyu-Yorkda BMT-nin binası, Braziliyada Hökumət Sarayının, kilsənin və digər inzibati binalar tikilmişdir Nimeyerin layihələri əsasında.

Nümunə:

Oskar Nimeyer klassik modernizmin və XX əsrin görkəmli arxitektorlarından biri 104 yaşında vəfat etmişdir.

Modernizmin klassiki və XX əsrin görkəmli arxitektorlarından biri Oskar Nimeyer 104 yaşında vəfat etmişdir.

Оскар Нимейер, классик модернизма и один из главных архитекторов XX века, умер в возрасте 104 лет.

✓ *Bu qənaətə gəldim ki, müxtəlif dillərdə söz sırası* _____.

Çünki _____.

Deməli, _____.

8. Verilmiş sxemlərə əsasən cümlələr qurun.



✓ *Özünüz də belə nümunələr yaradın.*

9. Frazeoloji birləşmələri təhsil aldığınız tədris dilinə çevirin. Həmin birləşmələri hər iki dildə cümlələrdə işlədin. Nə müşahidə etdiniz?

bağrı yarılmaq	ağlını başından almaq	yoluna qoymaq
başı qarışmaq	qoltuğunun altı şişmək (lovğalanmaq)	kefi kökəlmək

10. Nöqtələrin yerinə buraxılmış hərfləri əlavə edin.

Şər..., yaşı..., isteda..., m...scid, bacarı...lı, təd...iqat, ş...hzadə, məblə..., Çıra...qala, əs...ər, qılın..., tö...siyə, səh..., gör...əm, memarlı..., hərçən..., müqə...dəs, m...sabiqə, fət..., müdafi... .

11. Aşağıdakı mövzulardan birini seçin və yoldaşlarınızla bu barədə dialoq qurun.



✓ *Özünüz sizi maraqlandıran başqa mövzular da təklif edə bilərsiniz.*

12. Bölmə yekunlaşarkən bu qənaətə gəldim ki, ...

- anlaşılmaq
- cazibə
- kompleks
- məmnuniyyətlə
- önəmli
- təsadüfi
- zirvə

Köməkçi nitq hissələrini izahlı lüğətə daxil etmək olarmı? Niyə?

✓ *Hazırladığınız izahlı lüğətin hansı səviyyədə olması haqqında hesabat hazırlayın.*

ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

1. Cümlələri morfoloji cəhətdən təhlil edin.

- Uşaqlıqda öyrənilən elm daşa yazılmış nəqş kimidir. (*Hz.Məhəmməd s.ə.s*)
- Oxuya bilirsənsə, hər insan bir kitabdır. (*B.Ellis*)
- Sənin bir gecəyə oxuduğun kitabı yazmaq üçün mən min illərlə saç ağartdım.
- İki cür oxucu var: birincisi öyrənmək üçün, digəri isə unutmaq üçün oxuyur.
- Ən yaxşı kitab insanı düşünməyə vadar edən kitabdır. (*T.Parker*)
- Oxuduğun barədə düşünməmək yeyib həzm etməməyə oxşayır. (*E.Berk*)

2. *"Bişmiş toyuğun gülməyi gəlir" ifadəsi Ziyaəddin Nəxşəbinin "Tutinamə" əsərində təsvir olunan bir hekayətlə bağlıdır* cümləsində buraxılmış durğu işarələrini bərpa edin.

3. Atalar sözlərini tamamlayın:

I Su axar, ...	a. dəli vurub çay keçər.
II Qonşu qonşu olsa, ...	b. karvan keçər.
III Ağıllı fikirləşincə ...	c. çuxurun tapar.
IV İt hürər, ...	d. keçəl qız ərə gedər.

A) Ia, IIc, IIIb, IVd C) Ic, IIa, IIId, IVb
B) Ic, IId, IIIa, IVb D) Ib, IId, IIIc, IVa E) Id, IIb, IIIa, IVc

4. Mətni oxuyub qarşısına ulduz işarəsi qoyulmuş tapşırıqları yerinə yetirin.

Qahirənin cənubunda, Nil çayına doğru uzanan böyük bir səhranın sahilində sivri təpələriylə göy üzünə doğru yüksələn üç böyük piramida var. Misir ehramları kimi tanınan bu möhtəşəm tikililər min illər əvvəl ölkə hökmdarları üçün məzar olaraq inşa edilmişdir.

Bir vaxtlar Nil çayının sahilində çoxlu piramida olmuşdur. [1] Deyilənə görə, bu piramidalar fironların qeyri-adi gücə malik olduqlarını göstərmək üçün tikilmişdir. [2] İlk ehram firon Coserə məxsusdur. [3] Amma Qahirə yaxınlığındakı üç nəhəng ehram olduğu kimi qalmaqdadır. [4] Onların ən hündürü dünyanın yeddi möcüzəsindən biri sayılan və müasir "göydələn"lərlə müqayisə edilə bilən Xeops ehramıdır. Ümumiyyətlə, bu ehramların tikintisində on tona qədər olan və minlərlə **(a) əsrin** zəhməti ilə Nil çayının qarşı sahilindən gətirilən nəhəng daşlardan **(b) isdifadə** edilmişdir. [5] Düzbucaqlı şəklində kəsilmiş və sərt daşlardan inşa edilmiş piramidaların içərisində keçidlərin apardığı məzar otaqları var. Ən böyük otaqda isə fironun **(c) qəbri** var. Bu qəbirlərə "ehram" deyilir. Misir hökmdarları qızıl, gümüş və başqa qiymətli əşyaları ilə birgə **(d) dəfin** edilərdi. Çünki onlar digər dünyada da həyatlarını davam **(e) etdirəcəylərinə** inanırdılar. Fironun piramidanın mərkəzində olan məzarına çatmaq, demək olar, imkansız idi. Fironla birgə basdırılan qiymətli əşyaların oğurlanmaması üçün məzara gedən yollar labirint kimi düzəldilmişdir. *Xarici görkəminə görə çox sadə görünən bu piramidalar əslində çox mürəkkəb bir quruluşa malikdir.* Bütün bunlarla yanaşı, bu möhtəşəm tikililər hələ də bir sirr olaraq qalır.

* *Bunların bir qismi çoxdan yerlə-yeksan olmuş, bir qismi isə xarabalıqlara çevrilmişdir* cümləsini hansı rəqəmdən sonra yerləşdirmək olar?

A) 1 B) 2 C) 3 D) 4 E) 5

* Mətndə işarələnmiş sözlərdən hansının yazılışı düzgündür?

A) c B) d C) e D) b E) a

* Mətndə altından xətt çəkilmiş cümləni tabesiz mürəkkəb cümləyə çevirin.

_____.

* Mətndə fərqləndirilmiş cümləni tabeli mürəkkəb cümləyə çevirsəniz, hansı bağlayıcı vasitədən istifadə etmək daha düzgün olar?

A) *-mı*^{4} B) *-sa*^{2} C) *-sa*^{2} *da*^{2} D) *ki*

* Mətndə bu barədə məlumat verilmir:

A) Misir piramidaları hansı məqsədlə tikilmişdir?
B) Dünyanın yeddi möcüzəsindən biri hesab olunan piramida kimə məxsusdur?
C) Hansı piramidalar dağıdılıb yerlə-yeksan olmuşdur?
D) Nə üçün piramidaların içi labirint quruluşa malikdir?
E) Nə üçün fironları dəfn edərkən qiymətli əşyaları da onlarla birgə ehrama qoyurdular?

* Sözlərin leksik mənalarını izah edin:

sivri – möhtəşəm – təpə – göydələn –

5. Verilmiş nitq etiketlərini aşağıdakı cədvəl üzrə qruplaşdırın.

təbrik etiketləri	alqış etiketləri	qarğış etiketləri

Mübarəkdir! Ömrünüz uzun olsun! Allah amanında! Qapında ot bitsin! Allah rəhmət eləsin! Gözünüz aydın! Allah vursun! Təbrik edirəm! Möhtərəm hakim! Evin tikilsin! Yuxunuz şirin olsun! Canın yansın! Yeni iliniz mübarək! Sağlığınıza qismət! Cənab hakim!

✓ *Hansıları yerləşdirə bilmədiniz? Nə üçün?*

_____.

6. "Qoşa Qala qapısı" üzərində yerləşən qədim Bakı gerbinin rəmzləri hansılardır? Onlar hansı mənanı ifadə edir?

_____
_____.

MƏNƏVİYYAT CƏMİYYƏTİN TƏMƏLİDİR

❑ “Tərbiyə ana qucağında başlayır. Hər deyilən kəlmə isə uşağın şəxsiyyətini formalaşdıran bir kərpicdir”.

Namiq Kamal
türk yazıçısı

❑ “Mənəvîyyat bizə xoşbəxt olmağı deyil, xoşbəxtliyə necə nail olmağı öyrədir”.

İmmanuil Kant
alman filosofu

- Bölmənin adına münasibət bildirin.
- Əxlaq dedikdə nə başa düşürsünüz?
- Nə üçün əxlaq cəmiyyətin təməli hesab edilir?
- Deyirlər ki, insanı səadətə aparan yol onun əxlaqından keçib gedir. Siz bu fikirlə razısınızmı?
- Fikirlərinizi bölməni yekunlaşdırdıqdan sonra da ümumiləşdirə bilərsiniz.

KONFUTSİNİN ƏXLAQ NƏZƏRİYYƏSİ

əxlaq tərbiyə davranış

Hərtərəfli şəxsiyyət formalaşdırılması işinin mühüm tərkib hissələrindən biri əxlaq tərbiyəsidir. İnsan əxlaq keyfiyyətləri ilə birlikdə hazır şəkildə doğulmur. Onda formalaşan bir çox keyfiyyətlər cəmiyyətin ona göstərdiyi təsirin nəticəsi kimi meydana çıxır. Hər bir cəmiyyətin özünəməxsus əxlaq normaları, davranış qaydaları mövcuddur. Bu qaydalar insanlar arasındakı müxtəlif münasibətləri, əxlaqi dəyərləri özündə birləşdirir. Konfutsi belə hesab edirdi ki, bütün adamlar öz təbiəti etibarilə bir-birilərinə yaxındır. Lakin onlara (*müxtəlif, cürbəcür, rəngarəng*) (*vərdişlər, adət-ənənələr)* xasdır. Bəziləri yaxşı, mehriban və əxlaqlıdır, digərləri pis, yaramaz və qəddardır.

Sizcə, insanlarda cəmiyyətin təsirindən hansı keyfiyyətlər meydana çıxır?

Konfutsi insanın hökmən yiyələnməli olduğu iki cəhəti xüsusi qeyd edirdi: borc və insanpərvərlik.

Nə üçün Konfutsi məhz borc və insanpərvərliyi vacib keyfiyyət hesab edirdi?

Bir dəfə Konfutsi Jan Yu adlı tələbəsi ilə Vey çarlığına gəlir. Konfutsi yetirməsindən soruşur ki, olduqları yerdə nə qədər adam yaşayır? Jan Yu cavab verir ki, buranın əhalisi sürətlə artır. Məlum deyil ki, sonra necə olacaq. *Konfutsi deyir: "Onu zənginləşdirin". "Biz onu zənginləşdirdik, bəs sonra nə etmək lazımdır?", – deyə tələbəsi soruşur. "Onu tərbiyə edin", – deyə Konfutsi cavab verir.*

Konfutsi belə hesab edirdi ki, təlim-tədris prosesində adam daha yaxşı və əxlaqlı olur, çatışmazlıqlarını və düzgün olmayan hərəkətlərini düzəltməyə çalışır. O, xalqın maarif-

1. Mətni oxuyarkən mötərizədəki sözlərdən uyğun olanını seçin.
2. Mətn üçün açar sözlərin düzgün seçilib-seçilmədiyini əsaslandırın.
3. *Dəyər, qiymət, keyfiyyət* sözlərinin yerinə görə sinonim olduğunu nümunələrlə əsaslandırın.
4. *Vərdiş* və *adət-ənənə* sözlərinin məna fərqini müəyyənləşdirin.

lənməsi uğrunda (*mübarizə, müharibə*) aparır və hesab edirdi ki, bununla xalqı onun özünün seçə bilmədiyi düz yolla getməyə vadar etmək olar. O deyirdi ki, insanları idarə etmək öz şəxsi nümunəsi ilə onları ardınca apara bilən az adama müyəssər olan yüksək müdriklikdir.

O, təlim və tərbiyədə ayrı-seçkiliyə qarşı çıxmış və Çində sosial vəziyyətindən asılı olmayaraq, bütün insanların daxil ola biləcəyi ilk xüsusi məktəb yaratmışdır. O deyirmiş ki, "təlimdə insanlar arasında fərq olmamalıdır".

Fikrə münasibət bildirin.

Konfutsi öz məktəbini Lu çarlığının paytaxtı Tsyuyfu (indiki Şandun əyaləti) şəhərində yaratmışdı. Məktəb öz ölçülərinə görə böyük olub, iki binadan ibarət idi; "Tan" adlanan yerdə şagirdlər məşğul olur, "Ney"də yaşayırmışlar. Yaxşı havada məşğələlər həyətdə, Konfutsinin çox sevdiyi ərik ağacının altında keçirilərmiş. Məktəb özünün "Sin tan" ("Ərik mehrabı") adını da buradan almışdır.

Yusif Əliyev

5. Konfutsinin "təlimdə fərq olmamalıdır" fikrinə uyğun mülahizələrə hansı mətndə rast gəlmişdiniz?
6. Borc dedikdə nə nəzərdə tutulur?
7. İnsanpərvərlik anlayışını necə başa düşürsünüz? İnsanpərvərlik dedikdə hansı xüsusiyyətlər nəzərdə tutulur?
8. Zərdüşt və Konfutsinin təhsil və müəllim haqqındakı fikirlərini müqayisə edin.
9. "Özü özünün müəllimi və tərbiyəçisi olan kəs camaata müəllim və tərbiyəçi olan şəxsdən daha təqdirəlayiqdir" fikrinə münasibət bildirin. Sizcə, özünütərbiyə nə deməkdir?
10. Oxuduğunuz mətnə əsasən bölmədə nə haqqında söhbət gedəcəyi barədə fikir yürüdün.
11. *Mətni oxuyub bu nəticəyə gəldim ki, ...*

    Cümləni mətndən əldə etdiyiniz müxtəlif hökmlərlə tamamlayın.
12. Mətnin adına münasibət bildirin. Ad məzmunu tamamlayırmı? Siz mətnə necə ad verərdiniz?

13. Abzaslardakı əsas fikri müəyyənləşdirib 1-2 cümlə ilə ifadə edin. 130-cu səhifədəki sxemdən istifadə edin.



14. Mətni oxuyun. Şəxs sonluqlarını bərpa edib cümlələri köçürün, durğu işarələrini bərpa edib səbəbini izah edin.

İnsanların yeddi vəzifəsi var... . Əgər insan bütün bu vəzifələri yerinə yetirərsə bu halda kamil insan sayılar. Əgər o bunların bir hissəsini yerinə yetirərsə natamam insan sayılar. Əgər o bu yeddi vəzifənin heç birinə əməl etməzsə deməli insan qismindən çıxır və heyvan qismində daxil olur. Birinci vəzifə bundan ibarət... ki insan pis əməllərdən uzaq ol... .

İkinci vəzifə xeyir işlər görmək... . Üçüncü vəzifə zülmə qarşı mübarizə aparmaq... . Dördüncü vəzifə cəmiyyətdə öz yoldaşları ilə ittifaqda yaşamaq... . Beşinci vəzifə elm yolu ilə getmək... . Altıncı vəzifə elmi hər yanda yaymağa çalışmaq... . Yeddinci vəzifə bundan ibarət... ki insan öz qüvvəsi, imkanı daxilində onunla ittifaqda olan cəmiyyətdə, öz həmvətənləri və həmfikirləri arasında qanuni hüquqların müdafiəsi üçün mübarizə aparmalı... .

(*M.F.Axundzadə*)

✓ Öz vəzifələrinizlə M.F.Axundzadənin tövsiyə etdiyi vəzifələr arasında hansı uyğunluq gördünüz?

✓ Borc və vəzifə anlayışlarını fərqləndirin.

15. Sizin hansı borclarınız var?



16. Oxlarla düzgün birləşdirin və fikirlərinizi ümumiləşdirin.

1	İnsanın mənəvi keyfiyyətlərini müəyyən edən etik norma	tərbiyə
2	Təhsil verməklə, adət, ədəb və davranış qaydaları aşılamaqla yetişdirib böyütmək	əxlaq

17. Mətndə (səh. 128) fərqləndirilmiş hissədə işlənmiş durğu işarələrinə diqqət yetirin. Nə üçün Konfutsiyə və onun şagirdinə məxsus sözlər dırnaq işarəsi içərisində verilmişdir?

Başqasının nitqinin həm məzmun, həm də formaca heç bir dəyişikliyə uğramadan olduğu kimi verilməsinə *vasitəsiz nitq* deyilir.

Məsələn:

Həzrəti Məhəmməd Peyğəmbər demişdir:

"Ata-ana uşağına gözəl tərbiyədən daha yaxşı miras qoya bilməz".

Həzrəti Məhəmməd Peyğəmbərə məxsus olub, dəyişmədən verildiyi üçün vasitəsiz nitq hesab edilir.

18. Mötərizədəki sözlərdən də istifadə etməklə aşağıdakı ifadələri vasitəsiz nitqə çevirib yazın. Durğu işarələrindən düzgün istifadə edin.

Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə olunsunlar. (*H.Əliyev*)

Ən təhlükəli söz "hamı belədir" ifadəsidir. (*L.N.Tolstoy*)

Biz hamımız aldığımız tərbiyənin övladıyıq. (*K.Helvetsi*)

Nümunə:

Mənəviyyat bizə xoşbəxt olmağı deyil, xoşbəxtliyə necə nail olmağı öyrədir. (*İ.Kant*)

İ.Kant demişdir: "Mənəviyyat bizə xoşbəxt olmağı deyil, xoşbəxtliyə necə nail olmağı öyrədir".

19. Dialoqdakı durğu işarələrini bərpa etməyə çalışın.

Balzak adamların xəttinə baxaraq xarakterlərini müəyyənləşdirməkdə mahir olduğunu iddia edirmiş. Günlərin birində bir qadın onun yanına gəlir və bir yazı göstərərək yazıçıdan onun sahibinin xasiyyətini müəyyənləşdirməyi xahiş edir

Bu uşaq mənim yaxınım deyil, ona görə də xahiş edirəm, onun haqqında açıq danışasınız

Balzak yazıya baxır

Elə isə qulaq asın. Mənim fikrimcə, bu uşaq pintidir, tənbəldir, ona inanmaq olmaz, hər addımda ondan ehtiyatlı olmaq lazımdır, ailəni rüsvay edə bilər.

Yazıçını diqqətlə dinləyən qadın cavabında deyir

Çox qəribədir. Bu sizin şagird olduğunuz vaxt yazdığınız yazıdır.

✓ *Sizcə, Balzak qadına nə cavab verəcək? Siz belə əhvalatla üzləşsə idiniz, necə hərəkət edərdiniz?*

✓ ***Hadisə, olay, əhvalat, sərgüzəşt, macəra*** *sözlərinin yaxınmənalı olsa da, həmişə bir-birini əvəz etmədiyini nümunələrlə əsaslandırın.*

20. Cədvəldəki sözləri düzgün yazın.

Verilmişdir	Yazılmalıdır		
	bitişik	defislə	ayrı
il?bəil bir?az təlim?tərbiyə ayrı?ayrı gəlha?gəl bir?dəfə			

✓ *Özünüz də belə nümunələr yazın.*

21. “Özümdə hansı keyfiyyətləri təqdirəlayiq, hansıları isə qəbuledilməz hesab edirəm” mövzusunda kiçik çıxış hazırlayın, sinif yoldaşlarınızın qarşısında oxuyun. Fikir mübadiləsi aparın.

22. “Xalqımıza məxsus milli-mənəvi dəyərlər” mövzusunda inşa yazın.

NƏSİHƏT

(*“Mehman” povestindən, ixtisarla*)

Dünyada xoşbəxt olmaq üçün yeganə yol
təmiz vicdan sahibi olmaqdır.
(*Stiven Duqlas*)

Tədris hissə müdiri Məlikə xanım onillik məktəb vəsiqəsini Mehmana təqdim edib, ayrılıq əlaməti olaraq onun boynunu bərk-bərk qucaqladı. Məlikə xanımın qar kimi ağaran pərakəndə saçları Mehmanın şəvə kimi qara qıvrım (...) saçlarına qarışdı:

– Oğlum, – deyə müəllimin yaşaran gözləri doldu (1). – Düz on ildir ki, sən bizim bu məktəbdə oxuyursan. Düz on il əvvəl sən buraya balaca bir uşaq kimi, çantanı yerlə sürüyə-sürüyə gəlib, indi cavan bir oğlan kimi gedirsən... Bu on ilin çox yarısını mən özüm sənə dərs vermişəm... Sən mənim sevimli (...) balam olmusan... Bu on ildə məktəbdə mən səni həm əxlaqda (...), həm də oxumaqda bütün uşaqlara nümunə gətirmişəm... Bu gün mən məktəbi bitirmək şəhadətnaməsini sənə təqdim edib yola salıram. – Məlikə xanım çəkilib Mehmanın gözlərinin içinə diqqətlə baxdı. – Mənim sənə analıq tövsiyəm vardır, – müəllim göy damarlı əlini qəti bir qərarla qaldırıb: (2) – Ancaq mənim sənə çox mühüm (...) bir tapşırığım vardır... Hər halda, hansı işdə olursan, ol, daxilən pak-təmiz ol!.. Heç kəs bilməsə, tək bir sən özün bilsən belə, mənəviyyatını gün kimi saf, ay kimi parlaq saxla! Heç bir zaman (...) bir balaca nöqtə qədər olsa belə, öz ürəyini ləkələmə! – Məlikə xanım qaynayan gözlərini silib əlavə etdi: – Sənin bu dünyada iki anan var, birisi səni doğan ana ki, sən ona həmişə hörmət

Vicdan dedikdə nə başa düşürsünüz?

etməlisən, ikincisi də sənə təlim verən anadır!.. Sən bil ki, bu sözləri sənə anan deyir!..(3) Sən gəncsən, bizim dünyanın mənası məzmunlu, hikmətli və dərindir!..

– *Anama qəti söz verirəm, – deyə Mehman öz qarasaçlı başını müəlliminin qarşısında ehtiramla əydi, – söz verirəm!..*

– Bəli, oğlum, ...

Sizcə, müəllim şagirdinə hansı tövsiyəni verir?

1 Bu dünyada insan üçün, hər nə işdə olursa-olsun, ürəyi ləkəli yaşamaqdan ağır bir şey ola bilməz.

2 Mənəvi təmizlik insana məğlubedilməz qüdrət, vətən, xalq qarşısında hədsiz bir hörmət verər!..

3 Daxili təmizlik, vicdanı saflıq insan üçün böyük vüqardır!..

4 O, adamı cürətli, alnıaçıq, başıuca edər!..

Ağsaçlı müəllim Mehmanın boynunu qucaqlayıb:

– Mənim öz övladım olmayıb, – deyə həyəcanlandı. – Səndə mən özüm üçün doğma bir bala sifətini tapmışam!..(4)

Mehman müəllimin göy damarlı əlini eyni ehtiramla (...) öpüb vəsiqəsini götürdü. Ağsaçlı müəllim titrəyən şəhadət barmağını uzadıb:

– Unutma ha!.. – deyə son tapşırıq verdi. – Ləkə çox pis şeydir, heç unutma!.. Ləkə insanı cürətsiz,(…) başıaşağı edər. Heç kəs bilməsə belə, o, adamı xəcalət tərinin içində boğar, onun rahat yuxusunu göylərə çəkər!.. Bu sözlər indi yersiz görünsə belə, ürəyimdən gəldiyi üçün bir övladım kimi sənə deməli oldum, oğlum!..

Süleyman Rəhimov

1. *Övlad, bala* sözlərinin sinonim olduğunu əsaslandırın.
2. “Sonuncu abzasda çərçivəyə alınmış sözü *çirk* sözü ilə əvəz etmək olar” fikrini ya təkzib, ya da təsdiq edin. Fikirlərinizi əsaslandırın.
3. Mətndə qarşısında (…) işarəsi qoyulmuş sözlərin yerinə elə sinonimlər tapıb işlədin ki, məzmuna xələl gəlməsin.
4. Vida zamanı müəllim və şagird hansı etiketlərdən istifadə etməlidir?
5. Altından xətt çəkilmiş ifadəni mətndəkindən fərqli mənada cümlədə işlədin.

Bu on ilin çox yarısını mən özüm sənə dərs vermişəm.

6. *Pərakəndə* sözünün leksik mənasını müəyyənləşdirməklə nöqtələrin yerinə uyğun sözlər yazıb söz birləşmələri düzəldin.



7. Məntiqi ardıcıllığı tamamlayın və nöqtələrin yerinə uyğun olan sözü yazın.

Mübarəkdir! ... ...
Belə etiketlər ..... etiketləri adlanır.

Nöqtələrin yerinə hansı sözü yazardınız?

8. Məlikə xanım "ləkə" dedikdə nəyi nəzərdə tuturdu?
9. Məlikə xanımın Mehmana olan xoş münasibəti nə ilə bağlı idi?
10. Abraam Linkolnun müəllimə ünvanlanan təklifləri ilə Məlikə xanımın verdiyi məsləhətləri müqayisə edin. Hansı oxşarlığı gördünüz?
11. Uğurlarının sirlərini müəllimlərində görən fin şagirdlərinə *bizim də uğurlarımızın sirri azərbaycanlı Məlikə xanım kimi müəllimlərdədir* cavabını vermək olarmı?
12. *Hər nə sənəti ürəyin sevsə, onun dalınca da gedərsən, – deyə qeyd etdi, – bu sənin öz işindir!..* cümləsini mətndə nömrələnmiş cümlələrin hansından sonra yerləşdirmək olar?
13. Məlikə xanımın şagirdinə olan münasibəti əsasında Mehman haqqında fikir yürüdün.
14. Mətnin məzmununa uyğun atalar sözü tapın.
15. Mətn üzərində iş aparmaq üçün siz hansı suallardan istifadə edərdiniz?
16. Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyənləşdirin.
17. Mətndə altından xətt çəkilmiş cümlə haqqında fikir yürüdün.
18. Mətnin əvvəlində verilmiş epiqrafa münasibət bildirin.

19. İxtisarla verilmiş aşağıdakı mətni oxuyun. Mətndə hansı fikir ifadə olunmuşdur?

Od, su, vicdan yoldaş olurlar. Neçə gecə, neçə gündüz yol gedirlər. Bir süfrədə çörək yeyir, bir qabda su içir, dincəlmək istəyəndə kürək-kürəyə verib yatırlar. Onların birliyi hər yeri abadlaşdırır: susuz çöllər cana gəlir, oda ehtiyacı olanlar od əldə edir...

Ayrılmaq məqamı gəlir. Onlar üç yol ayrıcına çatanda dayanırlar. Od soldakı yola çıxıb dayanır. Yoldaşları ilə vidalaşarkən deyir:

– Harada ocaq yansa, haradan tüstü çıxsa, bilin ki, mən oradayam. Məni orada axtarın.

Su da ortadakı yola keçir, səmimiyyətindən, mehribanlığından doymadığı, vida anlarında ayrılığa dözməyib gözləri yaşaran həmkarlarına deyir:

– Harada yaşıllıq, abadlıq görsəniz, bilin ki, mən oradayam.

Vicdan qıraqdakı, sağdakı yolda dayanır, dostlarına baxır, doluxsunub soruşur:

– Məni harada axtaracaqsınız?

Nə od dillənə bilir, nə də su.

Vicdan görür ki, dostları özlərini itiriblər, tez dillənir:

– .....

1. Sizcə, nə üçün dostlardan heç biri dillənmir?
2. Sizcə, vicdan dostlara nə cavab verəcək?

(*İsmayıl Şıxlı*)

✓ İkinci suala yazılı şəkildə cavab yazıb mətnə əlavə edin.

✓ *Məlikə xanımın vicdan haqqında dediklərini yada salıb müqayisə aparın və nəticə çıxarın.*

20. Mətndə fərqləndirilmiş cümlələrdə müəllif sözünü və vasitəsiz nitqi müəyyənləşdirin. Sxemi qurmağa çalışın.

Vasitəsiz nitq iki hissədən ibarət olur:
1) müəllif sözü; 2) vasitəsiz nitq.

Cümlədəki yerindən asılı olaraq müəllif sözü (M, m), vasitəsiz nitq (V, v) hərfləri ilə göstərilir.

Müəllif sözü əvvəldə gəldikdə ondan sonra qoşa nöqtə qoyulur. Vasitəsiz nitq dırnaq içərisində yazılır. Nöqtə dırnaq işarəsindən sonra qoyulur.

Kant demişdir: “Ən gözəl səadət gözəl əxlaqdır”.
M: “V”. M: “V”.

Vasitəsiz nitq müəllif sözündən əvvəl də işlənə bilər. Bu zaman vasitəsiz nitq dırnaq içərisində yazılır, sonra vergül və tire işarəsi qoyulur.

“Bütün insani dəyərlərin təməli əxlaqdır”, – deyə A.Eynşteyn cavab verdi.
“V”, – m.

Vasitəsiz nitq sual və nida cümləsi olarsa, sual və nida işarələri dırnaq işarəsindən əvvəl qoyulur.

Məsələn:

"Bəs sən necə hesab edirsən?" – deyə müəllim şagirdə müraciət etdi.

"V?" – m.

"Şəhəriniz necə də gözəldir!" – deyə Birinci Avropa Oyunlarında iştirak edən turistlər heyranlığını gizlədə bilmirdi.

"V!" – m.

21. Uyğunluğu müəyyənləşdirin.

1 "Onlar hara getdilər?" – deyə Aysu keşikçidən soruşdu.	a M: "V!"
2 O, nitqini bu sözlərlə qurtardı: "Yaşasın müstəqil Azərbaycan!"	b M: "V".
3 Heydər Əliyev demişdir: "Azərbaycan dünyaya bir günəş kimi doğacaq".	c "V?" – m.

22. M: "V?"; "V?" – m; "V", – m; M: "V". sxemlərinə uyğun cümlələr qurun.

23. Amerikanın 16-cı prezidenti Abraam Linkoln demişdir: "Dostlarımı itirsəm, kədərlənmərəm, təki vicdanım məni tərk etməsin".

✓ *A.Linkolnun bu fikrinə münasibət bildirin. Mühakimə yürüdün. Onun bu fikri ilə razısınızmı? Niyə?*

✓ *A.Linkolnun oğlunun müəlliminə yazdığı məktubu yadınıza salın. Əgər onun tövsiyələri bir insanda cəmlənərsə, həmin şəxsi vicdanlı hesab etmək olarmı?*

✓ *Siz necə düşünürsünüz, vicdanlı insan hansı keyfiyyətlərə malik olmalıdır?*

✓ *Vicdanın yoxluğu hansı faciələrə səbəb ola bilər?*

24. Atalar sözlərini bərpa edib tərcümə edin.

1	Quyuya su tökməklə	a	axırı fayda taparsan.
2	Susuz həyat olmaz,	b	sulu olmaz.
3	Düz danışıqdan əvvəlcə zərər görsən də,	c	zəhmətsiz rahatlıq.

✓ *Hansı cümlə quruluşuna görə fərqlidir?*

✓ *Hər hansı bir atalar sözünü seçib onun ifadə etdiyi məna haqqında kiçik mətn tərtib edin.*

- bir qədər
- əxlaq
- irəli
- mövcud
- öz
- yaratmaq
- yüksək

Sözlərin leksik və qrammatik mənasını müəyyənləşdirin.

DÜNYANI YANDIRAN AH

Erməni snayperinə tuş gələn 9 yaşlı
Fariz Bədəlovun ruhuna

Həmin gün uzaqlardan günəşin və dağların arxasında qaynaşan buludların bir-birinə sarmaşmış ağırlığı enirdi asta-asta bir kəndin üstünə, dolurdu evlərə, hopurdu ürəklərə. Elə bil yer axtarırdı sığınmağa, əbədi bir sığınacaq. Axır ki tapdı o yeri – tapdı ana ürəyini…

Dünya da, onun bir parçası olan Azərbaycan da, onun əl boyda torpağı olan Qarabağ da, Qarabağın sədəf boyda hissəsi olan Orta Qərvənd kəndi də baş verəcəklərdən, üstünə enən günəşlə buludun qarışığından xəbərsiz idi. Çünki kənd çərşənbə havaları ilə yaşayırdı. Yumurta boyamaq, qovurğa qovurmaq, səməni göyərtmək həvəsində idi... Kimi çəpər çəkir, kimi ağac dibi belləyir, kimi ev-eşiyində bayram təmizliyi edirdi. Kəsəsi (...), Orta Qərvənd bütün Türk dünyasının sevimli bayramı Novruzun pişvazına hazırlaşırdı…

Həmin səhər ana hamıdan tez oyandı yuxudan. Əslində, o, gecəni yata bilməmişdi. Sanki yerinə qor dolmuşdu. İki-üç dəfə diksinib oyanmışdı. Və hər dəfə də "bismillah" deyib, özündən bir az aralıda yatan oğlunu yoxlamış, əli ilə saçlarını oxşamışdı. Bunun səbəbini heç özü də bilməmişdi. Amma hiss etmişdi ki, ürəyi sinəsindən çıxıb qaçmaq istəyir. Hətta gördüyü yuxunu da heç kimə danışmadı, "düşər-düşməzi olar", "xeyirə yozulmaz", – deyə dilə gətirməyə də qorxdu… Başını iş-güclə qatsa da, diqqəti çöldə-bayırda, uşağının yanında idi. Tez-tez pəncərədən, qapıdan Farizə baxır, onun qonşu uşaqlarla oynadığını görüb sakitləşərək qəlbinə girmiş şeytanı qovmağa çalışırdı.

Birdən güllə səsi eşidildi. (1) Əlindəki boşqab yerə düşdü. (2) Güllə səsi ilə birlikdə ananın ürəyindən dəhşətli bir ağrı keçdi. (3) *Güclə eşidiləcək bir səslə: "Oyyy!!!", – dedi*. (4) Yanındakılar hövlnak ona yaxınlaşdılar. (5) Ana özündə deyildi, ruhu uçub getmişdi. (6) Ətrafdakılar onun nədən bu hala düşdüyünü anlaya bilmirdilər. (7) Çünki eşidilən atəş heç kimə heç nə demirdi, anadan başqa. (8) *O, bir anda yerindən qopub: "Fariz, oğlum!" – deyib fəryadla özünü çölə atdı.* Bu acı fəryad ətrafındakıları ananın ardınca səslədi.

…Oğlunun başını sinəsinə sıxmışdı. Farizin məsum sifəti, körpə uşaq təbəssümlü saf, bir az da gizli nisgil (...) gizlənmiş baxışları olduğu kimi donub qalmışdı.

Bu donmuş çöhrədən (...) bircə ifadəni oxumaq mümkün idi: "Mənim günahım nə idi?!."

Ananın hıçqırıqlarından, "Oğul, bala, Fariz..." harayından başqa heç nə anlamaq mümkün deyildi. Anlaşılan bu sözlərdə də "Balamın günahı nəydi???" hayqırtısı vardı.

Əslində, bu sualın cavabını bütün dünya (...) bilirdi. Amma etiraf etməyə heç kim özündə cəsarət tapmırdı. Deyə bilmirdilər ki, doqquz yaşlı körpənin günahı (...) müsəlman olması, "Türk oğlu türk" olmasıdır… Məsum bir körpənin yalnız milli mənsubiyyətinə görə həyatına son qoyulması vandalizmin son mərhələsidir!!!

Lap uzaqda gülümsəyən günəşlə qaynaşan buludlar qovuşub ildırıma, şimşəyə çevrilmişdi. Dağların o üzündə yeri-göyü qovuşduran dəli bir leysan başlamışdı.

…Orta Qərvənd kəndində isə Şirinnaz ananın fəryadı göylərə dirənmişdi…

"Füyuzat" jurnalından, 2011-ci il

1. "*Axı bu kənd Qarabağ savaşı başlayandan gecə-gündüz top-tüfəng səsi ilə yatıb-dururdu*" cümləsi hansı rəqəmin yerinə yazılsa, mətnin məzmununa xələl gəlməz?

2. Mətndə nöqtələrin yerinə sözlərin uyğun sinonimlərini tapın. Bu sözlər həmişə bir-birini əvəz edirmi?
3. Altından xətt çəkilmiş sözün mətndəki mənası həftənin hansı günü ilə səsləşir? Bəs, əslində, necədir?
4. *Saçlarını oxşamışdı* ifadəsində *oxşamaq* sözünü daha hansı mənada işlətmək olar?
5. Mətndə frazeoloji birləşmələrlə məcazi mənalı birləşmələri seçib onları bir-birindən fərqləndirməyə çalışın.
6. *Vandalizm* sözünün leksik mənasını müəyyənləşdirin.
7. Məntiqi ardıcıllığı davam etdirin:

   Gizli – açıq, göy – ..., acı – ..., saf – ...

   Belə sözlər ..... adlanır. Nöqtələrin yerinə nə yazılmalıdır?

8. Sizcə, əsərdə hansı dövrün hadisələrindən bəhs edilir?

9. Aşağıdakı kəlamlardan hansı mətnin məzmunu ilə səsləşir?
   - Ana qəlbi möcüzələr xəzinəsidir.
   - Ananın göz yaşı daş ürəkləri də yumşaldır.
   - Analar hər şeyi görməsələr belə, qəlbləri ilə duyurlar.

10. Müəllif faciəni hansı təbiət hadisələri ilə müqayisə edir və nə üçün?

11. Müəllif ananın göz yaşlarını hansı təbiət hadisəsinə bənzədir?

12. Əsərin adına münasibət bildirin. "Yeri-göyü yandıran ah" ifadəsi mətndə hansı təbiət hadisəsi ilə müqayisə edilə bilər? Fikirlərinizi əsaslandırın.

13. Əsərdəki hadisələri Xocalı qətliamı ilə müqayisə edin. Xocalı faciəsini əks etdirən təqdimat hazırlayıb sinif yoldaşlarınız qarşısında çıxış edin.

14. Zəbt olunmuş torpaqlarımızın işğal tarixlərini – qan yaddaşımızı öyrənin.

15. Millətimizin milli-mənəvi dəyərlərinə, torpaqlarına göz dikmiş, bunları öz adına çıxarmaq istəyən erməni vandallarının təxribatlarını əks etdirən faktlar toplamağa çalışın.

16. "Fəryad" filmindən müəyyən bir fraqmentə baxın, mətnin məzmunu ilə əlaqələndirin, müqayisə edərək nəticə çıxarın. Aşağıdakı sxemdən istifadə edin.

İsmayılı erməni uşağına olan münasibətinə görə xarakterizə edin.	Erməni snayperini azərbaycanlı uşağına olan münasibətinə görə xarakterizə edin.
① _____	① _____
② _____	② _____
③ _____	③ _____

Müqayisə edib bu nəticəyə gəldik ki, ...

1. _____, 2. _____

17. Aşağıdakı cümlələri tamamlayın.

- Albert Aqarunov _____ anadan olmuşdur. Suraxanı rayonundakı 154 saylı məktəbin səkkizinci sinfini bitirərək peşə məktəbində sürücü-mexanik vəzifəsinə yiyələnir.

- 1987-ci ildə hərbi xidmətə çağırılan Albert xidməti vəzifəsini Gürcüstanda yerinə yetirir və _____ olur. Daha sonra Bakıya dönərək Suraxanıda _____ işləyir.

- _____ 1992-ci ildə Albert Aqarunov könüllü olaraq cəbhəyə yollanır. Albert tank komandiri təyin edilir və Şuşa cəbhəsinə göndərilir.

- O, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə _____, zirehli texnikasını məhv edir. 8 may 1992-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə Albert _____ tuş gəlir və döyüş meydanında həlak olur.

- Albert Qarabağ müharibəsində əfsanəyə çevrilmişdi. O dövrdə tankçılar tanklarını "Albert" adlandırırdılar. Ermənilər onun başına _____ qoymuşdular.

- Erməni tanklarından _____ düzəltməyi sevən Albert bir mərmi ilə düşmənin iki tankını birdən vururdu. Şuşaya hücum edən vaxtı 9 tank, 7 BMP və bir çox texnikanı məhv etdi.

1. Qarabağ müharibəsi başlayarkən
2. "yəhudi buterburodu"
3. erməni işğalçılarının xeyli canlı qüvvəsini, snayper gülləsinə
4. 25 aprel 1969-cu il Bakı şəhərində
5. pul mükafatı
6. tank komandiri, maşınqayırma zavodunda

18. Nöqtələrin yerinə buraxılmış hərfləri əlavə edin.

nit..., ə...laq, vi...dan, məş...ələ, n...m...nə, şə...si, ə...ali, bor..., im...an, zire..., mü...asi...ə, dəz...ah, te...nika.

19. Mətndə fərqləndirilmiş cümlələrdə vasitəsiz nitqi və müəllif sözlərini müəyyən edin. Durğu işarələrinin işlənmə ardıcıllığına diqqət yetirin.

Bəzən vasitəsiz nitq müəllif sözlərinin arasında verilir. Bu zaman müəllif sözündən sonra qoşa nöqtə işarəsi qoyulur. Vasitəsiz nitq dırnaq işarəsi içərisində verilir, sonra vergül və tire qoyulur.

Məsələn:

Jan Jak Russo: "Tərbiyədə ən böyük səhv tələskənlikdir",

M: **"V",**

– deyə öz qeydlərində yazırdı. **M: "V", – m.**

– m.

"Çox diqqətli ol, – deyə Yeganə dilləndi, – bu sənin üçün bir imtahandır".

"V, – m, – v".

II cümlənin sxeminə əsasən durğu işarələrinin işlənmə ardıcıllığını şərh edin.

20. Cümlələrdə durğu işarələrini bərpa edib sxemlərini qurun.

Uzaqda ucalan Böyük Kirs dağına baxıb Yəqin ki, siz Şuşanın təməlinin XVIII əsrdə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulduğunu bilirsiniz Şuşanın sonuncu xanı Xurşudbanu Natəvan olmuşdur deyə o aram-aram sözə başladı. (*F.Güney*)

Vaxt ötdükcə artıq o da narahat olmağa başlayır Bunlar harada qaldılar deyə düşünürdü (*E.Elatlı*)

✓ *Bədii ədəbiyyatdan vasitəsiz nitqin müxtəlif sxemlərinə uyğun nümunələr seçib yazın.*

21. Qarabağ uğrunda döyüşən hər hansı bir qəhrəman haqqında təqdimat hazırlayın. Aşağıdakı plandan istifadə edin.

Plan

1. *Haqqında təqdimat hazırlayacağınız qəhrəmanı müəyyənləşdirin;*
2. *Tərcümeyi-halı haqqında qısaca məlumat verin;*
3. *Qarabağ döyüşlərində göstərdiyi qəhrəmanlıq haqqında məlumat verin;*
4. *Fəxri ada layiq görülməsi, adının əbədiləşdirilməsi haqqında məlumat verin;*
5. *Nəticə. Mövzuya öz münasibətinizi bildirin.*



- ✓ *Qarabağın azad edilməsi istiqamətində Azərbaycan dövlətinin gördüyü tədbirlər haqqında məlumat toplayın.*
- ✓ *İşğal olunmuş torpaqlarımızın azad edilməsi istiqamətində siz hansı təklifləri verə bilərsiniz?*
- ✓ *Torpaqlarımızın azadlığı uğrunda döyüşlərə hazırsınızmı?*

✓ *Zəbt olunmuş ərazilərimizin işğal tarixlərini yazın.*

✓ *İşğal altında olan hər hansı bir bölgə haqqında təqdimat hazırlayın. Təqdimatda aşağıdakı məsələləri diqqət mərkəzində saxlayın:*

1. Ərazinin sahəsi
2. Əhalisi
3. Məhv olmuş milli-mənəvi dəyərləri
4. Faydalı qazıntıları
5. Hal-hazırda vəziyyəti

✓ *XX əsrdən başlayaraq soyqırımı baş verən əraziləri göstərin.*



YENƏ BİR ARZU QALDI...



Ananın ürəyində
Arzular durdu səfə,
Bala qığıltısını
Eşidərkən ilk dəfə.

Arzu doğdu arzudan,
Dedi: “Balama qurban
Kəhər atlar, qulunlar!
Balam nə vaxt dil anlar?”

Uşaq dil də anladı,
Dil açdı: “Ana!” – dedi.
Ana: “Hər dərdin, bala,
Gəlsin bu cana”, – dedi.

Üzünə güldü cahan,
Arzu doğdu arzudan.
Ana dedi: “Bəs haçaq
Balam ayaq açacaq?”

Bala ayaq da açdı,
Küçədə gəzdi, qaçdı.
Ana qəlbi sığmadı
Fərəhindən göylərə,
Hər bala addımına
“Əhsən”, – dedi min kərə.

1. Məcazi mənalı sözləri seçin. Sizcə, şair nə üçün belə sözlərə müraciət etmişdir?
2. *Ayaq* sözünün çoxmənalılığını nümunələr vasitəsilə əsaslandırın.
3. Fərqləndirilmiş hissədə hansı söz aşağıdakı tələblərə cavab verir?
   - Müxtəlif leksik mənalara malikdir.
   - Məna taylarından biri isim, digəri feildir.
   - Sözün sinonimi və antonimi vardır.
4. Sxemi şərh edin:



Arzudan arzu doğdu,
Ana dedi: “Azdı bu!
Balam da balalartək
Havaxt dərsə gedəcək?”

Bala dərsə də getdi,
Bala dərsdən də gəldi,
Deməyin ki, ananın
Arzuları gödəldi.

Bala məktəb bitirdi,
Ali məktəbə girdi.
Ananın arzuları
Yenə də tükənmədi:
“Ah… bircə tez balamın
Toyunu görüm!” – dedi.

Arzudan arzu doğdu,
O qurtardı, bu doğdu;

Ana bir vaxt gördü ki,
Ömrü axıra yetmiş,
Arzuların odunda
Öz ömrünü əritmiş.

Ah, yenə də ananın
Arzuları bitmədi;
Bu arzular, arzular
Ananı tərk etmədi.

Ana getdi dünyadan
Balanın çiçəklənən
Ömrünün yaz çağında,
Ananın arzuları
İndi də təkrar oldu
Balasını böyüdən
Balanın dodağında.

Şeirin son bəndinə münasibət bildirin. Buradan hansı nəticəyə gəlmək olar?

Bəxtiyar Vahabzadə

Söz qoşmaq istəyirəm ən cavan analara,
Ömrünü bizə verib qocalan analara,
Bizə laylalarıyla xoş həyat verənlərə,
Bizə tale bəxş edib, bizə ad verənlərə,
Toyumuzu görəndə yüz il gəncləşənlərə,
Qadın adlı xilqətə, qadın adlı bəşərə.
Sevgi dolu mahnılar oxumaq istəyirəm,
Nə qədər ki səsim var, oxumaq istəyirəm.

(*Cabir Novruz*)

✓ *Həm C.Novruzun, həm də B.Vahabzadənin analara olan münasibətini müqayisə edib fikirlərinizi ümumiləşdirin.*

5. Şeirə əsasən “Anaların həyatı” mövzusunda söhbət aparın.

6. İrqindən, dinindən asılı olmayaraq, bütün anaların arzuları eynidir. Bəs bu arzularla böyüyən övladlar həmişəmi anaların ümidlərini doğruldur?

7. “*Bütün anaların hamısı övladlarını xoşbəxt görmək istəyir, ömrünü balalarının fərəhli həyatı uğrunda şam kimi əridir*” fikrini ya təsdiq, ya da təkzib edin. Övladını taleyin ümidinə atan analar haqqında fikir yürüdün. Müzakirə aparıb fikirlərinizi ümumiləşdirin.

8. Hansı müdrik kəlamı şeir üçün epiqraf seçərdiniz?
   - Cənnət anaların ayaqları altındadır.
   - Görün, nə aləmdir bizim analar....
   - Ananın meyvəsi – cəmiyyətin layiqli vətəndaşıdır.

9. Cəmiyyətin inkişafında mühüm rol oynayan qadınlarımız haqqında məlumat toplayıb kiçik təqdimat hazırlayın.

10. Aşağıdakı sxemi tamamlayın və şərh edin.



11. Verilmiş frazeoloji birləşmələri uyğun gələn mənaları ilə birləşdirin.

1	Özündən çıxmaq	əzab-əziyyətə qatlaşmaq
2	Canını oda yaxmaq	hirslənmək
3	Kirpiyi ilə od götürmək	əziyyət çəkmək

12. Şeirdən vasitəsiz nitqə aid nümunələr seçin. Həmin cümlələrin sxemini qurun.

13. Şeiri nəsr şəklində yazın. Yazınızda sadə və mürəkkəb cümlənin müxtəlif növlərindən istifadə etməyə çalışın. Yazdığınız mətni oxuyun. Sizi dinləyənlərin rəyini nəzərə alıb düzəlişləri daxil edin. Təxəyyülünüzə əsasən yazınıza əlavələr edin.

14. Aşağıdakı sxemlərə uyğun cümlələr düzəldin.

"V, – m, – v".	M: "V!" – m.
"V? – m, – v?"	M: "V?"
"V!" – m.	M: "V", – m.

✓ *Durğu işarələrinin düzgün qoyulduğunu əsaslandırın.*

15. Aşağıdakı sadə cümlələri mürəkkəb cümlələrə çevirin.

1) Teymur papağı başına qoyub qapıya doğru yönəldi. Anasına yaxınlaşıb mehriban nəzərlə onun üzünə baxdı. 2) Mən şikayət edəcəyəm. Güldəstə qəti və barışmaz ifadə ilə səsini ucaltdı. 3) Yox, o bu gün evə qayıtmayıb. Teymur qəti səslə etiraz etdi.

Nümunə:



✓ *Hansı 2 sadə cümləni birləşdirib bir sadə cümlə şəklində işlətmək olar?*

✓ *Hansı cümləni vasitəsiz nitq şəklində işlətmək olar?*

16. Aşağıdakı kriptoqramı həll edin və hikmətli kəlamı oxuyun.

1) Qarşılaşdırma bağlayıcısından biri

7	9	11	7	2

2) *Şirin* sözünün antonimi

7	11	4

3) Nöqtələrin yerinə tələb olunan hərfləri yazın.

Düz ....ini kəsir.

10	3	5

4) *Taxıl zəmidə, pambıq ….. yetişir.*

8	7	5	6	7	1	7

11	10	9	9	10	8		7	9	7	6	7	5	4	9	
7	3	7	2	6	7	5	4		7	6	8	4	9	1	7
1	4	5	.												

Məhəmməd Peyğəmbər

17. “Anam mənim dünyamdır” mövzusunda mətn tərtib edin.



Hansı sözlərin leksik və qrammatik mənalarını öyrənmək sizə maraqlı olardı? Həmin sözləri seçib yazın. Sözlərin müxtəlif nitq hissələrinə aid olmasına çalışın.

* * *

1 Səhər fermer gördü ki, onun evinə yaxşı cins atlar qoşulmuş dəbdəbəli bir karet yaxınlaşdı. Karetdən bahalı və şıq geyinmiş bir centlmen düşdü və soruşdu:

2 Oğlan qorxu və ümidsizlik içində ağlayaraq qışqırırdı. Fermer cəld qalın bir budağı qırıb ehtiyatla hadisə yerinə yaxınlaşdı, əlindəki budağı batan oğlana uzatdı. Oğlan təhlükəsiz yerə çıxdı. Onun bədəni həyəcan və gərginlikdən titrəyir, göz yaşlarını saxlaya bilmirdi. Ancaq əsas bu idi ki, o, canını qurtara bilmişdi!

3 XX əsrin əvvəlində bir şotland fermeri evə qayıdarkən onun yolu bataqlığın yanından keçir. Birdən o kiminsə bərkdən qışqıraraq köməyə çağırdığını eşidir. Fermer tez səs gələn tərəfə qaçır və dəhşətli bir mənzərənin şahidi olur: bataqlıq balaca bir oğlanı özünün nəhayətsiz dərinliyinə çəkir, oğlan xilas olmağa cəhd edir, lakin hər cəhdi uğursuzluqla nəticələnir, anbaan onun ölümünü yaxınlaşdırırdı.

4 – Gəl, bizə gedək, – deyə fermer ona dedi. – Sənə rahatlıq, istirahət və isti pal-paltar lazımdır.

Lakin oğlan başını buladı: “Yox, yox, gedə bilmərəm. Atam məni gözləyir. O, yəqin ki, indi çox nigarandır”.

Təşəkkür və minnətdarlıq hissi ilə xilaskarın gözünə baxan oğlan qaçıb getdi.

– Oğlumu dünən xilas edən sizsiniz?

– Bəli, mənəm, – fermer cavab verdi.

– Sizə nə qədər borcluyam?

– Təhqir etməyin məni, cənab. Siz mənə heç bir şey borclu deyilsiniz, çünki mən hər bir normal insanın edəcəyi hərəkəti etmişəm.

– Yox, mən bunu elə-belə də qoya bilmərəm, çünki oğlum mənim üçün çox əzizdir. Siz istədiyiniz məbləği deyə bilərsiniz, – qonaq israr etdi.

– Mən bu haqda heç danışmaq istəmirəm. Sağ olun.

Fermer çevrilib getmək istəyəndə evdən onun balaca oğlu çıxdı.

Varlı qonaq soruşdu:

– Bu sizin oğlunuzdur?

– Bəli, – deyə oğlunun başını sığallayaraq fermer fərəhlə cavab verdi.

1. Mətni lüğət tərkibi üzərində iş aparmaq üçün suallar tərtib edin.

– Gəlin, belə edək. Mən oğlunuzu özümlə Londona aparıb onun təhsil haqqını ödəyim. Əgər o da atası kimi alicənabdırsa, nə mən, nə də siz bu qərardan peşman olarıq.

İllər keçdi. Fermerin oğlu əvvəlcə məktəbi, sonra isə Tibb Universitetini bitirdi. Bir müddət sonra isə onun adı penisillini kəşf edən adam kimi bütün dünyaya yayıldı. Onun adı Aleksandr Fleminq idi.

Müharibə ərəfəsində Londonun bahalı klinikalarından birinə həmin varlı centlmenin oğlu sətəlcəmin ağır forması ilə qəbul olunur.

* Sizcə, onun həyatını bu dəfə nə xilas etdi?

– ..... .

Fleminqə təhsil verən varlı centlmenin adı Randolf Çörçil, onun oğlunun adı isə Uinston Çörçil idi. O, gələcəkdə İngiltərənin baş naziri oldu.

Bir dəfə Uinston Çörçil deyir: _____



✓ *Verilmiş sözləri təhsil aldığınız tədris dilinə tərcümə edərək cümlədə işlədin.*

qoşquya qoşulmuş –

ümidsizlik –

quru budaq –

göz yaşlarını saxlaya bilmədi –

qorxunc, dəhşətli –

dərinlik –

nəcib, alicənab –

2. Mətnə ad qoyun.

3. Mətnin ilk hissəsində abzasları ardıcıl düzün.

4. Mətndən əsas faktları seçin.

5. Qarşısında * işarəsi qoyulmuş cümlənin cavabı hansı bənddədir?
   - Fleminqin atasının vaxtilə etdiyi yaxşılıq.
   - Aleksandr Fleminq tərəfindən kəşf edilmiş penisillin.
   - Varlı biznesmen Randolf Çörçilin pulları.

6. Mətndə hansı suala cavab yoxdur?
   - Fermerin uşağı xilas etməkdə məqsədi nə idi?
   - Varlı centlmen övladının xilaskarına necə təşəkkür etdi?
   - Fermerin oğlu hansı peşəyə yiyələndi?
   - Fleminq hansı ölkədə təhsil alır?

7. Nə üçün fermer öz oğlunun tanımadığı bir şəxslə Londona getməyinə razı olur?

8. Müqayisə edib fikirlərinizi ümumiləşdirin. Hansına daha çox üstünlük verdiniz?



9. “Zərurət təsadüfdən yaranır” mövzusunda söhbət aparın.

10. Müzakirə.

Varlı cənab fermerə borclu qalmamaq üçün onun oğlunu oxutdurur.

Varlı cənab minnətdarlıq əlaməti olaraq onun oğlunu oxutdurur.

Varlı cənab insanlara yaxşılıq etməyi sevirdi.

11. Verilən insani keyfiyyətlər mətnin hansı hissəsinə uyğundur?

qayğıkeşlik _____

alicənablıq _____

qürurluluq – Yox, mən bunu elə-belə də qoya bilmərəm, çünki oğlum mənim üçün çox əzizdir. Siz istədiyiniz məbləği deyə bilərsiniz, – qonaq israr etdi.

– Mən bu haqda heç danışmaq istəmirəm. Sağ olun.

təvazökarlıq _____

minnətdarlıq _____

12. Aşağıdakı şeirləri nəsr şəklində yazın və mənasını izah etməyə çalışın.



Çalış, inciməsin səndən heç bir kəs,
Qəzəblə kimsəni yandırma əbəs!
Rahatlıq istəsən, özünü unut,
Adam incidənlər rahat gün görməz.
(Ö.Xəyyam)

Dünyanın işini yaxşı düşün sən,
Nə əksən, onu da sən biçəcəksən.
Yaxşı iş də görsən, pis iş də inan,
Unutmaz onları bu qoca dövran.
(N.Gəncəvi)

✓ *Sizcə, bu dördlüklərin mətnlə əlaqəsi varmı? Fikirlərinizi yoldaşlarınızla müzakirə edərək sübuta yetirin.*

13. Dialoq nədir?

14. Mətndə vasitəsiz nitqə aid nümunələr seçin.

Vasitəsiz nitqdən dialoqlarda daha çox istifadə olunur. Bu zaman dırnaq işarəsindən istifadə edilmir, vasitəsiz nitq yeni sətirdən yazılır və qarşısında tire işarəsi qoyulur.

Məsələn:

Alimdən soruşurlar:

– Kimi, həqiqətən, əsl ağıllı adam hesab etmək olar? Tapşırığın mahiyyətini bilmədən iş dalınca gedən adamı ağıllı hesab etmək olarmı?

Alim cavabında dedi:

– Ağıllı o adamdır ki, dinləməyi, əməl etməyi və nəticə çıxarmağı bacarır.

→ **Vasitəsiz nitq**

15. Vasitəsiz nitqdə buraxılmış durğu işarələrini bərpa etməklə onları uyğun sxemlərlə birləşdirin.

1. Bəxtiyar Vahabzadə yazırdı Vətən borclu deyil, biz borcluyuq vətənə.

M: “V”, – m.

2. Öz vətənini sevməyən insan heç kəsi və heç nəyi sevə bilməz deyə Onore de Balzak əsərlərinin birində oxucularına səsləndirmişdir bu, mümkün deyil.

“V”, – m.

3. Dünya tarixində ən böyük hünər və qəhrəmanlıqlar Vətən naminə edilib deyə Jan Jak Russo üzünü onu dinləyən kütləyə tutdu.

M: “V”.

4. Vissarion Belinski Öz vətəninə mənsub olmayan adam bəşəriyyətə də mənsub deyil demişdir.

“V, – m, – v”.

16. Həyatda heç də hər şey yaxşı olmur. Bizi əhatə edən mühitdə bəzən pislik, ədalətsizlik, məsuliyyətsizlik və s. bu kimi mənfi hallar da baş verir. Sizcə, belə halların baş verməməsi üçün insan nə etməlidir? Siz hansı təklifləri verərdiniz? Şəhriyarın "Haqqın səsi" əsərini xatırlayın. Müqayisələr aparın.

17. Aşağıdakı sözlərin mənasını uyğun gələn frazeoloji birləşmələrlə əlaqələndirin.

1 Bel bağlamaq	a darıxmaq
2 Başının altına yastıq qoymaq	b təəccüblənmək
3 Gözü kəlləsinə çıxmaq	c arxayın etmək
4 Burnunun ucu göynəmək	d inanmaq

✓ *Frazeoloji birləşmələri həm mübtəda, həm də xəbər vəzifəsində cümlədə işlədin.*

Nümunə:

Əl tutmaq

- Əl tutmaq (*nə?*) böyüklərdən miras qalmışdır.
- Milyonçu Əjdər bəy Aşurbəyov imkansızlara əl tutur (*nə edir?*), onların övladlarının təhsilinə yardım edirdi.

18. Cümlələrdəki fərqləndirilmiş sözlərdən düzgün olanını seçin.

Güldəstə bütün bu qaynar həyatdan özünü **məhrum/mərhum** etdiyini indi dərk etməyə başlayırdı.

- ✓ *Cümləni həm tabesiz, həm də tabeli mürəkkəb cümlə şəklində yazın.*
- ✓ *Cümləni elə dəyişin ki, vasitəsiz nitqli cümlə alınsın və sxemini qurun.*
- ✓ *Özünüz də belə nümunələr tapın.*

19. Aşağı siniflərdə siz hekayə yazmağın yollarını öyrənmişsiniz. Bir hekayə yazmağa çalışın və aşağıdakı plandan istifadə edin.

Plan

1. *Hekayənin mövzusunu düşünün.*
2. *Yazacağınız hekayənin ideyasının təklif olunan varianta uyğun gəlməsinə çalışın:*

   Bəla görəcəksən, pislik etdinsə,
   Əvəz verəcəkdir dünya hər kəsə. (*Nizami Gəncəvi*)
3. *Obrazlar yaradın.*
4. *Hadisənin baş verəcəyi yeri, zamanı, məkanı müəyyənləşdirin.*
5. *Hadisələrin bir-biri ilə əlaqəsini təmin edin.*

- ✓ **bataqlıq**
- ✓ **təlim**
- ✓ **xarakter**
- ✓ **sərgüzəşt**
- ✓ **şəhadət**
- ✓ **təbəsüm**
- ✓ **centlmen**

Sözlərin leksik mənasını müəyyənləşdirin və əlifba ardıcıllığı ilə düzün.

Hansı söz səhv yazılmışdır?

DÜZGÜN QƏRAR

Fikrimi söyləməmişdən əvvəl Molla Nəsrəddinin bir məşhur lətifəsini yada salmaq (...) istəyirəm:

Günlərin birində Molla Nəsrəddinlə oğlu səfərə çıxırlar. Molla uşağı eşşəyə mindirir, özü isə piyada gedir. *Qarşıdan gələn bir dəstə adam gileylənir (...): "Bu da indiki cavanlar. Heç böyüyə hörmət etmirlər. O boyda sağlam cavan eşşəyə minib, ancaq yazıq qoca piyada gedir".*

Bu sözdən utanan uşaq eşşəkdən düşür, molla isə, əksinə, eşşəyə minir. Qarşıdan gələn başqa bir dəstə deyir: "Bunlara bir baxın! O boyda kişi eşşəyə minib, yazıq uşaq isə piyada gedir". Bu sözdən sonra hər ikisi eşşəyə minir. Qarşıdan gələn başqa bir dəstə: "Bura bax ey... İki-iki adam minib eşşəyə, yazıq heyvan nəfəs ala bilmir", – deyir. Camaatın sözün kəsmək üçün bu dəfə nə molla, nə də uşaq eşşəyə minir. Piyada yola düzəlirlər. Qarşıdan gələn digər (...) dəstə deyir: "Bu axmaqlara baxın. Günün altında piyada gedirlər, atıla-atıla gedən eşşəyə minmirlər" və s.

Mollanın başına gələn bu hadisə bir çox cəhətdən diqqəti cəlb edir. Birincisi, mollanın özünün mükəmməl ideyası və iradəsi olmadığından başqalarının təsiri altında eşşəyə gah minir, gah da düşür. Molla hadisələrin subyekti yox, obyektinə çevrilir. Ən başlıca səbəb isə informasiya qıtlığıdır. Heç

1. Mətndə mötərizədəki nöqtələrin yerinə yaxınmənalı sözlər seçin.
2. *Obyekt* və *subyekt* sözlərinin leksik mənasını lüğətin köməyi ilə izah edin.
3. Mətndə bir-birinə əks olan sözləri müəyyənləşdirin.

bir dəstənin özündən əvvəlki dəstənin rəyindən xəbəri yoxdur. Buna görə də səhv rəylərlə çıxış edirlər. Başqa sözlə, bir tərəfdən savadsızlıq, digər tərəfdən isə informasiya qıtlığı mollanı gülünc vəziyyətə salır.

Düzgün qərar qəbul etmənin texnologiyası haqqında fikirlərimi dəfələrlə söyləmişəm: istənilən hadisə ilə bağlı qəbul ediləcək qərarın xətası həmin hadisə ilə bağlı toplanan informasiyanın həcmindən asılıdır. Məlumat çox (...) olarsa, xəta da az olar. Məlumat az olarsa, xəta çox olar. Məlumatın həcmi həm də düşünmə zamanından asılıdır, yəni çox düşünərkən çox məlumat toplanar və düzgün qərar qəbul edilər. Bu zaman səhv də az olar.

Şahlar Əsgərov

4. Siz Molla Nəsrəddin lətifəsindən hansı nəticəni çıxardınız?
5. Düzgün qərar qəbul etmək üçün nə etmək lazımdır?
6. Hansı atalar sözü mətnin ideyasına daha çox uyğun gəlir?
   - Ağıl ağıldan üstündür.
   - Yüz ölç, bir biç.
   - Çox gəzən çox bilər.
   - Hər oxuyan Molla Pənah olmaz.
7. Siz necə düşünürsünüz, düzgün qərar qəbul etmək nədən asılıdır?

8. Müzakirə.

Çox vaxt biz bir iş görəndə: “Camaat nə deyər?”, – deyə düşünürük. Nə üçün insanlar çox zaman ətrafdakıların, ictimaiyyətin rəyinə daha çox önəm verirlər? “Camaat nə deyər?” ifadəsi bir çoxlarının həyat tərzini özündən asılı olmadan tamam başqa istiqamətə yönəldir. Bu fikirlə razı olub-olmadığınız barədə müzakirə aparın.

1. Həqiqətən də, bir iş görəndə ətrafdakıların rəyi nəzərə alınmalıdır.
2. Bir iş gördükdə insan yalnız öz istək, düşüncə və ağlına uyğun hərəkət etməlidir.

✓ *İctimai rəy nə deməkdir?*

9. Yoldaşlarınızla birgə oxuduğunuz məktəbdə sorğu keçirin. Sorğu keçirdiyiniz şəxslərə (müəllimlərə, şagirdlərə, valideynlərə, məktəbin texniki işçilərinə və b.) aşağıdakı sualla müraciət edin:

Düzgün hesab etdiyiniz hər hansı məsələni həyata keçirdiyiniz zaman sizə irad bildirilərsə, nə edərsiniz?

a) Öz hərəkətinizin düzgün olduğunu düşünərsiniz.

b) Hərəkətlərinizi təhlil edib düzgün nəticə çıxararsınız.

c) İradın düzgün olub-olmadığına əhəmiyyət vermədən öz həyat tərzinizi davam etdirərsiniz.

9.1. Aşağıdakı suala cavab tapın.

Bəzən eyni mövzuda fərqli düşüncələrə malik olmaq nədən asılıdır?

Sorğu keçirmək üçün yaddaş
1. Mövzunun müəyyənləşdirilməsi;
2. Sualların tərtib edilməsi;
3. Sorğunun keçiriləcəyi yerin, məkanın və şəxslərin müəyyənləşdirilməsi;
4. Alınan cavabların sistemləşdirilib yekunlaşdırılması;
5. Sorğunun keçirilməsi üçün anketin hazırlanması;
6. Sorğunun nəticələrinin statistik təhlilinin aparılması;
7. Nəticələrin çıxarılması.

9.2. Sorğunun nəticələri haqqında hesabat hazırlayın.

10. Mətndə fərqləndirilmiş hissədə durğu işarələrini (qoşa nöqtə və dırnaq) çıxarın. Həmin cümlələri “ki” bağlayıcısı ilə əlaqələnən tabeli mürəkkəb cümlə şəklində yazın.

Nümunə:

Qarşıdan gələn digər dəstə deyir: “Bu axmaqlara baxın. Günün altında piyada gedirlər, atıla-atıla gedən eşşəyə minmirlər”.

Qarşıdan gələn digər dəstə deyir ki, bu axmaqlara baxın. Günün altında piyada gedirlər, atıla-atıla gedən eşşəyə minmirlər.

Başqasının nitqinin məzmunu saxlanılmaqla dəyişiklik edilərək verilməsinə *vasitəli nitq* deyilir.

Vasitəsiz nitq vasitəli nitqə çevrilərkən tabeli mürəkkəb cümlə əmələ gəlir.

Məsələn:

Əbih Sultan dedi:
– Məni Əlincə qalasına Bəysunqur göndərməmişdi. (*F.Kərimzadə*)

Əbih Sultan dedi ki, məni Əlincə qalasına Bəysunqur göndərməmişdi. (*F.Kərimzadə*)

11. Mətni oxuyun, aşağıdakı tapşırıqları yerinə yetirin.

✓ *Birinci abzasda tələffüz formasında verilmiş sözləri seçib onları düzgün şəkildə yazın.*

✓ *Vasitəsiz nitqdə durğu işarələrini bərpa edin.*

✓ *Mətndə fərqləndirilmiş hissədə səhv yazılan sözləri müəyyənləşdirin.*

Bəlkə, yolum oradan da o yana düşdü...

Bir gün bağda oynuyan uşaxlar Mollaya sataşmaq və onun başmaqlarını oğurramax məqsədilə onnan ağaca dırmaşmağı xaiş edillər. Uşaqların hiyləsini başa düşən Molla başmaqlarını qurşaqına sancıb ağaca dırmaşmağa başlıyır.

Öz hiylələrinin baş tutmadığını görən uşaqlar Molladan soruşurlar

Ay Molla bu başmaqları haraya aparırsan Qoy burada qalsın düşüb geyərsən.

Molla mənalı-mənalı gülümsəyərək cavab verir

Yox, qadan alım, ehtiyyat yaxşı şeydir. Qoy götürüm, kim bilir, bəlkəm, ordanda yolum o yana düşdü.

(*"Rəvayətli ifadələr" kitabından*)

✓ *Məsəl ən çox qurulan hər hansı bir tələyə düşmək istəmədikdə işlədilir fikri ilə razısınızmı?*

Bu, sadəcə, bir uşaq vədi idi... Lakin illər sonra bu cavan verdiyi sözü yerinə yetirdi. Ben Mozer və Meri Lapkovits üç il bir sinifdə oxumuşdular. Meri Daun sindromundan əziyyət çəkirdi. Lakin bu heç də onların dostluğuna mane olmurdu. Əksinə, Ben Meriyə xüsusi qayğı ilə yanaşırdı. Merinin böyük qardaşı deyirdi Bəlkə də yaşıdlarının çoxusu bacımdan uzaq gəzirdi, onu bir qədər qəribə hesab edirdi, lakin Ben ona başqa tərzdə yanaşırdı... Benin anasının dediklərindən Etiraf etməliyəm ki, oğlum həmişə çox fəal, həm də diqqətcil uşaq olub. O, müntəzəm olaraq Meriyə qayğı göstərir və uşaqlar əylənən zaman onun diqqətdən kənarda qalmamasına çox fikir verirdi 4-cü sinifdə Ben Meriyə söz verdi ki, buraxılış ziyafətinə onunla bir yerdə gedəcək. İş elə gətirdi ki, onlar tə...sillərini mü...təlif məktəblərdə davam etdirməli oldular. Müəyyən müddət keçdi. Bu dəfə tale onları məktəblərarası futbol yarışında görüşdürdü. Məlum oldu ki, Ben verdiyi vədi yaddan çı...armamışdır: o, Merini bura...ılış ...ecəsinə dəvət etdi. Meri çox təəccübləndi, ancaq özünü xoşbəxt hesab edirdi. "Mən öz dostlarımla getməyə hazırlaşırdım, lakin Benin təklifinə çox şad oldum!", – deyə Meri gülümsədi. Ben ilə Meri qəşəng geyinərək Merinin məzun olduğu məktəbdə buraxılış ziyafətinə yollandılar. Ziyafətdə onlara ibtidai sinifdə dərs deyən müəllimi də görməyə müvəffəq oldular. Müəllim də həmin vədi xatırlayırdı və həmin cütü görmək məqsədilə ziyafətə gəlmişdi. O, Ben ilə Merini bir yerdə görəndə sevincdən özünü göyün yeddinci qatında hiss etdi. Onun dediyinə görə, "Mən həmişə bu qızı "günəş şüası" adlandırırdım, çünki o, sinfimizdə, doğrudan da, günəş kimi hamını işıqlandırırdı. Ben bütün gecəni diqqət və qayğısını Meridən əsirgəmədi. O istəyirdi ki, Merinin üzü daima gülsün". Merinin valideynlərinin sözlərinə görə, Ben onun insanlığa inamını bərpa etdi. Əsl dostluq bax, belə olar! Benin anası fəxr edə bilər ki, belə oğul tərbiyə edib.

12. Aşağıdakı cümləni öz düşüncələrinizə əsasən tamamlayın.

Mətni oxuyub bu qənaətə gəldim ki, ...

13. Mətni oxuyun və müzakirə edin.

Bir müdrik insandan soruşurlar:
– Dostlar neçə cür olur?
– Dörd, – deyə müdrik cavab verir. Elə dostlar var ki, yemək kimi hər gün onlara ehtiyacın olur. Elə dostlar var ki, sanki dərmandır, onları özünü pis hiss edəndə axtarırsan.

Dostlar var ki, xəstəliyə bənzəyir. Onlar səni özləri axtarıb tapır. Ancaq elə dostlar da var ki, onlar sanki havadır, görünməsələr də, həmişə sənlədirlər.



Ben Mozer və Meri Lapkovits

- ✓ *Ben Mozer və Meri Lapkovitsin dostluğunu müdrikin aydınlıq gətirdiyi hansı dostluq tipinə aid edərdiniz? Nə üçün? Fikrinizi açıqlayın.*
- ✓ *Dostunuz varmı? Bəs sizin dostluğunuz müdrikin nümunə gətirdiyi dostluqlardan hansına bənzəyir?*

14. Mətndə (səh. 162) abzasların sərhədlərini müəyyən edin.

15. Göy rəngdə verilmiş hissədə vasitəsiz nitqin durğu işarələrini bərpa edin.

16. Qırmızı rəngdə verilmiş hissədə nöqtələrin yerinə buraxılmış hərfləri əlavə edin.

17. Mətnin aşağıdakı meyarlara uyğun olmasını yoxlayın:

dəqiq – qeyri-dəqiq	_____
sadə – mürəkkəb	_____
konkret – mücərrəd	_____
bilavasitə – dolayı	_____
faktiki – emosional	_____
qısa – ətraflı	_____
aydın – şifrəli	_____

Beni xarakterizə edin.

Siz Benin yerində olsa idiniz, necə hərəkət edərdiniz?

Həyatda uyğun hadisə ilə rastlaşmısınızmı?

1. Mətndən götürülmüş sözlərin düzgün tələffüzünü müəyyənləşdirin.

Yazılır	Deyilir:
anladı	[.....]
fikirləşdi	[.....]
xatırlamırdı	[.....]
kobudluq	[.....]
təəssüf	[.....]

PEÇENYE OĞRUSU

Bir qadın aeroportda sərnişinlər üçün ayrılan yerdə oturub təyyarəyə minik başlamasını gözləyirdi. Təyyarənin qalxmasına hələ var idi. Kimi oturacaqda mürgüləyir, kimi var-gəl edərək nə isə gözləyirdi. Qadın da aeroportdakı köşkdən sevdiyi yazıçının kitabını və bir qutu peçenye aldı. Özünə oturmaq üçün rahat bir yer tapdı və kitabı açıb oxumağa başladı. Fikrini kitab oxumağa versə də, yanında oturan adamın aralarındakı qutudan bir-bir peçenye götürüb yediyini nəzərindən qaçırmadı. Ancaq özünü görməzliyə vurdu. Bir yandan kitabını oxuyur, bir yandan da uçuş vaxtını göstərən tabloya baxırdı. “Peçenye oğrusu” isə bu vaxt ərzində peçenyeləri yeməkdən başqa heç nə etmirdi. Qadının gözü saatda idi, amma bu onun hirslənməyinə mane ola bilmirdi. Öz-özünə düşünürdü: “Nəzakətli bir insan olmasaydım, yumruğumla bu adamın gözünün altını göyərdərdim”. Qadın peçenyedən hər dəfə götürdükcə həmin adam da əlini uzadırdı. Axırda qutuda bircə peçenye qalanda “Görək indi nə edəcək?”, – deyə qadın düşündü. Kişi sonuncu peçenyeni götürdü və onu ortadan böldü. Yarısını ağzına atdı, digər yarısını da qadına verdi. Qadın peçenyeni hirslə onun əlindən aldı. “Allahım, necə də kobud insandır... Peçenyemi oğurladığı bəs deyil, heç təşəkkür də etmədi”, – deyə kişi ürəyində fikirləşdi. Qadın isə həyatında bu qədər hirslənməsini xatırlamırdı. Təyyarəyə minik başlanması haqqında elanı eşidəndə

2. *Elan, anons, reklam, afişa* sözlərini sinonim hesab etmək olarmı?
3. *Anons* sözünün leksik mənasını müəyyənləşdirin.
4. *Nəzərindən qaçırmadı* frazeoloji birləşməsinin sinonimini və antonimini tapın.
5. Sxemi tamamlayın və şərh edin.



dərindən köks ötürdü. Əşyalarını götürdü və çıxış qapısına yönəldi. “Peçenye oğrusu”na heç dönüb baxmadı da. Təyyarəyə mindi və rahat kresloya oturdu. Əlini çantasına uzatdı ki, kitabını çıxarsın. Gözləri təəccüblə açıldı. Bir qutu peçenye çantanın içində idi! Çarəsizlik içində inildədi: “Bunlar mənim peçenyemdirsə, demək, digərləri də onun idi və o öz peçenyesini mənimlə bölüşürmüş”. Üzr istəmək üçün çox gec olduğunu təəssüf hissi ilə anladı. Kobudluq etdiyi üçün utandı. “Peçenye oğrusu”, əslində, onun özü imiş! “Həyat başqalarını günahlandırmazdan əvvəl, dönüb özümüzü də nəzərdən keçirməyimizi lazım bilən yerdir”, – deyə düşündü.

Mühakimə yürüdün. Qadını oğru hesab etmək olarmı?

Valeri Koks

6. Frazeoloji birləşmələri uyğun gələn mənaları ilə birləşdirin.

1	Gözdən pərdə asmaq	narahat olmaq
2	Ürəyinə xal salmaq	inanmaq
3	Başının altına yastıq qoymaq	şübhələndirmək
4	Yuxusuna haram qatmaq	aldatmaq
5	Bel bağlamaq	arxayın etmək

✓ *Hansı frazeoloji birləşmələri həqiqi mənada da işlətmək olar? Fikrinizi nümunələrlə əsaslandırın.*

7. Mətni abzaslara ayırın. Giriş, əsas və son hissəni müəyyənləşdirin.

8. Hansı fikir mətnin məzmunu ilə əlaqələnmir?
   - Nəticə çıxarmağa tələsmə.
   - Başqasını günahlandırmazdan əvvəl özünə bax.
   - Tez qərar vermə.
   - Oğurluq yaxşı deyil.

9. Mətndə əsas fikir nədir?

10. Hekayənin ardını yazsa idiniz, onu necə tamamlayardınız?

11. Hansı atalar sözünü mətnə ad kimi seçmək olar?
   - Sonrakı peşmançılıq fayda verməz.
   - Əvvəl düşün, sonra danış.

12. Mətni oxuyun. Mötərizədəki sözlərdən daha uyğun olanını seçin.

Küçə ilə (*səbət əlində, əli səbətli, əlində səbət, səbətli*) bir yaşlı qadın gedirdi. Səliqə ilə səbətə yığılmış gözəl qırmızı və sarı almalar uzaqdan diqqəti cəlb edirdi.

Almalar mənim də diqqətimdən yayınmamışdı. Ehtiyatla arxa tərəfdən səbətə yaxınlaşdım, xəlvətcə almalardan birini götürüb gizlincə cibimə qoydum.

Qadın heç nə hiss etməmişdi. Mən onu ötüb keçmək istəyəndə dayandı və mənə dedi:

– Oğlum, bura gəl. Sənin adın nədir?

– İvan.

– Nə gözəl adın var? Görünür, özün də yaxşı oğlansan.

Mən heç nə deməyib yalnız çiynimi çəkdim. Qadın səbətdəki ən (*iri, zorba, yekə*) qırmızı bir alma seçib mənə uzatdı:

– Al, ye. Bu almalar öz (*bağımın, bağçamın*) məhsuludur.

Cibimdəki alma sanki od olub ayağımı yandırırdı. Qadın təkrar dilləndi:

– Nə üçün almanı götürmürsən?

O, əlini mənə uzatmış halda cavab gözləyirdi, mən isə ... Birdən əlimi cibimə salıb almanı çıxartdım, onu səbətə atıb qaçdım. Evə çatan kimi hönkür-hönkür ağlamağa başladım. Ancaq özüm də bilmirdim ki, niyə ağlayıram.

- İvanın ağlamasının səbəbi nə idi?
- Həqiqətənmi, qadın onun səbətdən alma götürdüyünü görməmişdi?
- Mətndə altından xətt çəkilmiş cümlədə hansı söz artıqdır?
- Şəkillə mətn arasında hansı uyğunsuzluq vardır?

"Azərbaycanfilm" kinostudiyasında istehsal olunmuş "Bəxtiyar" filmində belə bir kadr var: 3 dost: Bəxtiyar, Yusif və Saşa Böyük Vətən müharibəsində yaralanan və hospitalda yatan xəstələrin qarşısında konsert proqramı ilə çıxış etməli idilər. Bu görüşə əliboş getmək istəməyən uşaqlar professorun bağından alma oğurlayan zaman bağ sahibi tərəfindən yaxalanırlar. Yusif bu hərəkətlərini təşəbbüs kimi təqdim etsə də, professor bunu "alma oğurluğu" adlandırır. Bəxtiyar düzünü etiraf etməli olur. Professor səmimi etiraf qarşısında özü uşaqlara yardım edir. (İstəsəniz, filmə baxa bilərsiniz.)

13. Hər iki parçanı oxuyun. Müqayisələr aparın. Aşağıdakı suallar ətrafında müzakirələr keçirin.

- ✓ *Oğurluq nədir?*
- ✓ *İnsan nə üçün bu yola düşür?*
- ✓ *"Peçenye oğrusu" mətnindəki qadını, qadının zənbilindən alma oğurlayan oğlanı oğru saymaq olarmı?*
- ✓ *Bəs üç dostun hərəkətini oğurluq saymaq olarmı?*
- ✓ *"Hər böyük faciə kiçik əməldən başlayır" fikrini ya təkzib, ya da təsdiq edin.*

14. Aşağıdakı fikirlərə münasibət bildirin və onları "Peçenye oğrusu" mətni ilə əlaqələndirin. Bu fikirlərlə razısınızmı? Niyə?

Düşüncələrinə diqqət et ki, onlar sənin sözlərinə çevriləcək,
Sözlərinə diqqət et ki, onlar sənin hərəkətlərinə çevriləcək,
Hərəkətlərinə diqqət et ki, onlar sənin xarakterinə çevriləcək,
Xarakterinə diqqət et ki, onlar sənin taleyinə çevriləcək.

(Ö.Xəyyam)

15. Mətndən (səh. 164-165) vasitəli və vasitəsiz nitqə nümunələr göstərin.

16. Dialoqu oxuyun, durğu işarələrini bərpa edin. Fikrinizi əsaslandırın.

Bir nəfər Ömər Xəyyamı xalq içində təhqir etdi
Kafirsən Sərxoşsan
Ona cavab vermədən Xəyyam ancaq gülümsədi.

Bu hadisənin şahidi olan gözəl, bahalı geyimli kişi Sən bu cür təhqirə necə dözürsən Heç incimirsən deyə Xəyyamdan soruşdu

Xəyyam yenə gülümsədi və dedi

Gəl mənimlə gedək

Kişi onun dalınca gedib tozlu bir zirzəmiyə düşür. Xəyyam şamı yandıraraq köhnə sandığın içində nəyi isə axtarmağa başlayır. Sonra köhnə cırıq bir xələt tapıb onu kişiyə atır və deyir

Geyin, bu sənə yaraşar

Kişi xələtə baxaraq hirsləndi

Neynirəm bu cır-cındırı deyərək o, xələti yerə atdı.

Xəyyam dedi

Görürsən, sən cır-cındırı geyinmək istəmədin. Elə mən də bayaq o adamın dediyi təhqiredici sözlərini heç özümə aid etmədim. Təhqirə incimək – bizə atılan cır-cındırı əyninə geymək deməkdir.

Bu fikrə münasibət bildirin.

✓ *Dialoqda məqsəd və intonasiyaya görə cümlənin hansı növlərindən istifadə olunub?*

✓ *Dialoqdakı vasitəsiz nitqli bir neçə cümlənin sxemini qurun.*

17. Vasitəsiz nitqdə buraxılmış durğu işarələrini düzgün müəyyənləşdirin: *Görünür mehriban ailədir deyə Firudin düşündü.*

a) dırnaq, vergül, dırnaq, vergül, tire

b) dırnaq, dırnaq, vergül, tire

c) dırnaq, dırnaq, tire

d) vergül, vergül, tire

e) tire, vergül, vergül, tire

18. “Nəzakətli davranış qaydaları” mövzusunda kiçik mətn yazın. Bunun üçün ilk növbədə plan tərtib edin. Nədən və necə başlayacağınız haqqında düşünün.

KÖRPÜ

Bir zamanlar kiçik bir kənddə bir-birinə qonşu iki qardaş yaşayırdı. Onların böyük bir tarlası var idi. Bir yerdə əkir, bir yerdə becərirdilər.

Günlərin bir günü iki qardaş arasında kiçik bir anlaşılmazlıq baş verdi. İnciklik günbəgün böyüdü və onların ayrılığına səbəb oldu. Onlar hər şeyi bölmək məcburiyyətində qaldılar, hətta əkib-becərdikləri tarlanı da böldülər. Artıq qardaşlar bir-birinin üzünə belə baxmırdılar, çünki onlar danışanda sözləri düz gəlmirdi.

Bir gün böyük qardaş bir usta çağırıb deyir:

– Bu dərənin o tayındakı həyət mənim kiçik qardaşımındır. Keçən həftəyə qədər onun həyəti ilə mənim həyətim arasında bir yol var idi. Amma qardaşım söz-söhbətdən sonra bir dərə qazdırdı. İndi aramızdakı yol dərəyə çevrilib. Ona görə də səni çağırdım ki, aramızda üç metr hündürlükdə bir hasar çəkəsən. İstəyirəm ki, nə onu görüm, nə də onu xatırladan həyət-bacanı. Madam ki o məni görmək istəmir, heç mən də onu görmək istəmirəm.

Usta heç bir söz demədi. Ona lazım olan alətləri götürdü ki, işə başlasın. Ev sahibi alış-verişə getdikdən sonra usta işə başladı və axşama qədər çalışıb işini tamamladı.

Axşam evə dönən qardaş gördüklərinə çaşıb qaldı. Usta hasar əvəzinə, dərəni birləşdirən məhəccərli bir körpü ... (*salmışdı, tikmişdi, ucaltmışdı*). O gah ustaya, gah da körpüyə baxdı.

Böyük qardaş hələ çaşqınlıqdan özünə gəlməmişdi ki, qarşıdan kiçik qardaşının ona sarı gəldiyini gördü:

– Hərçənd haqsızlıq etdim, ancaq sən böyüklük edib mənə əlini uzatdın, – deyə kiçik qardaş böyük qardaşın boynuna sarıldı. Hər ikisi həyəcandan dolmuşdu. Elə hey bir-birlərinə nə isə deyirdilər. Birdən böyük qardaş uzaqlaşan ustanı görüb səsləndi:

– Dayan, getmə, görüləsi çox işlərimiz var. Əgər qalsan, sən də bizə qardaş olarsan.

Usta gülümsəyərək dedi:

– Mən buradakı işimi tamamladım. Getməliyəm, hələ çox tikiləsi körpülər var.

“Füyuzat” jurnalından, 2012-ci il

1. *Dostluq, səmimilik, birlik* sözləri mətn üçün açar söz ola bilərmi? Həmin sözlərin sinonimini tapmağa çalışın.
2. Mətndən frazeoloji birləşmələri seçib sinonim qarşılığını tapın.
3. Bir neçə feil seçin, onları frazeoloji birləşmə ilə əvəz edin.
4. Mətnin ilk iki cümləsində işlənən hansı sözlər bir-birinin antonimi ola bilər?
5. Mətndə nöqtələrin yerinə mötərizədəki hansı söz yazılsa, düzgün olar?
6. Görülən işin müqabilində qardaşlar ustaya razılıq bildirmək üçün hansı sözlərdən istifadə etsələr, məqsədəuyğun olar?

Hər şey üçün minnətdarıq, Sizə borcluyuq, Sizin əl qabiliyyətinizə heyranıq.

7. Uyğunluğu müəyyənləşdirməklə sxemi tamamlayın.

bina	salmaq
şəhər	çəkilmək
hasar	.....
.....	tikmək

8. Mətndən hansı nəticəni əldə etdiniz?

9. Qardaşların ayrılmasına səbəb nə ola bilərdi? Fikrinizi əsaslandırın.

10. Siz qardaşların hərəkətini necə qiymətləndirirsiniz? Həyatda belə hadisə ilə rastlaşmısınızmı?

11. Usta “hələ tikiləcək çox körpülər var” dedikdə nəyi nəzərdə tuturdu?

12. İnsanlar arasında bu körpülər olmasa idi, nələr baş verərdi?

13. Aşağıdakı cümləni Azərbaycan dilinə tərcümə edin. Onu mətnin məzmunu ilə əlaqələndirin. Fikirlərinizi həyati nümunələr gətirməklə əsaslandırın.

Даже когда между людьми пропасть в отношениях, нужно строить мосты, а не заборы.

14. Bitişik, yoxsa ayrı? Düzgün yazın.

- Sirrini dostuna demə, dostunun?da dostu var.
- Ağıl yaş?da deyil, başdadır.
- Həyat?da məqsədə çatmaq üçün güclü olmaq lazım gəlir.
- Həyat?da insanı tərbiyə edir.
- İnsanlar?da güc deyil, iradə çatışmır.
- İnsanlar?da təbiətin övladıdırlar.

✓ *Müdrik fikirlərin hansı mətnin məzmununa uyğun gəlir?*

15. Aşağı sinifdə öyrəndiklərinizi yadınıza salıb mətndə qırmızı rənglə verilmiş sözlərin qrammatik mənasını müəyyənləşdirin. Həmin sözləri təhsil aldığınız tədris dilinə tərcümə edin.

Nümunə:



16. Mətndə altından xətt çəkilmiş cümlələrin mürəkkəb, yoxsa sadə cümlə olması haqqında fikir yürüdün. Mürəkkəb cümlələrin tərəflərini bağlayan vasitələri göstərin.

17. Müzakirə.

Ustanın saldığı körpü mehribanlığın, səmimiliyin, xoş münasibətin, dostluğun rəmzidir.

Sizcə, bu körpülər mehribançılıq, səmimilik, bir-birinə hörmət kimi insani keyfiyyətlərin formalaşmasına səbəb olarmı? Niyə?

Bəzən belə söhbətləri tez-tez eşidirsən: Xarici ölkələrdə filan tikililər var, müasir binalar, klublar və s. var. Dövlət bu gün bu gözəlliyi ölkəmizdə, onun hər bir guşəsində, rayonlarımızda da yaradır. Ölkəmiz gündən-günə gözəlləşir.

Bu gün xarici ölkələrə səfər edərkən adamı heç nə təəccübləndirmir. Çünki bu gün bizdə hər şey var.

Ancaq bu gözəllik bəzən nəyinsə məhv edilməsi hesabına başa gəlir.

18. Hər iki şəklə diqqətlə baxın. Yol çəkilir. Bunun üçün yaşıllığın bir hissəsi məhv edilməlidir.

✓ *Necə bilirsiniz, hansı daha vacibdir? Yaşıllıq, yoxsa gözəllik?*

✓ *Yaşıllıq məhv edilmədən gözəllik yaratmaq olarmı? Təkliflərinizi verin.*

✓ *Dövlətin yaşıllaşdırma sahəsində apardığı işlərə münasibət bildirin.*

✓ *Yaşıllaşdırma işləri aparmaq üçün yaşıdlarınızı səfərbər edin.*

Unutmayaq ki, hərə bir ağac əkərsə, gözəlliyin içərisində yeni bir gözəllik yaradar.

İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. İnsanların sağlamlığına, ekoloji vəziyyətə, udduğumuz havaya, içdiyimiz suya, bütün bunlara biz çox böyük diqqət göstərməliyik.

Ümummilli lider Heydər Əliyev

Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız. Təbiətə zərər vuranlar, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

❑ Tutaq ki, səlahiyyətli şəxssiniz. Müəyyən ərazidə ağacların qanunsuz olaraq kəsildiyinin şahidi olursunuz. Siz hadisəni sənədləşdirmək istəyirsiniz. Bu zaman hansı sənəddən istifadə edərsiniz?

A) məktub B) ərizə C) akt

Akt aşağıdakı ardıcıllıqla tərtib olunur:

1. Akt sözü vərəqin yuxarı hissəsində böyük hərflə yazılır.
2. Akt sözünün altında il, ay, gün və aktın tərtib edildiyi yer göstərilir.
3. Aktı tərtib edənlərin vəzifəsi, soyadı, adı və atasının adı yazılır.
4. Yoxlanılan hadisə haqqında dəqiq məlumat verilir. Burada hadisənin gedişi, materialın qiyməti, kəmiyyəti öz əksini tapır.
5. Yoxlamanın müddəti həm rəqəm, həm də hərflə qeyd olunur.
6. Aktın sonunda nəticə verilir.
7. Aktı tərtib edənlərin imzası aktın sonunda qoyulur.

Akt əməli yazı növüdür. "Akt" latınca "aqtos" sözündən olub *hərəkət, hadisə, cinayət işi* deməkdir.

Hər bir akt təşkilat tərəfindən ayrılmış komissiyanın iştirakı ilə tərtib olunur.

AKT

Bakı şəhəri **08 avqust 2015-ci il**

Biz aşağıda imza edənlər: Sevinc Yusifova, Ələkbər Kərimli, Gültəkin Cəfərova yazıb öz imzamızla təsdiq edirik ki, 17.07.2015-ci il tarixdə deyilən ərazidə olduq. Həqiqətən də, ərazidə aparılan tikinti işləri ilə əlaqədar olaraq 20 ədəd ağacın qanunsuz şəkildə kəsildiyinin şahidi olduq. Bu hal ….№-li Mənzil İstismar Sahəsinin məsuliyyətsizliyi və diqqətsizliyi ucbatından baş vermişdir. Həmin ərazidə tikinti işlərinin dayandırılması və ərazinin yenidən yaşıllaşdırılması üçün MİS-ə tapşırıqlar verilsin.

Aktı tərtib etdilər:

Bələdiyyə idarəsinin şöbə müdiri:	Sevinc Yusifova
Bələdiyyə idarəsinin müfəttişi:	Ələkbər Kərimli
Bələdiyyə üzvü:	Gültəkin Cəfərova

✓ *Hər hansı bir mövzuda akt tərtib edin.*

Əziz şagirdlər!

İl boyu siz müxtəlif mövzulu mətnlərlə tanış oldunuz, həmin mətnlərdən, yəqin ki, özünüz üçün bir nəticə çıxardınız.

Hər bölmənin əvvəlində müxtəlif suallarla qarşılaşdınız, araşdırmalar apardınız, bir sıra problemlərin həlli ilə üzləşdiniz. Hansı bölmə daha çox xoşunuza gəldi və ya gəlmədi? Nə üçün? Bölmələr arasında əlaqə gördünüzmü?

Dərslikdəki mətnlərdən hansı nəticəni çıxardınız? Gəldiyiniz qənaəti 3-4 cümlə ilə ifadə edin.

Fikirlərinizi ümumiləşdirib yoldaşlarınızla bölüşün.

Dərslikdə ixtisarla verilmiş şəxs adları:

A.İsgəndəri – Ataullah İsgəndəri
A.Morua – Andre Morua
A.S.Puşkin – Aleksandr Sergeyeviç Puşkin
A.Səhhət – Abbas Səhhət
B.Franklin – Bencamin Franklin
B.Vahabzadə – Bəxtiyar Vahabzadə
C.Allen – Ceyms Allen
E.Berq – Edmund Berq
Ə.Cəfərzadə – Əzizə Cəfərzadə
Ə.Əbülhəsən – Əbülhəsən Ələkbərzadə
F.Manuil – Fil Manuil
F.Volter – Fransua Volter
H.Cavid – Hüseyn Cavid
H.İbrahimov – Hüseyn İbrahimov
H.Mehdi – Hüseyn Mehdi
H.Seyidbəyli – Həsən Seyidbəyli
X.Rza – Xəlil Rza Ulutürk
İ.Barrou – İsaak Barrou
İ.Kant – İmmanuil Kant
J.Lafonten – Jan de Lafonten
K.Helvetsi – Klod Helvetsi
K.Uşinski – Konstantin Uşinski
L.N.Tolstoy – Lev Nikolayeviç Tolstoy
M.Abdullayev – Mikayıl Abdullayev
M.F.Axundzadə – Mirzə Fətəli Axundzadə
N.Gəncəvi – Nizami Gəncəvi
N.Tusi – Nəsirəddin Tusi
O.Balzak – Onere de Balzak
P.Buast – Pyer Buast
R.Rollan – Roman Rollan
S.Conson – Samuel Conson
S.Dağlı – Seyfəddin Dağlı
S.Ə.Şirvani – Seyid Əzim Şirvani
S.Rüstəmxanlı – Sabir Rüstəmxanlı
S.Vurğun – Səməd Vurğun
Ş.Nəzirli – Şəmistan Nəzirli
T.Parker – Teodor Parker
Ü.Hacıbəyli – Üzeyir Hacıbəyli
B.Ellis – Bret Ellis
V.Şekspir – Vilyam Şekspir
Y.Əzimzadə – Yusif Əzimzadə
Y.Rozen – Yeqor Rozen

ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

1. Verilmiş tabeli mürəkkəb cümlələri sadə cümlələrə çevirib yazın.

   1. Cavid çox sevinirdi, çünki uzun ayrılıqdan sonra doğma şəhərinə dönmüşdü.
   2. Arzum budur ki, bütün körpələr sağlam və xoşbəxt böyüsün.
   3. İnanırıq ki, bayrağımız tezliklə Qarabağda dalğalanacaq.
   4. Hərçənd ki qışın ortaları idi, amma qardan əsər-əlamət yox idi.
   5. Hamıya məlumdur ki, Azərbaycan qədim insanların ilk məskənlərindən biridir.

2. Vasitəsiz nitqdə buraxılmış durğu işarələrinin düzgün ardıcıllığı hansı variantda göstərilmişdir?

   Sağ olun usta başa düşdüm deyə gənc oğlan razılıq etdi.

   A) dırnaq, vergül, vergül, dırnaq, vergül, tire

   B) dırnaq, vergül, dırnaq, vergül, tire

   C) tire, vergül, vergül, tire

   D) dırnaq, vergül, tire, dırnaq, tire

   E) tire, vergül, vergül, tire

3. *Vaxt qızıldır* ifadəsi ilk dəfə Amerika alimi və siyasi xadimi Bencamin Franklinin *Gənc tacirə məsləhət* adlı əsərində işlədilmişdir cümləsində buraxılmış durğu işarələrini bərpa edin.

4. Mətni oxuyub qarşısına ulduz işarəsi qoyulmuş tapşırıqları yerinə yetirin.

   Günlərin bir günü Aristotelə iki sual verirlər. Birinci sual belə olur:

   – Siz insanların hansı hərəkətlərindən təəccüblənirsiniz?

   Aristotel bir-bir sadalayır:

   – Uşaq olanda darıxırlar, böyümək üçün [ ]. Ancaq sonradan da uşaqlıq dövrünün xiffətini [ ].

   – Pul qazanmaq üçün sağlamlıqlarını [ ]. Sonra sağalmaq üçün pul [ ].

   – Gələcək necə olacaq deyə narahatlıq [ ] və bu günü unudurlar. Nəticədə nə bu günü, nə də gələcəyi normal [ ].

   – Elə yaşayırlar ki, elə bil heç [ ]. Elə ölürlər ki, elə bil heç yaşamayıblar.

   Növbə ikinci suala çatır:

Yaxşı bəs siz nə məsləhət verərdiniz

Aristotel yenə sadalayır:

– Özünüzü kiminsə gözündə ucaltmağa çalışmayın. Sadəcə, imkan verin ki, sizi sevsinlər, əziz tutsunlar. Ən vacib olan həyatda çox şeyə sahib olmaq deyil, az şeyə ehtiyac duymaqdır.

* Boşluqların yerinə aşağıdakı feilləri uyğun formada işlədərək elə artırın ki, mətnin məzmununa xələl gəlməsin.

Yaşamaq, itirmək, çəkmək, keçirmək, tələsmək, xərcləmək, ölməmək

* Çərçivəyə alınmış cümlədə durğu işarələrini bərpa edin. Fikrinizi əsaslandırın.

* Sonuncu abzası tərcümə edin.

5. Mətndə altından xətt çəkilmiş cümləni aşağıdakı cədvələ əsasən təhlil edin.

quruluşu	
növü	
sxemi	

6. Mühakimələri oxuyub gəldiyiniz nəticəni yazın.

Üç şeyi heç vaxt geri qaytarmaq mümkün deyil:
– Zamanı, deyilmiş sözü, imkanı.
Üç şeyi itirmək olmaz:
– Təmkini, ümidi, vicdanı.
Üç şey həyatda daha dəyərlidir:
– Sevgi, ailə, dostluq.
Üç şey insanın kimliyini göstərir:
– Zəhmət, düzgünlük, müvəffəqiyyət.
Üç şey insanı məhv edir:
– İçki, qürur, kin.
Üç şeyi demək daha çətindir:
– Mən səni sevirəm. Bağışla. Mənə yardım et.

7. Cümlələrdən biri fərqlidir.

A) Xeyli vaxt idi ki, Sabir xəstə yatırdı.

B) Deyilənə görə, Bakı qalasında əsaslı arxeoloji tədqiqat işləri ilk dəfə olaraq 1920-ci ildə başlamışdır.

C) Zivərbəyin istedadlı memar kimi yetişməsi təsadüfi deyildi.

D) Ağa Məhəmməd şah Qacarın orduları hücuma keçsə də, qalanın alınmaz olduğunu görüb geri çəkilirlər.

E) O danışmırdı və mən də heç nə soruşmurdum.

8. Verilmiş cümləni təhsil aldığınız tədris dilinə tərcümə edin.

1807-ci ildə mühəndis mayor X.İ.Truzsonun yerli planına əsasən, İçərişəhərin şimal hissəsində qaladan 200 sajen məsafədə, dəniz sahilində ulduzşəkilli qalanın qurulması təklif olundu.

_____

_____

_____

_____

_____

_____

9. Uyğunluğu müəyyən edin:

1	Həyat təcrübəsi göstərir ki, insanlar bir-birindən daha çox asılı olacaqlar.	Fikri aydınlaşdırmağa xidmət edir.
2	Mən gülümsədim, çünki onun pərt olmasını istəmirdim.	Hərəkətin səbəbini bildirir.
3	Əgər işlər yaxşı getsə, sabaha hər şey bitəcək.	Fikri bölüşdürməyə xidmət edir.
4	Ya hər şeyə aydınlıq gətirməli idi, ya da çıxıb getməli idi.	Şərt məqsədilə işlədilir.

10. Krossvordu həll etməklə cədvəldəki müdrik sözü oxuyun.

Yuxarıdan aşağı:

1. “Трещина” sözünün Azərbaycan dilində qarşılığı
2. “Özünə arzulamadığını başqalarına da etmə” – aforizminin müəllifi
3. Məsciddə molla, kilsədə keşiş, monastırda ..... ?
6. Şərt bağlayıcılarından biri.
7. İran şahı Müzəffərəddinin Əbdülbağı Zülalovu mükafatlandırdığı medal – “...-xurşid”.



Soldan sağa:

1. Fermerin bataqlıqdan xilas etdiyi uşağın soyadı.
2. Küsülü qardaşları barışdırmaq üçün uzaqgörən usta nə tikir?
4. Meri Larkovski hansı xəstəlikdən əziyyət çəkirdi?
5. Muğamlardan biri.
6. Mehmana ana nəsihəti verən müəllim.
8. “Peçenye oğrusu” mətninin müəllifi – … Koks
9. Əlifbanın sonuncu hərfi.
10. Məqbərəsi tapılmış Çin hökmdarının adı.

* İşarələrin yerinə uyğun hərfləri bərpa etməklə verilmiş aforizmi oxuyun.



Vinston Çörçil

İZAHLI TƏRCÜMƏ LÜĞƏTİNƏ DAİR NÜMUNƏ

Sözlər	Leksik mənası	Qramma-tik mənası	Təhsil aldığınız tədris dilinə tərcüməsi
aqil	ağıllı, müdrik	sifət	
arşın	qədimdə işlədilən uzunluq ölçüsü (0,71 metrə bərabər)	isim	
asılılıq	sərbəstliyin, müstəqilliyin olma-ması	isim	
bəhrələnmək	faydalanmaq, istifadə etmək	feil	
carçı	uca səslə bir xəbəri camaata elan edən, bildirən	isim	
cazibədar	məlahətli, gözəl, cəlbedici	sifət	
cığır	ensiz, dar yol	isim	
dərhal	o saat, tez, əlüstü, gecikmədən	zərf	
diri-diri	ölməmiş	zərf	
düşər-düş-məz(*i olar*)	nəyinsə uğur və ya uğursuzluq gətirməsinə olan inam	isim	
ehtiramla	hörmətlə, hörmət və nəzakət qaydalarını gözləyərək	zərf	
ərsəyə gətirmək	müstəqil həyat sürməyə başlamaq, böyütmək	feil	
əsasən		qoşma	
fərdi	bir fərdi başqalarından fərqlən-dirən şəxsi xüsusiyyətlər	sifət	
funksional	bir şeyin quruluşundan deyil, fəaliyyətindən asılı olan	sifət	
hamı	bütün adamlar	əvəzlik	
həmçinin		bağlayıcı	
hərgah		bağlayıcı	
hərçənd		bağlayıcı	
hövlnak	qorxu içərisində, dəhşətlə	zərf	
xeyli	olduqca çox, çoxlu, bir çox	say, zərf	
xəta	səhv, yanlış	isim	
iddia etmək	tələb etmək, istəmək	feil	
qərargah	bir işə rəhbərlik edən orqan	isim	

qor	ocaq və ya təndirdə odun yandırdıqdan sonra qalan xırda od parçaları	isim	
layihə	tikiləcək, qurulacaq bir şeyin əvvəlcədən düşünülmüş planı	isim	
lakonik	qısa, yığcam	sifət	
maarifçi	xalq arasında maarifi, mədəniyyəti yayan, xalqı savadlandıran	isim	
meyar	ölçü	isim	
məsamə	maddənin hissəcikləri arasındakı boşluq, ara	isim	
məskunlaşmaq	yerləşmək, yurd-yuva salmaq	feil	
məşvərət	bir məsələni həll etmək üçün yığılıb danışma, məsləhətləşmə	isim	
məqbərə	qəbirlərin üstündə xüsusi tikili, türbə, mavzoley	isim	
möhtəşəm	öz əzəməti, böyüklüyü ilə insanı valeh edən	sifət	
mübadilə	dəyişmə; bir şey verib əvəzinə başqa bir şey alma	isim	
müntəzəm	ardıcıllıqla, sistematik	zərf	
nəhayət		modal söz	
nəzakət	tərbiyə, mərifət, ədəb qaydaları	isim	
niyyət	məqsəd, məram	isim	
təcəssüm etmək	görünmək, canlanmaq, əks olunmaq	feil	
təşəkkül	inkişaf prosesində formalaşma	isim	
sıldırım	dik və uca dağ	sifət	
uçmaq	1) havada hərəkət etmək; 2) qopmaq, sökülüb dağılmaq	feil	
üslub	üsulların məcmusu, üsul	isim	
vestibül	böyük binaların daxili girəcəyində böyük dəhliz, geniş eyvan	isim	
vəsf etmək	Təfərrüatı ilə, olduğu kimi göstərmək, təsvir etmək	feil	
yamac	dağın, təpənin ən yüksək nöqtəsindən aşağıya meyilli səthi	isim	
zaval	ziyan, zərər, təbii fəlakət	isim	

Dərslikdə istifadə olunan sözlərin izahlı lüğəti

A

abadlaşdırmaq – bir yeri abad etmək, yaxşılaşdırmaq, yaşayış üçün lazım olan hər cür şəraitlə təmin etmək, gözəl və mədəni hala salmaq

abadlıq – *bax*: abadlaşdırmaq

ad-san – nüfuz, hörmət, yaxşı ad

axirət dünyası – dini etiqadlara görə, insanların öldükdən sonra düşəcəyi ikinci və əbədi dünya

altun – qızıl

analoq – hadisələr, məfhumlar arasında oxşarlıq, bənzərlik, uyğunluq ayin(lər) – dini məzmunlu mərasim; ibadət. *Burada*: qayda, qanun, adət, üsul

B

babalını (boynuna) götürmək – günahını, məsuliyyətini götürmək

bais olmaq – səbəb olmaq

bədəsil – əsli pis, zatı pis, əsilsiz, nəcabətsiz

bəhrələnmək – faydalanmaq, istifadə etmək, xeyir götürmək

bənna – binanın daş, kərpic hissəsini tikən usta

bəşəriyyət – aləm, insanlar, insanlıq

bir sıxma – bir çimdik, bir atım

bitkin – tam halda olan; yetişmiş, kamil, mükəmməl

boyakarlıq – boya ilə şəkil çəkmə sənəti; rəngkarlıq

bukrani – əsasən, yunan-Roma incəsənətinə xas olan, eramızdan əvvəl və İntibah dövründə ən çox işlənən, öküz başı şəklində relyefli dekorativ ornament

C

cəngavər – cəsarətli, mahir döyüşçü, yaxşı vuruşan: döyüşkən

cır-cındır – dağılmış, süzülmüş, cındır-cındır olmuş paltar və s.; əsgi-üsgü

cilovlaya bilməmək – (*məc.*) saxlaya bilməmək, ram edə bilməmək

comərdlik – mərdlik, nəciblik, alicənablıq; səxavətlilik, əliaçıqlıq

cövhər – burada: qayə, əsl mətləb, bir şeyin əsas mənası

Ç

çat – yarıq, yer qabığında aralanmış nazik yarıq, torpağın yarılmış hissəsi

çeşmək – eynək, gözlük

çöhrə(dən) – üz, surət, sima

D

darğa – şəhər, qəza, mahal və ya vilayət hakimi

darvaza – əsasən, nəqliyyatın keçməsi üçün böyük həyət qapısı; alaqapı

Daun sindromu – irsi xəstəlikdir. Onun əsas səbəbi insanda normal 46 xromosom əvəzinə 47 xromosomun olmasıdır. Belə uşaqlarda intellektual inkişafda geriqal-

malar müşahidə olunur. Bu xəstələr irqindən asılı olmayaraq, dünyanın hər yerində bir-birinə oxşayırlar.

dəllal – alverdə alanla satan arasında vasitəçilik edən şəxs; aradüzəldən

dərk etmək – anlamaq, başa düşmək, öz düşüncəsi ilə qavramaq

dəyər – *burada*: qiymət, əhəmiyyət, keyfiyyət

dolama – dümdüz olmayan, əyri-üyrü, dolanbac

doluxsunmaq – bir şeydən mütəəssir olaraq gözlərinə yaş dolmaq; ağlamsınmaq, ağlamağı gəlmək

dülgər, xarrat – ağac və taxtadan müxtəlif əşyalar (qapı, pəncərə) düzəldən usta, doğramaçı

dürdanə – inci, mirvari. *Burada*: əziz, istəkli, sevimli, qiymətli

E

ehtiramla – tərəddüdsüz, sarsılmaz hörmətlə, hörmət və nəzakət qaydalarını gözləyərək

etibar – bir şəxsin sədaqətinə, səmimiyyətinə, düzgünlüyünə inam, etimad və bunlara əsaslanan münasibət

etibarən – başlayaraq

etiraf (etmək) – öz qüsur və nöqsanını, günahını inkar etməyib qəbul etmə, boynuna alma

Ə

əbədiyyət – əbədilik, daimilik, həmişəlik var olan şey; sonsuz gələcək zaman

əda (ilə) – *burada*: təşəxxüs(lə), təkəbbür(lə)

əhvali-ruhiyyə – hal-əhval, ruhi vəziyyət

əlbəsə (əlbisə) – libas, paltar

əməli – praktiki; yalnız sözlə deyil, işlə, əməllə olan

ənam(lar) – bəxşiş(lər), hədiyyə(lər), mükafat(lar)

əsil-nəsəb – nəsil, soykökü, mənşə

əsir – 1) müharibədə ələ keçirilən düşmən əsgəri, zabiti və s.; 2) kölə, qul, məhkum

əsr – 1) 100 illik dövr; 2) dövr, zaman, vaxt, çağ; 3) axşamüstü

əta etmək (olunur) – bağışlanır

əvət (türk) – bəli

əyan(lar) – *burada*: zadəgan(lar)

əzəli – zamanca başlanğıcı, ibtidası olmayan, əbədi

F

fələk – tale, qismət, bəxt, iqbal

fəryad (fəryadla) – acı-acı bağırma, nalə, fəğan, ah-nalə

fəsad – qarışıqlıq, fitnə, intriqa

fəth (*məs.*: qalanın fəthi) – bir şəhər, ölkə və ya qalanın silah gücünə alınması, zəbt olunması

forştadt – bayır-şəhər (şəhərətrafı)

G

gerçək – doğru, düz, həqiqi
gərdiş(i) dövran – burada: dövran, zaman, gediş
gildir-gildir – damcı-damcı, gilə-gilə
günbəz – yarımdairə şəklində bina damı (tavanı); qübbə

H

haqq – 1) doğru, düz, həqiqi; 2) hüquq, ixtiyar; 3) Allah, Tanrı
halal – zəhmətlə, namusla, qanuni yolla əldə edilmiş, qazanılmış
haman – 1) o, özü; 2) dərhal, o saat, tez
haram – halalın əksi
hasar – daşdan, kərpicdən və s. tikilən hasar, barı, sədd
hayqırtı(sı) – çığırtı, bağırtı, qışqırıq, hay-küy
hədər olmaq – əbəs yerə sərf olunmaq, boş-boşuna, əbəs olmaq; faydasız olmaq
hədsiz – sonsuz
həkdən salmaq – heydən, haldan salmaq
həqarət – hörmətsizlik, təhqir; alçaldıcı, mənliyə toxunan söz və hərəkət
həlim – xasiyyətcə, təbiətcə yumşaq; sakit, dinc. Burada: xoşagələn, ürəyəyatan, qulağa xoş gələn (səs haqqında)
həmkarlar(ına) – biri ilə bir yerdə, bir sənətdə, bir peşədə işləyən adam; iş, sənət, ixtisas yoldaşı
hərarət – istilik; qızdırma. Burada: mehribanlıq, istiqanlılıq, xoş hislər
hərçənd – bir cümləni ona zidd olan və ya onu aydınlaşdıran başqa cümlə ilə qarşılaşdıran bağlayıcı
həsir – ağac liflərindən, küləşdən, qamışdan toxunan məmulat
həsr (etmək) – yalnız bir işə, bir şəxsə və s. aid etmək, ona sərf etmək
hıçqırıq(larından) – səsini içinə alıb ağlarkən boğazdan çıxan qırıq-qırıq səslər; hıçqırtı
himayə – birini (daha zəif olanı) qoruma, ona havadarlıq və qayğı göstərmə, havadarlıq
hökmən – mütləq, necə olursa-olsun, hələm-həlbət
hövlnak – hal içində, vahiməli, dəhşətli qorxu içərisində
hüsn – gözəllik, camal
hüzurunuza – yanınıza, qarşınıza

X

xanədan – qohumluq və ya vərəsəlik hüququna əsasən taxtda ardıcıl surətdə bir-birini əvəz edən hökmdarlar sülaləsi
xəcalət – utanılacaq hal, utanma, başıaşağı olma
xəcalət çəkmək – çox utanmaq, çox sıxılmaq, həya etmək, utanıb-qızarmaq
xəcil (etmək) – xəcalətli, üzüqara (edən), utandıran, başını aşağı edən
xərac – vergi, bac
xəta – səhv, yanlışlıq, qələt

xilaskar – təhlükədən, ölümdən xilas edən; xilasedici, qurtarıcı
xitab etmək – müraciət etmək, üzünü tutaraq söz demək
xurcun – içərisinə şey qoymaq üçün, adətən, yük və minik heyvanlarının belindən aşırılan, palaz kimi toxunan, ya da cod parçadan tikilən ikigözlü iri torba

İ

iffət – saflıq, təmizlik, namus, həya, əxlaq
ixtiyarsız – özündən asılı olmayaraq; özü istəmədən; qeyri-iradi
ildönümü – hər hansı bir tarixi və b. hadisədən daha bir il keçdiyini göstərən gün
imarət – böyük və qəşəng bina, ev; mülk, tikili
inildəmək – bərk ağrı, əziyyət, ruhi iztirab və s. nəticəsində yavaşca zarımaq, sızıldamaq, ağlar kimi həzin səs çıxarmaq
intizam – nizam və qayda, səliqə; qayda-qanuna riayət etmə
istehkam(lar) – düşməndən qorunmaq məqsədilə düzəldilən səngər, sədd, qala, divar və s. tipli müdafiə tikililəri
ittifaqda yaşamaq – burada: birgə yaşamaq, sülh və əmin-amanlıqla yaşamaq
ittifaqla – lütfkarlıqla, mərhəmətlə, hörmətlə, gülər üzlə, xoş sözlə
iztirab – daxili həyəcan, mənəvi əziyyət, nigarançılıq, təşviş

K

kamil – mükəmməl, nöqsansız, yetkin, qüsursuz
kandar – qapı ağzı, astana
kəsir – nöqsan, çatışmazlıq; zərər, ziyan; əgər-əskik, naqislik, natamamlıq
kəsr – (riyaz.) vahidin müəyyən hissəsini göstərən ədəd
kor-koranə – düşünmədən, bilmədən, fikirləşmədən, görmədən
köks ötürmək – fikirdən, qüssə-qəmdən və s. hislərin təsirindən dərindən nəfəs almaq
kölələr – qullar (hər bir hüquq və mülkiyyətdən məhrum adamlar)
küp – sarı palçıqdan, gildən düzəldilən iri saxsı qab
kürək-kürəyə – bir-birinə arxalanaraq, kömək edərək, əl-ələ verərək

Q

qane etməmək – razı etməmək, kifayətləndirməmək, inandırmamaq, təmin etməmək
qanqallıq – yarpağı tikanlı alaq bitkisi
qasid – xəbər və ya məktub aparıb-gətirən adam; elçi, çapar
qeybdən – yoxdan, gözəgörünməz bir yerdən; məchul və naməlum, bilinməz yerdən
qeyzlə – qəzəblə, hiddətlə, acıqla
qəbz – bir şeyin alınması və ya qəbul olunması haqqında verilən kağız, sənəd
qəfildən – birdən-birə, gözlənilmədən, xəbərsiz, birdən
qəlbinə işləmək – (*məc.*) çox təsir etmək, qəlbinə toxunmaq
qəlib – şablon, əyar, ülgü

qənaətə gəlmək – qəti fikrə, nəticəyə gəlmək, yəqin etmək
qərq etmək – batırmaq (suda); (*məc.*) məhv etmək; batırmaq
qəryə – kənd
qəti – *burada*: tam yəqinliklə, möhkəm surətdə, tərəddüdsüz, sarsılmaz
qın – 1) xəncər, qılınc və s. kəsici silahları qoymaq üçün qab; 2) (*məc.*) qınına çəkilmək, gizlənmək, özünü göstərməmək, heç bir işə qarışmamaq
qibleyi-aləm – müsəlman Şərqində hökmdara müraciət forması
qotika – Qərbi Avropada orta əsr memarlıq üslubu
qovurğa – qovrulmuş buğda, düyü, darı və s. dənələri
qüdrət – böyük qüvvət, güc; möhkəmlik, iradə; fitrət
qürbət – yad ölkədə, vətəndən uzaqda olma, qəriblik
qüsur – eyib, nöqsan, çatışmazlıq

L

leysan – aprel ayında yağan yağış, (*məc.*) çox güclü yağış
leytmotiv – əsərin ana xəttini təşkil edən əsas fikir
ləl-cəvahirat – qiymətli daş-qaş, cəvahirat
ləyaqət – insanda yüksək mənəvi keyfiyyət, öz dəyərini dərk etməkdən yaranan daxili ehtiram hissi

M

mahir – bacarıqlı, məharətli, işini bilən, usta
malikanə(lər) – mülkədar mülkü, mülkədara məxsus ev və ona yapışıq bağça, bağ və s.
maya – burada: rüşeym, döl
məbəd – ibadətgah. *Burada*: dərin hörmət bəslənilən yer
məcburiyyətində (olmaq) – zorla, məcbur olaraq, könülsüz
məftunluq – heyranlıq, vurğunluq, valehlik
məğlubedilməz – yenilməz, məğlub olmayan, həmişə qalib gələn, basılmaz
məhəccərli – məhəccəri olan; sürahili, barmaqlıqlı
məhrum – nəsibli, hissəsi, payı olmayan; nəsibsiz
məqam – 1) yer, məkan; 2) vaxt, zaman; 3) vəzifə, mənsəb, rütbə; 4) hal, vəziyyət
məqam(ı) – burada: zaman(ı), vaxt(ı)
məqsədəuyğun – məqsədə, niyyətə, arzuya cavab verən, münasib olan
məlih – məlahətli, xoşagələn, şirin, duzlu
məmnun olmaq – razı qalmaq, xoşhal olmaq
mənən – mənəvi cəhətdən, ruhən
mənəviyyat – insanın mənəvi keyfiyyətləri, normaları; yüksək əxlaq
mərdanə – igidcəsinə, qorxmadan, qəhrəmancasına
mərhum – ölmüş, vəfat etmiş, rəhmətə getmiş

məruz qalmaq – tutulmaq, düçar olmaq, uğramaq, düşmək
məsxərə – lağa qoyma, istehza, ələ salma
məskunlaşmış – hansısa ərazidə yerləşmiş, sakin olmuş (əhali)
məsul şəxs – bir işə görə cavabdeh olan, məsuliyyət daşıyan şəxs
məsum – günahsız; heç bir günahı, qəbahəti olmayan
məşvərət – bir məsələni həll etmək üçün yığışıb danışma, müzakirə etmə, məsləhətləşmə
mətin – 1) bərk, möhkəm; 2) mətanətli, dönməz, etibarlı, sarsılmaz
mətn – 1) yazılmış və ya çap edilmiş halda olan hər cür nitq; 2) ədəbi əsərin və ya musiqinin sözləri, yazısı
minnət – özünü borclu bilmə
minnətsiz (çörək) – burada: heç kimə qarşı özünü borclu hiss etmədən, halal zəhmətlə qazanılan çörək
miras – ölən adamdan sonra varislərə qalan mal, mülk və s. *Burada*: varisliklə gələcək nəsillərə ötürülən keçmiş adət və ənənələr
monastır – rahib və rahibələrin torpaq və kapitala malik kilsə-təsərrüfat təşkilatından ibarət dini icması
mötəbər – *burada*: tanınmış, məşhur, hörmətli, nüfuzlu
müddəa – bir şeyə əsaslanaraq irəli sürülən fikir, iddia, tezis
müdrik – çox ağıllı, dərrakəli, aqil, dünyagörmüş, dərin hikmət sahibi olan
müəllif – ədəbi, bədii, elmi və s. əsər yazan və ya tərtib edən adam; layihə, ixtira sahibi olan adam
müftə – pulsuz, havayı
mühafizə – hücumdan, təhlükədən, zərbədən, qəsddən və s. qoruma, saxlama
mühakimə – bir şey haqqında fikir, mülahizə yürütmə
mühasib – buxalter
mükəmməl – heç bir qüsuru, kəsiri, nöqsanı olmayan, kəm-kəsirsiz, tam, əla
müqabilində – əvəzində, qarşılığında
müntəzəm olaraq – düzgün və ardıcıl, sistematik, daimi olaraq, sistemli olaraq
mürüvvət (mürvət) – rəhm, insaf, mərhəmət, insanlıq
müşahidə etmək – 1) diqqətlə baxmaq, göz qoymaq, seyr etmək;
mütəəssir (olmaq) – bir hal və vəziyyətin təsiri altında dəyişilmiş, qüssələnmiş, dərdlənmiş, təsirlənmiş (olmaq)
müvəffəq olmaq – nail olmaq, əldə etmək, məqsədinə çatmaq, istəyinə nail olmaq
müyəssər olan – mümkün olan, imkan daxilində olan, əldə edilə bilən; nəsib olan

N

nabələd – bələd olmayan, tanımayan, başqa yerdən gəlmiş
natamam – burada: qüsurlu, nöqsanlı, kəsirli
nər – burada: güclü, qüvvətli, igid
numizmatika – qədim sikkə və medalları toplayıb tədqiq edən elm

O

opponent(lər) – burada: dissertasiya müdafiəsində, elmi disputda çıxış etmək üçün qabaqcadan təyin olunmuş şəxs (alim)

Ö

önəmlisi – əhəmiyyətlisi, faydalısı, xeyirlisi

özünü sındırmamaq – özünü pərt olmamış, məyus olmamış kimi, xətrinə dəyməmiş kimi göstərmək

P

paleontologiya – qazıntılar nəticəsində tapılan nəsli kəsilmiş ən qədim heyvan və bitkilərin tədqiqi ilə məşğul olan elm sahəsi

peşman – öz səhvini və ya nöqsanını başa düşərək buna təəssüflənmə

pəki (türk) – yaxşı

pərakəndə – nizamsız, qarmaqarışıq, dağınıq

pərən-pərən (salmaq) – burada: ayrılmaq, dağıtmaq, bir-birindən ayrı salmaq

pərəstiş – burada: məftunluq, həddindən artıq vurğunluq, məhəbbət

pişvazına (çıxmaq) – gələn adamı qarşılamaq, qarşısına çıxmaq

portmanat – pulqabı, pul kisəsi

R

rahib – monastırda yaşayıb rahibliyə girən şəxs (saçkəsdirmə mərasimindən keçərək monastır nizamnaməsinin tələblərinə uyğun olaraq tərki-dünya həyat keçirməyi əhd etmiş şəxs, kişi)

rəmz – bir fikri və ya anlayışı ifadə edən rəsm, şəkil, hərf və s. işarə

rəşadət – igidlik, qoçaqlıq, qəhrəmanlıq

rəvac (vermək) – irəli aparmaq, inkişaf etdirmək, irəliləmək

rica etmək – xahiş etmək, yalvarmaq

riqqətə gətirmək – təsirləndirmək, mütəəssir etmək, hissiyyatlandırmaq

ruh – insanın psixi aləmi, onun hiss və duyğuları, əhvali-ruhiyyəsi

rüsxət (vermək) – icazə, izin (vermək)

rüsvay (etmək) – biabır etmək, abırdan salmaq, adını ləkələmək

S

sadiq – sədaqətli; vəfalı

sajın – metr sisteminin tətbiqindən əvvəl işlənmiş, 2,16 m-ə bərabər uzunluq ölçüsü

sarmaşmış – bir şeyin ətrafına dolaşmış, sarılmış

sarsılmaq (sarsıtdı) – kədərli xəbərdən, hadisədən böyük həyəcan keçirmək, sarsıntı keçirmək

saymazyana – etinasızlıq göstərərək, saymazlıqla, vecinə almadan

səhəng – su daşımaq üçün misdən və ya gildən düzəldilmiş qulplu, qarınlı, darboğaz qab

səlahiyyət – vəzifəsinə görə bir işə qarışmağa, bir işi görməyə ixtiyarı, hüququ olma
sənəd – 1) bir şeyi, faktı təsdiq, bir şeyə olan hüququ sübut edən rəsmi kağız; 2) şəxsiyyəti təsdiq edən vəsiqə
sənət – sahibindən müəyyən hazırlıq tələb edən və yaşaması üçün əsas mənbə sayılan əmək fəaliyyətinin bir növü; peşə, iş, məşğuliyyət, incəsənətin qollarından biri
sərdabə – bir və ya bir neçə ölünün basdırıldığı üstü tikili qəbir; məqbərə
sərkərdə – böyük qoşun birləşmələrinin başçısı; komandan
sığınacaq – daldalanmağa yararlı yer, daldanacaq, sığınacaq. Bombadan, güllədən, yağışdan-seldən qorunmaq üçün xüsusi düzəldilmiş yer
sınamaq – yoxlamaq; təcrübədən, sınaqdan keçirmək
sıyrılmaq – burada: canını qurtarmaq
sidqlə – səmimiyyətlə, ürəkdən
silə – 1) qovuşma, əlaqə; 2) ağzına qədər dolu olmayan
süfrə – 1) yemək masasının üstünə, yaxud yerə salınan xüsusi parçadan tikilmiş örtük; 2) yemək, xörək; süfrə üstünə düzülmüş yeməklər
sürfə – həşəratların, cücülərin və s. ilk inkişaf mərhələlərindən biri; pupun ilk inkişaf dövrü
süvari – ata minmiş, atlı; atlı əsgər

Ş

şahid – 1) bir hadisəni, əhvalatı, işi öz gözü ilə görmüş və ya görən adam; 2) özünə məlum olan bir iş haqqında şəhadət vermək üçün məhkəməyə çağırılan şəxs
şəbəkə – toraoxşar, toru xatırladan ornament, naxış, hörgü
şəhadət barmağı – baş barmaqla orta barmaq arasındakı barmaq
şəhadətnamə – bir şeyi təsdiq edən, bir şeyə icazə verən sənəd, rəsmi kağız; vəsiqə
şəhid – yüksək amal, məslək, əqidə yolunda ölən, həlak olan, canını fəda edən adam
şəxsiyyət – öz xarakteri, əxlaqı, cəmiyyətdə mövqeyi və s. baxımından seçilən insan, şəxs, sima; burada: bir şəxsə xas olub onun fərdiyyətini müəyyən edən xüsusiyyətlərin məcmusu
şərəf – mənəvi yüksəklik, heysiyyət, namus, mənəvi saflıq; ehtiram, sayğı, hörmət
şəvə kimi – zil qara, qapqara
şovinistlər – qatı millətçi, başqa millətləri sevməyən, qəbul etməyən
şölə – alov, parıltı, işıltı, şəfəq

T

taqət – güc, qüvvət, hal
tavan – binanın daxilinin üst örtüsü
təcavüz – *burada*: hücum, həmlə, basqın, zəbtetmə
təcəssüm – bir şeyin maddi, cismani ifadəsi, təzahürü
tədqiqat (işləri) – bir şeyi öyrənmək məqsədilə aparılan dəqiq elmi araşdırma

təəssüf – heyifsilənmə, kədərlənmə, acıma
təfəkkür – ağıl, idrak, düşüncə
təhqir etmək – mənliyinə toxunmaq, şərəfsiz etmək, alçaltmaq
təxəyyül – xəyal, xəyala qapılma; yaradıcılıq fantaziyası
təkzib (etmək) – yalan olduğunu, doğru olmadığını sübut etmək, elan etmək, bildirmək
təqdimat – yuxarı təşkilatlara yazılı məlumat, müraciət, bəyanat
təqlid etmək – başqasını təkrarlamaq, özünü kiməsə oxşatmaq, yamsılamaq
tələffüz – hərf, söz və kəlmələri düzgün söyləmək, demək
təlim-tədris – burada: öyrətmə, dərs vermə, oxutma
təməl – 1) bünövrə, özül; 2) bir şeyin əsası, kökü
təmənnasız – özünə mənfəət, xeyir güdmədən
təmkinlə – vüqarla, ciddi surətdə, öz halını pozmadan
təsbit (etmək) – əvvəl deyilmiş bir sözün, fikrin düzgünlüyünü təsdiq etmə, qəbul etmə, sabitləşdirmə
təşəkkül – inkişaf nəticəsində müəyyən xüsusiyyət və şəkil alma; formalaşma
təvazökar – özünü sadə aparan, şöhrətpərəstlikdən, lovğalıqdan uzaq olan
təyinat(la) – kurs, məktəb və s. qurtarmış mütəxəssisləri müəyyən yerlərə işə təyin etmə, göndərmə
töhfə(lər) – hədiyyələr, bəxşişlər, paylar
tövsiyə – məsləhət, göstəriş, tapşırıq
türbə – burada: məqbərə, mavzoley

U

ummaq – bir şeyi könlündən keçirmək, ürəyində tutmaq, olmasını istəmək, arzu etmək

Ü

ümmət – 1) xalq, camaat; 2) bir peyğəmbərə inanan adamlar, xalq, camaat
ünsiyyət – 1) qarşılıqlı münasibət, əlaqə, yaxınlıq; 2) əlaqə, rabitə; 3) xoş münasibət, mehribanlıq, yaxınlıq

V

vahiməyə düşmək – qorxuya düşmək, təşvişə düşüb narahat olmaq, dəhşətə gəlmək
vaqif olmaq – xəbərdar olmaq, bilmək
vandalizm – mədəniyyət əsərlərini, abidələrini, toxunulmaz sayılan yerləri vəhşicəsinə dağıtma, məhv etmə; vəhşilik
var-gəl edərək – gəzinərək, o başa-bu başa gedərək
vəfalı – dostluğunda, məhəbbətində sadiq, möhkəm, sabit, etibarlı, sədaqətli
vəhdət – birlik, bütövlük, bölünməzlik, ümumilik
vəsiyyət – ölərkən bir şəxsin öz övladına, yaxud yaxınlarına verdiyi tapşırıq, göstəriş, məsləhət, son söz

vicdan – öz hərəkəti üçün mənəvi məsuliyyət hissi, təmiz ürək hissi, öz hərəkətlərinin yaxşı və ya pis olduğunu duyma
vücud – can, bədən
vüqar(dır) – *burada*: başıucalıq(dır)

Y
yaramaz – alçaq və nalayiq
yavru (türk) – çocuq, körpə, uşaq, bala
yetirmə – *burada*: təlim və tərbiyə verilib böyüdülmüş, ortaya çıxarılmış, yetişdirilmiş

Z
zənginləşdirin – varlandırın, zəngin edin
zənn etmək – güman etmək, ehtimal etmək, düşünmək
zinət – bəzək, daş-qaş
zirzəmi – yer altında olan ev, anbar və s.
ziyarətgah – ziyarət yeri, ziyarət üçün gedilən yer

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Atalar sözü. Azərnəşr, 1959.
2. “Ayna” uşaq ensiklopediyası. Ayna Mətbu Evi, 2004.
3. Azərbaycanca-rusca lüğət. “Şərq-Qərb” Nəşriyyat Evi, 2006.
4. Azərbaycan dilinin frazeologiya lüğəti. “Altun kitab”, 2015.
5. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, “Şərq-Qərb” Nəşriyyat Evi, 2006.
6. Azərbaycan dilinin orfoqrafiya lüğəti. “Şərq-Qərb” Nəşriyyat Evi, 2014.
7. Azərbaycan dilinin sinonimlər lüğəti. “Yazıçı” Nəşriyyatı, 1990.
8. Azərbaycan muğam ensiklopediyası. “Şərq-Qərb” Nəşriyyat Evi.
9. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərlər. “Şərq-Qərb” Nəşriyyat Evi, 2004.
10. Bəkir Nəbiyev. Üzeyir Hacıbəylinin ömürnaməsi. “Şərq-Qərb” Nəşriyyat Evi, 2012.
11. “Bizim ailə” jurnalı. 2014-cü il nəşri.
12. Clive Oxenden, Christina Latham-Koenig. Oxford. New English file.
13. Əzizə Cəfərzadə. “Bakı–1501” romanı. “Hədəf” nəşrləri, 2015.
14. “Füyuzat” jurnalı. 2009–2012-ci il nəşrləri.
15. “İçərişəhər Azərbaycan tarixində”. “Şərq-Qərb” Nəşriyyat Evi, 2015.
16. Qəzənfər Kazımov. Müasir Azərbaycan dili. “Elm və təhsil”, 2010.
17. M.Cəfərov, S.Ramizoğlu. Ağla və qəlbə işıq saçan sözlər. Bakı, 2009.
18. Misir Mərdanov. “Azərbaycanın təhsil tarixi”. I cild, “Təhsil” Nəşriyyatı.
19. Nadir Abdullayev. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013.
20. Ömər Qoçulu. “Daşa dönmüş musiqi”. “Şərq-Qərb” Nəşriyyat Evi, 2012.
21. Rəvayətli ifadələr. Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1961.
22. Rusca-Azərbaycanca lüğət. “Şərq-Qərb” Nəşriyyat Evi, 2005.
23. Süleyman Rəhimov. Seçilmiş əsərləri. “Şərq-Qərb” Nəşriyyat Evi, 2005.

Buraxılış məlumatı

AZƏRBAYCAN DİLİ 9

Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün
Azərbaycan dili (dövlət dili) fənni üzrə
DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər:	**Bektaşi Samirə Qabil qızı** **İsmayılova Aynurə Zahid qızı** **Cavadova Sevil Eyvaz qızı**
Elmi redaktor	**Tofiq Hacıyev** Filologiya elmləri doktoru, professor
Elmi məsləhətçi	**Ənvər Abbasov** Əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Buraxılışa məsul	**Sevil İsmayılova**
Baş redaktor	**Ülkər Məmmədova**
Dizayner	**Nurlan Nəhmətov**
Səhifələyici	**Yeganə Rüstəmova**
Korrektor	**Nübar Qarayeva**
Texniki redaktor	**Fəridə Səmədova**
Texniki direktor	**Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru	**Eldar Əliyev**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
03.06.2016-cı il tarixli 369 nömrəli əmri ilə
təsdiq edilmişdir.

© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi. Fiziki çap vərəqi 12. Formatı 70x100$^{1}/_{16}$.
Səhifə sayı 192. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tiraj 1227. Pulsuz. Bakı – 2018

“Şərq-Qərb” ASC
AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17

PULSUZ

Əziz məktəbli!

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən
bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri
qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq,
onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli
saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli
yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!